RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 39 (9494) 21 FEVRAL 2024-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Prezident İlham Əliyev yeni tarixi dövrdə də böyük inkişafa və zəfərlərə nail olacaq

Prezident seçkiləri bütöv bir dövrə yekun vuraraq, yeni bir təqvimə, yeni bir mərhələyə start verdi. Bu dövrdə Azərbaycan dövlətinin və xalqının qarşısında yeni vəzifələr, yeni hədəflər dayanır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimində yeni dövrün prioritetləri, Azərbaycan dövlətinin və xalqının qarşısında duran vəzifələr haqqında fikirlərini bölüşdü. Yeri gəlmişkən, möhtərəm Prezident İlham Əliyevin andiçmə mərasimində söylədiyi nitqi birmənalı şəkildə tarixi nitq kimi qiymətləndirə bilərik.

Dövlətimizin başçısının konseptual, dərin təhlilə malik, proqram xarakterli nitqində həm yerli auditoriyaya ünvanlanan, ölkəmizin ötən dövrlərdə əldə etdiyi nailiyyətləri və qarşımızda duran hədəfləri əks etdirən fikirlər yer almış, həm də çox ciddi mesajlar öz əksini tapmışdır. Bizə qürur verən bir məqam da bundan ibarətdir ki, möhtərəm cənab Prezidentin andiçmə mərasiminin Milli Məclisdə keçirilməsi artıq ənənə halını almışdır. Bu da dövlətimizin rəhbərliyi tərəfindən parlamentə verilən önəmi nümayiş etdirir.

→ 2-3

## Böyük qayıdışa zərif töhfə

### 7 il öncə Mehriban xanım Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olundu



Prezident İlham Əliyevin şəxsi diqqəti və nəzarəti ilə cəmi üç il ərzində Qarabağ və Şərqi Zəngəzurda dünyada bərabərinə rast gəlinməyən bərpa və quruculuq işləri aparılır, "ağıllı" şəhər və kəndlər tikilir. Qayıdış proqramının uğurlu icrasının nəticəsidir ki, artıq Zəngilanın Ağalı, Tərtərin Talış, Laçının Zabux kəndlərinin, eləcə də Laçın və Füzuli şəhərlərinin timsalında tarixi yurdlarımıza Böyük qayıdış da həyata keçirilib.

Azərbaycan dövlətinin işğaldan azad edilən torpaqlarda apardığı nəhəng quruculuq və bərpa işlərinə Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu mühüm dəstək verir.

Fəaliyyətə başladığı ilk gündən ölkəmizdə müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirən fond Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi, keçmiş məcburi köçkünlərin dədə-baba torpaqlarına tez zamanda qayıdışı üçün görülən işlərə dəstək verir, tarixi, dini və mədəni irsimizin bərpası istiqamətində mühüm fəaliyyət göstərir.

→ 9

## Yeni güc birliyi - türk dünyası

### Bu birlikdə Azərbaycanın rolu və yeri müstəsnadır



Prezident İlham Əliyev türk dünyası ilə bağlı bəyanatına dünya mətbuatında geniş yer verilir, analitik mərkəzlər bu barədə fikirlərini KİV vasitəsilə geniş ictimaiyyətə çatdırırlar. Xüsusilə Türkiyədə siyasətçilər və təhlilçilər tərəfindən dövlətimizin başçısının türk dünyasının birləşməsi və təşkilatlanması yolunda göstərdiyi səylər yüksək qiymətləndirilir. Sözsüz ki, Orta Asiyadakı türk dövlətləri də Prezident İlham Əliyevin bu cəsarətli çıxışını təqdir edir.

Ancaq burada diqqət yetiriləsi önəmli olan bir məsələ var. Qərb bu ittifaqın baş tutmaması üçün bütün təxribatlara əl atacaq. Çünki qarşımızda Rusiyanın slavyan birliyini yaratmaq barədə təşəbbüsünün qarşısının alınmasının şahidiyik. Belarus və Serbiya xaric bütün slavyan ölkələri, yumşaq desək, Rusiyaya qarşıdır. Elə Ukrayna-Rusiya müharibəsi bu birliyin qarşısını almaq üçün ən böyük maneədir.

Prezident İlham Əliyevin fevralın 19-da Türkiyəyə rəsmi səfəri zamanı mətbuata verdiyi bəyanatında bir daha türk dünyasının birliyinin əhəmiyyətini vurğuladı. Dövlət başçısı yolumuzun hansı yana olduğunu Türkiyədən bir daha bütün dünyaya bəyan etdi.

→ 8

## Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin təməli möhkəm, perspektivləri genişdir

Boru kəmərinin İğdırdan Sədərək rayonuna qədər uzunluğu 97,5 kilometr təşkil edir. Kəmərin Azərbaycan hissəsinin uzunluğu 17,5, Türkiyə hissəsinin uzunluğu isə 80 kilometrdir. Eyni zamanda layihə çərçivəsində Dilucu məntəqəsində qazpaylayıcı stansiya tikiləcək. Bu stansiya 20 min kvadratmetr sahəni əhatə edəcək və boru kəməri ilə qaz axını balansını təmin edəcək. Beləliklə, təbii qaz Naxçıvana ən təhlükəsiz şəkildə daxil olacaq. Boru kəməri ilə gündə 2 milyon kubmetr, ildə isə 730 milyon kubmetr qaz ötürmək mümkün olacaq ki, bu da Naxçıvanın mavi yanacağa tələbatını tam ödəməyə imkan yaradacaq. Gələcəkdə isə boru kəmərinin ötürücülük qabiliyyətini iki dəfədən çox artırmaq mümkündür.

→ 8

## Qardaşlığa və müttəfiqliyə söykənən siyasi ənənə

Türkiyə və Azərbaycan arasında əlaqələr o həddə çatıb ki, münasibətlər "Bir millət, iki dövlət" kimi dəyərləndirilir. Münasibətlərin bu səviyyədə qorunub saxlanmasına tək ümumi maraqlar deyil, dostluq, eyni zamanda iki liderin bir-birinə olan qardaş münasibəti də öz töhfəsini verir. Bunun nəticəsidir ki, Türkiyə ilə Azərbaycan arasında siyasi, iqtisadi, eləcə də hərbi sahədə layihələr icra edilir. Əməkdaşlıq əlaqələri hər bir sahəni əhatə edir.

→ 8

## Azərbaycan növbəti beynəlxalq tədbirə evsahibliyi edir

### Bakıda bu gün Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyası başlayır

**Bakı növbəti mötəbər beynəlxalq tədbirə evsahibliyi edir. Bu gündən paytaxtımızda Asiya Parlament Assambleyasının (APA) 14-cü plenar sessiyası başlayır.**

Bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, fevralın 24-dək davam edəcək sessiyada 40-dək ölkənin parlament nümayəndə heyəti, o cümlədən 10-a yaxın ölkənin spikeri iştirak edəcək.

→ 5

## "Qardaş yenə də ilk bizə gəldi"

### Prezident İlham Əliyevin səfəri Türkiyənin əsas gündəm mövzusu oldu




→ 11

## Şərəfli missiya

Bu gün Mehriban Əliyevanın Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin olunmasının 7 ili tamam olur. Yaxşı xatırlayırıq ki, o zaman bu təyinat cəmiyyətimizdə xüsusi razılıqla qarşılanmışdı. Bu təyinatla bağlı söylənilən bütün fikirləri birləşdirən ümumi ortaq məxrəc həm də ondan ibarət idi ki, hər kəs Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsini layiqincə icra edəcəyinə əmin idi. Bu da ondan irəli gəlirdi ki, xalq Birinci vitse-prezident vəzifəsinə təyin olunana qədər Mehriban Əliyevanın çalışdığı bütün vəzifələrdə dövlət və millətə layiqli xidmət məramını görmüşdü. Buna qədər Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, Azərbaycan Mədəniyyət Fondunun və Azərbaycan Gimnastika Federasiyasının rəhbəri kimi respublikamızın uğurlarına layiqli töhfələr vermişdi. Bütün bunlar həm də onu göstərir ki, Mehriban Əliyeva Birinci vitse-prezident təyin olunana qədər olduqca əhatəli ictimai-siyasi fəaliyyətlə məşğul olub.

Birinci vitse-prezidentlik institutunun Azərbaycanda dövlət idarəetməsindəki fəaliyyəti praktiki olaraq Mehriban Əliyevanın bu vəzifəyə təyinatı ilə başlayır. Mehriban Əliyeva ilk günlərdən Birinci vitse-prezident vəzifəsinin idarəetmədəki yerini və rolunu layiqincə doğruldub.

→ 9

## Uşaqların böyük himayədarı

Heydər Əliyev Fondu tərəfindən mütəmadi olaraq xüsusi qayğıya ehtiyacı olan uşaqlara diqqət göstərilir, onların sağlamlığının bərpası üçün tədbirlər görülür, problemlərinin həlli istiqamətində mühüm layihələr həyata keçirilir. Belə ki, Heydər Əliyev Fondu tərəfindən daun, autizm, talassemiya, epidermoliz, əqli və fiziki qüsurlu, xərçəng, şəkər kimi xəstəlikləri olan uşaqlar üçün xüsusi müalicə və reabilitasiya mərkəzləri inşa edilib, onlar lazım olan bütün tibbi avadanlıqlarla təmin edilib. Ötən dövrdə Heydər Əliyev Fondu "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", ürək qüsurlu uşaqların əməliyyatına dəstək, "Koxlear implantasiya" kimi layihələr həyata keçirib.

→ 10

## Heydər Əliyev Fondunun təşəbbüsü ilə...

"Təmiz Şəhər" tərəfindən bərk məişət tullantılarının çeşidlənməsi, yandırılması, Böyükşor gölünün ekoloji bərpası kimi bir çox mühüm layihə həyata keçirilir. Möhtəşəm layihələr arasında kiçikdən-böyüyə hər kəsin diqqətini çəkən isə 2015-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisində yaradılan "Tullantıdan Sənətə" muzeyidir. Bilirik ki, gündəlik məişətdə istifadə olunan plastik qablar, sellofanlar, batareyalar torpaqda həll olmayan təbiət üçün ciddi çirkləndiricilərdir. Bu baxımdan tullantıların düzgün idarə edilməsi bizi həm bu günün, həm də gələcəyin təhlükələrindən qoruyur.

Azərbaycanda 2012-ci ildən keçirilən beynəlxalq "Tullantıdan Sənətə" sərgisi də bu xüsusda böyük maarifləndirici əhəmiyyətə malikdir.

→ 10

## Qüdrətli ordumuz xəyalları gerçəkləşdirdi

Cəbhə bölgələrindən gələn şad xəbərlərdən, qazanılan uğurlardan kədərli çöhrəmizə qələbə sevinciələndi. Xalqımız müstəqilliyinin təminatçısı olan və böyük məhəbbət bəslədiyi ordusundan hər gün qələbə xəbərləri eşitdi. Hər gün böyük strateji əhəmiyyətə malik olan yüksəkliklər, kənd və qəsəbələr, rayon mərkəzləri düşməndən azad olundu. Əvvəlki çağlar işğalda qalmış torpaqlarımıza qayıtmağı, o yerlərə ayaq basmağı biz yalnız xəyal edərdik. Amma artıq xəyalların gerçəkləşdiyi zaman idi. Azərbaycan Ordusu hünər və qəhrəmanlığı ilə döyüş meydanlarında böyük zəfərlər qazanaraq 44 gün ərzində bunu bacardı. Silahlı Qüvvələrimizin şəxsi heyəti qanı və canı bahasına uzun illər erməni qəsbkarlarının tapdağında qalmış torpaqlarımızı işğalçılardan azad etdi.



→ 13

# Prezident İlham Əliyev yeni tarixi dövrdə də

Dünyanın hər yerində seçki marafonları başa çatdıqdan sonra cəmiyyət, ictimai və siyasi institutlar tərəfindən seçkilərin nəticələri ilə bağlı geniş müzakirələr, diskussiyalar aparılır, bu nəticələri doğuran reallıqlar təhlil edilir. Azərbaycanda fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərinin ölkəmizin milli inkişaf, xalqımızın dövlətçilik tarixində mühüm yerini xarakterizə edərkən, bir çox məqamları sadalaya bilərik.

İlk növbədə ötən ilin sentyabr ayında ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün tam bərpasından sonra xalqımızın dövlətçilik tarixində birinci dəfədir ki, seçkilər bütöv, suveren Azərbaycan ərazilərinin hər yerində, o cümlədən işğaldan azad olunmuş bütün şəhər və kəndlərimizdə keçirildi. Ona görə də prezident seçkiləri Azərbaycan tarixinə həm də Zəfər seçkiləri kimi yazıldı və xalqımızın, Azərbaycan seçicisinin iradəsi bu seçkilərin nəticəsində öz əksini tapdı.

Digər mühüm bir məqam prezident seçkilərinin demokratik, azad və ədalətli şəkildə keçirilməsidir. Azərbaycan gənc müstəqil dövlət olmasına baxmayaraq, artıq ölkəmizin kifayət qədər zəngin demokratik seçki təcrübəsi formalaşmışdır. Bu da ölkəmizdə keçirilən bütün seçkilərin qabaqcıl standartlara uyğun təşkilinə imkan verir. Ölkə üzrə seçicilərin 76,43 faizinin səsvermədə iştirak etdiyi bu seçkilər də əsl demokratiya bayramına çevrildi. Prezident seçkilərinin müşahidəsinə 72 nüfuzlu beynəlxalq qurumu və 89 ölkəni təmsil edən 800 nəfərə yaxın beynəlxalq müşahidəçinin qatılması, eyni zamanda dünyanın 110 aparıcı xarici media subyektindən 220 nəfərə yaxın təmsilçinin, o cümlədən 90 mindən artıq yerli müşahidəçinin seçkiləri izləməsi prosesin müşahidəçilik baxımından açıq olduğunu təsdiqləyir. Prosesin yekununda isə bütün müşahidəçilər növbədənkənar prezident seçkilərinin təşkili ilə bağlı yalnız müsbət fikir və təəssüratlarını bölüşərək, ölkəmizin seçki təcrübəsinin, prosesdə tətbiq olunan yeniliklərin bir sıra dövlətlər üçün nümunə təşkil etdiyini vurğuladılar.

Beləliklə, prezident seçkiləri bütöv bir dövrə yekun vuraraq, yeni bir təqvimə, yeni bir mərhələyə start verdi. Bu dövrdə Azərbaycan dövlətinin və xalqının qarşısında yeni vəzifələr, yeni hədəflər dayanır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimində yeni dövrün prioritetləri, Azərbaycan dövlətinin və xalqının qarşısında duran vəzifələr haqqında fikirlərini bölüşdü. Yeri gəlmişkən, möhtərəm Prezident İlham Əliyevin andiçmə mərasimində söylədiyi nitqi birmənalı şəkildə tarixi nitq kimi qiymətləndirə bilərik.

Dövlətimizin başçısının konseptual, dərin təhlilə malik, proqram xarakterli nitqində həm yerli auditoriyaya ünvanlanan, ölkəmizin ötən dövrlərdə əldə etdiyi nailiyyətləri və qarşımızda duran hədəfləri əks etdirən fikirlər yer almış, həm də çox ciddi mesajlar öz əksini tapmışdır. Bizə qürur verən bir məqam da bundan ibarətdir ki, möhtərəm cənab Prezidentin andiçmə mərasiminin Milli Məclisdə keçirilməsi artıq ənənə halını almışdır. Bu da dövlətimizin rəhbərliyi tərəfindən parlamentə verilən önəmi nümayiş etdirir.

## Heydər Əliyev siyasətinin təntənəsi

7 fevral prezident seçkilərinin verdiyi ən mühüm mesaj Azərbaycan xalqının növbəti dəfə möhtərəm Prezident İlham Əliyevə etimad göstərməsi oldu. Möhtərəm Prezident İlham Əliyev 92,12 faiz səslə prezident seçkilərində qalib gələrək yeni dövrdə də ölkəmizə və xalqımıza rəhbərlik etmək mandatı qazandı. Təbii ki, bu qələbə Azərbaycan xalqının öz liderinə sonsuz etimadının, dövlətimizin başçısının rəhbərliyi ilə son 20 ildə görülən işlərə, qazanılan nailiyyətlərə yüksək münasibətinin daha bir sübutudur. Xalqımız 2003-cü ildə Ulu Öndər Heydər Əliyev siyasətinə, onun layiqli davamçısı möhtərəm Prezident İlham Əliyevə necə etimad göstərib, onun ətrafında bir yumruq kimi birləşmişdisə, bu gün də eyni mütəşəkkilliklə, eyni inam və güvənlə dövlətimizin başçısının yanında yer alır.

Ümummilli Lider Heydər Əliyev *2003-cü il oktyabrın 1-də* Azərbaycan xalqına tarixi müraciətində tam haqlı olaraq, cənab İlham Əliyevə böyük etimadını ifadə etmiş və bəyan etmişdir ki, *"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək"*. Azərbaycan xalqı isə heç bir tərəddüd etmədən və əminliklə Ümummilli Liderin bu müraciətinə dəstək vermişdir. Möhtərəm Prezident İlham Əliyev ali kürsüdə vəzifəsinin icrasına başlayarkən qeyd etmişdir ki, Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. *"Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm"* deyən möhtərəm Prezident İlham Əliyev hər zaman Heydər Əliyev yoluna, Heydər Əliyev siyasətinə sadiq olmuş, bu siyasəti uğurla davam etdirərək, Azərbaycana bu gün bir çoxunun qibtə etdiyi nəhəng uğurları qazandırmışdır və 2003-cü ildən bu günə qədər Azərbaycanın əldə etdiyi misilsiz nailiyyətlər Heydər Əliyev siyasətinin təntənəsidir.

Bir çox xalqın tarixi inkişaf mərhələlərinə nəzər yetirdikdə, onların əldə etdiyi nailiyyətlərdə lider faktorunun inkarolunmaz rolu diqqət cəlb edir. Liderlər tarixin ən mürəkkəb dövrlərində meydana çıxaraq, öz xalqlarını milli ideya və məqsədlər ətrafında birləşdirir, onları zamanın tələtümlərindən qoruyur və inkişafa doğru aparır. Azərbaycanın yaxın keçmişi liderin millətin, xalqın taleyindəki rola çox aydın işıq tutur. Bu gün siyasi ekspertlər, mütəxəssislər Azərbaycanın son 20 ildə qazandığı möhtəşəm nailiyyətləri şərtləndirən bir çox əsaslar barədə təhlillərini, fikirlərini ifadə edirlər. Prezident İlham Əliyevin böyük liderlik keyfiyyətlərinə, idarəetmə bacarıqlarına malik dövlət başçısı olması tezisi tam obyektiv olaraq, bu təhlillərin ana xəttini təşkil edir. Ən mürəkkəb vəzifələr, bir çoxları tərəfindən mümkün görünməyən işlər dövrünün nəhəng dövlət və siyasi xadimlərindən biri olan Prezident İlham Əliyevin qətiyyəti, yorulmaz fəaliyyəti və prinsipiallığı sayəsində öz həllini tapmış, onun rəhbərliyi ilə Azərbaycan modernləşərək yeni bir keyfiyyət mərhələsinə qədəm qoymuş, ölkənin siyasi, iqtisadi, mədəni həyatı yeniləşərək tamamilə dəyişmişdir.

## Uğurlarla, qələbələrlə zəngin 20 il

Azərbaycanın əldə etdiyi nailiyyətlərin əsasında dayanan mühüm faktorlardan biri ictimai-siyasi sabitlik amilidir. Çünki biz bilirik ki, hər bir dövlətin inkişafının əsasında sabitlik amili dayanır. Sabitliyin təmin olunmadığı yerdə inkişafdan söhbət belə gedə bilməz. Dünyada, o cümlədən bizi əhatə edən coğrafiyada baş verən hadisələr, sabitliyin pozulması ilə müşayiət edilən qanlı toqquşmalar, müharibələr, inqilablar, siyasi, iqtisadi, maliyyə böhranları, bir çox xalqın yaşadığı faciələr möhtərəm Prezident İlham Əliyev tərəfindən ölkəmizdə 2003-cü ildən sonra da sabitliyin qorunub saxlanılmasının, daha da möhkəmləndirilməsinin nə qədər əhəmiyyətli olması faktını sübuta yetirir. Onu da bilirik ki, Azərbaycana qarşı, dövlətimizin müstəqilliyini hədəf alan təxribatlar həmişə olmuşdur. O cümlədən 2003-cü ildən sonra da biz bu cür məkrli addımların şahidi olmuşuq. Lakin bütün bu planlar möhtərəm Prezident İlham Əliyevin qətiyyəti, xalqımızın öz liderinin ətrafında yumruq kimi birləşməsi sayəsində öz hədəflərinə çata bilməmişdir. Möhtərəm Prezident İlham Əliyev andiçmə mərasimindəki nitqində də bu məqama diqqət çəkərək demişdir: *"Bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olmuşdur. Çətinliklər də oldu, problemlər də oldu, ancaq Azərbaycan xalqı bir yumruq kimi birləşərək bütün çətinliklərə və problemlərə baxmayaraq, inkişaf və tərəqqi yolu ilə uğurla gedirdi"*.

Dövlətimizin başçısının düşünülmüş, uzaqgörən siyasəti, sarsılmaz milli birlik və həmrəylik, hakimiyyətin yürütdüyü siyasətin əhalinin mütləq əksəriyyəti tərəfindən dəstəklənməsi sayəsində Azərbaycan xalqı və dövləti bütün risklərdən, təhlükələrdən qoruna bilmiş, sülh, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşamışdır. Bu gün Azərbaycan möhkəm ictimai-siyasi sabitlik əmsalına görə dünyanın ən öndə gedən ölkələrindən biridir və dövlət başçımızın da qeyd etdiyi kimi, bu sabitliyin təməlində xalq-iqtidar birliyi, uğurlu siyasət və əldə edilmiş nailiyyətlər dayanır: *"Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz, doğrudan da, bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik"*.

## Yeni tərəqqi erasına daxil olmuş Azərbaycan innovativ və modern iqtisadiyyata malik ölkə kimi inamla inkişaf edir

Azərbaycanın möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 20 ildə keçdiyi tarixi inkişaf yoluna nəzər salanda görürük ki, dövlətimizin başçısının quruculuq, yaradıcılıq missiyasında yenilikçilik, təşəbbüskarlıq, praqmatizm keyfiyyətləri hər zaman ön plana çıxır. Dünyanın ən qabaqcıl standartları Azərbaycanın dövlət quruculuğunda tətbiq olunur, xalqımızın lideri modern və səmərəli təşəbbüsləri ilə ölkəmizin sürətli inkişafını təmin edir. Müasir iqtisadiyyat quruculuğu, iqtisadi sistemin yenilənməsində də dövlət başçısının bu yanaşması mühüm bir amil kimi diqqət cəlb edir. Ötən 20 ildə dünyada cərəyan edən mürəkkəb proseslərin yaratdığı narahatlıqlara baxmayaraq, Azərbaycan uğurlu və dayanıqlı inkişafını davam etdirmiş, dünyada ən sürətlə inkişaf edən ölkələr sırasında yer almışdır. Həyata keçirilmiş ardıcıl və məqsədyönlü iqtisadi siyasət nəticəsində Azərbaycan yeni tərəqqi və inkişaf erasına daxil olmuş, innovativ və modern iqtisadiyyata malik ölkə kimi inamla inkişaf etmiş, uzunömürlü tərəqqi, dayanıqlı makroiqtisadi sabitlik təmin edilmiş, iqtisadiyyatın şaxələndirilməsinə nail olunmuş, həyata keçirilən dövlət proqramları bütün bölgələrin hərtərəfli və tarazlı sosial-iqtisadi tərəqqisinə və qeyri-neft sektorunun inkişafına yol açmışdır.

Son 20 ildə ölkəmizin iqtisadi artım dinamikasına dair rəqəmlər kifayət qədər pozitiv olmaqla, bütün mənzərini aydın göstərir. Bu dövrdə iqtisadiyyatda rekord artım göstəriciləri qeydə alınmış, iqtisadiyyatın əsas indikatorlarından biri olan ümumi daxili məhsul istehsalı təxminən 4 dəfə artmışdır. 2003-cü ildə Azərbaycanın 7 milyard dollar təşkil edən ÜDM-si 2023-cü ilin yekunlarına görə 72 milyard dollar olmuşdur. Bu dövrdə sənaye məhsulu istehsalı 2,7 dəfə, o cümlədən qeyri-neft-qaz sənayesi üzrə 3,8 dəfə artmışdır. Sürətli inkişaf dövlət büdcəsinin gəlirlərinin də artmasını təmin etmiş, büdcə gəlirləri 25,1 dəfə, xərcləri 26 dəfə artmışdır.

Məqsədyönlü siyasət ölkəmizin birbaşa xarici borcunun da əsaslı şəkildə azalmasını şərtləndirmişdir. Bu gün Azərbaycanın birbaşa xarici borcu 6,4 milyard dollardır ki, bu da ümumi daxili məhsulun 9 faizini təşkil edir. Nəzərə alsaq ki, hətta bir çox inkişaf etmiş ölkədə belə bu rəqəm 100 faizdən artıqdır, onda Azərbaycanın bu istiqamətdəki nailiyyətinin nə dərəcədə əhəmiyyətli olması daha aydın şəkildə ortaya çıxır və ölkəmizin sağlam, möhkəm əsaslara malik, dayanıqlı maliyyə sistemi yaratmağa nail olduğunu göstərir. Ötən dövrdə həmçinin xarici ticarət dövriyyəsinin həcmində 10,8 dəfə, qeyri-neft-qaz məhsullarının ixracında isə 8,2 dəfə artım qeydə alınmışdır. Bu dövrdə Azərbaycanın xarici ticarət əlaqələri qurduğu ölkələrin sayı 124-dən 185-dək və ya 49,2 faiz artmışdır.

Aparılan çoxşaxəli islahatlar Azərbaycanda tamamilə yeni bir investisiya iqlimi yaratmışdır. Əgər əvvəlki illərdə investisiyalar daha çox neft-qaz sahəsinə qoyulurdusa, bu gün qeyri-neft sektoruna qoyulan sərmayə milyardlarla dollar səviyyəsindədir. Təbii ki, Azərbaycan iqtisadiyyatının inkişafına, misilsiz uğurlarına dair bu kimi faktların sayını artıra, çoxsaylı uğurları sadalaya bilərik. Lakin hesab edirik ki, qeyd olunan göstəricilər belə ötən 20 ildə Azərbaycanın inkişaf yolunun nəhəngliyinə işıq tutur, Azərbaycanın bəzi dövlətlərin onilliklərlə əldə edə bilmədiyi nailiyyətlərə dövlətçilik baxımından çox qısa bir dövr ərzində imza atdığını təsdiq edir.

## Xalqa ləyaqətlə xidmət etmək nümunəsi

Azərbaycanın möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 20 ildə keçdiyi inkişaf yolunu xarakterizə edərkən ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial təminat sisteminin dinamikası istiqamətində görülmüş tədbirləri və əldə olunmuş uğurları xüsusilə qeyd etmək lazımdır. Həyata keçirilən çoxşaxəli islahatlar, genişmiqyaslı tədbirlər sosial dövlət quruculuğu istiqamətində böyük nailiyyətlərin əldə olunmasını şərtləndirmişdir. Ölkənin ildən-ilə artan maliyyə imkanları hər zaman vətəndaşların daha yaxşı həyat şəraiti ilə təmin olunmasına, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət quruculuğuna xidmət etmişdir. Möhtərəm liderimizin səsləndirdiyi *"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşları, onların mənafeyi dayanır"* iqtibası ölkəmizdə reallaşdırılan sosial siyasətin mahiyyətini ifadə etməklə, cənab İlham Əliyevin Prezident kimi fəaliyyətinin qayəsinin *"xalqa ləyaqətlə xidmət etmək"* prinsipi təşkil etdiyini göstərir.

Cənab İlham Əliyev həmişə sözünə güvənilən liderdir. Bütün Azərbaycan xalqı bilir və əmindir ki, dövlətimizin başçısının sözü ilə əməli üst-üstə düşür. O, nəyi deyirsə, onu da edir, nə vəd verirsə, çox keçmədən bütün hər kəs bu vədin həyata keçdiyinə şahid olur. Prezident kimi vəzifəsinin icrasına başlayarkən, *sosial problemlərin həlli istiqamətində böyük işlər görüləcəyini* bildirən cənab Prezidentin rəhbərliyi ilə sosial həyatın elə bir sahəsi yoxdur ki, orada məqsədyönlü tədbirlər həyata keçirilməsin. Dövlət başçısının uğurlu sosial siyasətinin nəticəsi olaraq 2003-2023-cü illərdə dövlət büdcəsinin illik sosial müdafiə və sosial təminat xərcləri 20 dəfədən çox artmışdır ki, bu rəqəm nəinki keçmiş postsovet məkanında, eləcə də dünyanın qabaqcıl dövlətləri ilə müqayisədə də ən yüksək göstəricilərdən biridir. Bu dövrdə əhalinin nominal gəlirləri 12 dəfə, orta aylıq əməkhaqqı 10,8 dəfə, pensiyaların orta aylıq məbləği 15,6 dəfə artmışdır. O cümlədən işsizliyin səviyyəsi 5,6 faizə, yoxsulluq səviyyəsi 44,7 faizdən 5,5 faizədək enmişdir. Sözügedən dövrdə əhalinin yaşayış səviyyəsinin əsas indikatorlarından biri olan minimum əməkhaqqı 38 dəfə artırılaraq 345 manata, minimum pensiya 14 dəfə artırılaraq 280 manata çatdırılmışdır. Həmçinin orta aylıq əməkhaqqı 12 dəfə artaraq 940 manata, orta aylıq pensiya 18 dəfədən çox artaraq 500 manata çatmışdır.

Möhtərəm Prezident İlham Əliyev tərəfindən şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial müdafiəsinə daim xüsusi diqqət və qayğı göstərilmiş, bu istiqamətdə tədbirlər hazırda da davam etdirilir. Bu kateqoriyadan olan vətəndaşlarımız üçün müxtəlif sosial proqramlar icra olunur, onların həyat şəraitinin yaxşılaşdırılması üçün ardıcıl tədbirlər görülür. Bunun daha bir təzahürü olaraq 2007-ci ilin əvvəlindən onlar üçün Prezidentin aylıq təqaüdü təyin edilmiş və ötən dövrdə bu təqaüdlər orta hesabla 6 dəfə artırılmış, şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminat proqramı ildən-ilə genişləndirilmiş, postmüharibə dövründə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 6000, ümumilikdə ötən dövrdə 14800 mənzil və fərdi ev verilmişdir. Bundan başqa, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin avtomobillə təminatı işləri həyata keçirilmiş, ötən dövrdə 7600 avtomobil müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə verilmişdir. Bu kateqoriyadan olan insanların 100 faiz evlərlə təmin edilməsi üçün proses qarşıdakı dövrdə də davam etdiriləcək.

Son 20 ildə Azərbaycanda sosial-mədəni infrastrukturun da tamamilə yenilənməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. Ötən müddət ərzində əsas hissəsi bölgələrə aid olmaqla 3.600-dən çox məktəb, 450-dən çox uşaq bağçası, 760-a yaxın tibb müəssisəsi, 43 Olimpiya İdman Kompleksi tikilmişdir. Yüzlərlə tarixi binada, muzey, teatr və kitabxanada geniş yenidənqurma işləri həyata keçirilmiş, ölkənin bütün ali təhsil ocaqları təmir edilərək təhsil ictimaiyyətinin ixtiyarına verilmişdir. Regionlarda qazlaşdırmanın səviyyəsi 94 faizi ötmüş, fasiləsiz içməli su alan əhali üzrə göstərici 9 faizdən 73 faizə çatmışdır.

## Milli maraqlara və milli iradəyə söykənən xarici siyasət

Ötən 20 ildə bütün digər sahələrdə olduğu kimi, xarici siyasət və diplomatiyada da milli maraqlara söykənən müstəqil xarici siyasət strategiyası həyata keçirilmişdir. Andiçmə mərasimindəki nitqində dövlətimizin başçısı qeyd etmişdir ki, *güclü iqtisadiyyat, güclü ordu, daxili sabitlik, xalq-iqtidar birliyi xarici siyasətimizin əsas amilləridir.*

Əlbəttə, biz Azərbaycanın diplomatiya və xarici siyasət sahəsində əldə etdiyi misilsiz nailiyyətləri möhtərəm Prezident İlham Əliyevin dünya liderləri arasında böyük nüfuza malik olması gerçəkliyi ilə paralel təhlil etməliyik. Möhtərəm Prezident İlham Əliyev qlobal miqyaslı şəxsiyyət, dünyanın ən nüfuzlu liderlərindən biridir. Azərbaycanın dövlət başçısının yüksək beynəlxalq nüfuzu, onun dürüst, etibarlı, sözünün imzası qədər dəyəri olan lider kimi qlobal arenada da bir sıra problemlərin həlli təşəbbüsləri ölkəmizin qarşısında da geniş əməkdaşlıq imkanları yaratmışdır. Azərbaycan Prezidenti bütün məsələlərdə beynəlxalq hüquqa və ədalətə istinad edir, yüksək diplomatik səriştə nümayiş etdirir.

Prezident İlham Əliyev şantajla, təhdidlə dövlətlərin milli siyasətlərinə təsir göstərməyə vərdiş etmiş güc mərkəzlərinə qarşı cəsarətli lider nümunəsi ortaya qoyaraq, milli mənafe və maraqları ən üst səviyyədə müdafiə və təmin etməyə qadir olduğunu nümayiş etdirir. O, Azərbaycanın beynəlxalq münasibətlərin güclü, fəal aktoru kimi, nüfuzunun və mövqelərinin də möhkəmlənməsini təmin etmişdir və bu gün Azərbaycan dünyada ləyaqətli dövlət kimi tanınır. Azərbaycan heç vaxt heç bir ölkənin işinə qarışmayıb və heç vaxt imkan verməyib ki, kimsə Azərbaycanın daxili işlərinə müdaxilə etsin. Dövlətimizin başçısının "*Heç kim bizimlə diktat dili ilə danışa bilməz. Bəziləri bunu istəyir, ancaq alınmır və alınmayacaq"* mesajı ölkəmizə qarşı heç də xoşniyyətlə davranmayan bəzi mərkəzlərə öz yerini göstərir. Əlbəttə, yeni mərhələdə də Azərbaycan diplomatiya sahəsində fəal, qətiyyətli addımlarını davam etdirmək əzmindədir. Möhtərəm Prezident İlham Əliyevin söylədiyi kimi, *Azərbaycana qarşı addımlara adekvat addımlar atılacaq və ölkəmizə qarşı məkrli planlar hazırlayanlar peşman olacaqlar.*

Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əməkdaşlıq təşəbbüsləri nəinki bölgədə, daha da böyük coğrafiyada böyük məna daşıyır. Bunun təsdiqi ölkəmizin dünyanın ən böyük təşkilatlarında uğurlu təmsilçiliyi, bu təşkilatların mühüm tədbirlərinə sədrliyidir. Üstəlik, Azərbaycan bu təşkilatlara sadəcə formal sədrlik həyata keçirməmiş, o təşkilatların fəaliyyətinin daha da aktivləşdirilməsinə, qlobal problemlərin həllinə səy göstərmişdir.

Azərbaycan 2011-ci ildə 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmiş, möhtərəm Prezident İlham Əliyev bu yüksək kürsüdən beynəlxalq münasibətlər sistemində, o cümlədən BMT-nin özündə mövcud olan qüsurları, problemləri açıq və cəsarətlə qınamış, islahatlara çağırış etmişdir. Yaxud Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi Azərbaycan Prezidentinin bir çox əlamətdar təşəbbüsü ilə yaddaşlara həkk olunmuşdur. Bu gün Hərəkata üzv dövlətlər tərəfindən də ən yüksək səviyyədə etiraf olunur ki, Azərbaycanın və onun liderinin bu təşkilata sədrliyi Qoşulmama Hərəkatına yeni nəfəs vermiş, onu canlandırmış, institusional və funksional inkişafını təmin etmişdir. *Azərbaycan Prezidentinin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılması da ölkəmizin qlobal əməkdaşlığa daha bir töhfəsidir. Azərbaycanın uğurlu sədrliyinin nəticəsidir ki, Parlament Şəbəkəsi çoxtərəfliliyi, dialoqu və parlamentlərarası əməkdaşlığı təşviq etmək üçün mühüm platformaya çevrilməkdə və yeni yaradılmasına baxmayaraq, parlament diplomatiyasında bu təşkilatın rolu və əhəmiyyəti artmaqdadır.*

Eyni zamanda Azərbaycanın Avropa İttifaqı ilə çoxistiqamətli əməkdaşlığı, beynəlxalq sülhyaratma və təhlükəsizliyin təmin olunmasında NATO ilə, türk dövlətləri arasında dostluq və qardaşlıq əlaqələrinin inkişafına xidmət edən Türk Dövlətləri Təşkilatı ilə, regional münasibətlərin uğurla tənzimləməsinə yönələn fəaliyyəti ilə seçilən regional təşkilatlarla əlaqələri də əsaslı şəkildə inkişaf etmiş və səmərəli nəticələrin əldə olunması ilə müşayiət olunmuşdur. Həmçinin İslam Əməkdaşlıq Təşkilatı ilə geniş əlaqələr mövcuddur.

Türk dövlətləri arasında birlik və həmrəylikdən söz düşmüşkən, qeyd edək ki, bu məsələ qarşıdakı yeni dövrdə Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri olacaqdır. Möhtərəm Prezidentin andiçmə mərasimində qeyd etdiyi kimi, *bizim ailəmiz türk dünyasıdır.* Azərbaycanın Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətləri var və bu təşkilatı gücləndirmək, onun qlobal arenada da önəmli bir aktora çevrilməsinə nail olmaq müəyyən olunmuş hədəflər sırasındadır.



# böyük inkişafa və zəfərlərə nail olacaq




Azərbaycan Respublikası Milli Məclisi də dövlət başçısının bu tövsiyəsinə uyğun olaraq, qardaş türk dövlətlərinin qanunvericilik orqanları ilə həm TürkPA və digər beynəlxalq təşkilatlar çərçivəsində, həm də ikitərəfli əsasda geniş əməkdaşlıq əlaqələri qurmuşdur. Qarşıdakı dövrlərdə bu münasibətlərin daha da dərinləşdirilməsi üçün müvafiq tədbirlər həyata keçiriləcəkdir.

## Ənənəvi enerji mənbələrindən "yaşıl enerji" hədəfinə doğru

Ötən 20 ilin mühüm nailiyyətləri sırasında Azərbaycanın Avropanın ən önəmli enerji tərəfdaşlarından birinə çevrilməsini də qeyd etmək lazımdır. Əsası 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə "Əsrin müqaviləsi"nin imzalanması ilə qoyulan Azərbaycanın enerji siyasəti bu gün dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə daha da zənginləşdirilərək uğurla həyata keçirilməkdədir. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan nəhəng transmilli energetika layihələri nəinki Azərbaycan dövlətinə və xalqına böyük uğurlar qazandırır, eyni zamanda açıq dənizlərə çıxışı olmayan Azərbaycan qitənin enerji xəritəsini dəyişdirmişdir. Bu illər ərzində Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilmiş, "Cənub qaz dəhlizi"nin açılışı olmuşdur.

Məmnuniyyətlə vurğulamaq lazımdır ki, bu gün görülmüş tədbirlər nəticəsində Azərbaycan nəqliyyat sahəsində də lider dövlətlərdən birinə çevrilmişdir. Bunu ölkəmizin beynəlxalq təşkilatların reytinqlərində daim yüksək yerlərdə qərar tutması da təsdiq edir. Möhtərəm Prezident İlham Əliyevin təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülmüş, Bakı-Tbilisi-Qars dəmir yolunun inşa edilməsi bölgəmizdə və bütövlükdə Avrasiyada yeni nəqliyyat habını yaratmışdır. Azərbaycan siyasi, iqtisadi və strateji baxımdan böyük əhəmiyyətə malik beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirak etməklə Avrasiyada mühüm tranzit və logistika mərkəzlərindən birinə çevrilmişdir.

Cənab İlham Əliyevin 20 illik prezidentliyi dövründə Azərbaycan dünyada sayı məhdud olan kosmik ölkələr sırasına qoşulmuşdur ki, bu da ölkəmizin iqtisadi gücünü göstərən digər mühüm amillərdən biridir.

Azərbaycan enerji resursları ilə zəngin olmasına və dünyada enerji resurslarının ixracatçısı kimi tanınmasına baxmayaraq, ölkəmizdə möhtərəm Prezident İlham Əliyevin tapşırığı ilə bərpaolunan enerji mənbələrindən istifadə də hər zaman diqqət mərkəzində olmuşdur. Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin əsas hədəflərindən biri də bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsidir. 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerjinin payının 30 faizə çatdırılması qarşıya qoyulan məqsədlərdən biridir. "Azərbaycan - 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində də iqlim dəyişikliyi və onunla mübarizə istiqamətində, eləcə də ölkəmizdə "yaşıl enerji" məkanı prinsiplərinə əsaslanan bərpaolunan enerjinin iqtisadiyyatın bütün sahələrində tətbiqi məsələləri öz əksini tapmışdır. Ölkəmizin bir sıra ərazilərində bu məqsədlə həyata keçirilən layihələrlə yanaşı, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "yaşıl enerji zonası" yaradılmışdır. Təbii ki, ölkəmizin həyata keçirdiyi bu tədbirlər və əldə olunan nailiyyətlər beynəlxalq ictimaiyyət tərəfindən də yüksək qiymətləndirilir. Azərbaycanın 2024-cü ildə dünyanın ən böyük və mühüm beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un bu il Azərbaycanda keçirilməsi möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə keçirilən məqsədyönlü siyasətin növbəti uğurudur.

## Azərbaycanda siyasi və iqtisadi islahatlar vəhdət təşkil edir

Azərbaycanın inkişaf strategiyasının mühüm komponentlərindən birini də siyasi islahatlar, siyasi sistemin inkişafına xidmət edən çoxşaxəli tədbirlərin həyata keçirilməsi təşkil edir. Dövlətimizin başçısı İlham Əliyev ölkəmizin inkişaf prioritetləri haqqında danışarkən qeyd etmişdir ki, *demokratik inkişaf, insan hüquqlarının qorunması, qanunun aliliyinin və fundamental azadlıqların təmin olunması ölkəmizin əsas prioritetlərindəndir.* Dövlət başçısı bir məqamı da dəfələrlə bəyan edib ki, demokratiya, demokratik inkişaf Azərbaycan xalqının, dövlətinin şüurlu seçimidir. Azərbaycan bu yolu kiminsə xoşuna gəlmək, ya da hansısa xarici subyekt tərəfindən xoş sözlər eşitmək üçün seçməyib.

Möhtərəm Prezident İlham Əliyevin yanaşması belədir ki, Azərbaycanda siyasi və iqtisadi islahatlar vəhdət təşkil etməlidir. Başqa sözlə, müasir iqtisadi sistem müasir siyasi sistemlə tamamlanmalıdır və Azərbaycanın bu istiqamətdə gördüyü tədbirlər kifayət qədər ciddi nailiyyətlərlə müşayiət olunmaqdadır. Son 20 ildə *Azərbaycanda siyasi plüralizmin və çoxpartiyalı demokratik siyasi sistemin inkişaf etdirilməsi, dövlət və özəl qurumların fəaliyyətində şəffaflığın və hesabatlılığın təmin olunması, ictimai və sosial xidmətlər sahəsində institusional islahatların reallaşdırılması ilə yeni və ciddi keyfiyyət dəyişikliyinə nail olunması, həyata keçirilən kadr islahatları müasir mərhələdə Azərbaycanda praqmatik, düşünülmüş siyasi kursun reallaşdırılmasını təsdiq edir.* Azərbaycan insan hüquq və azadlıqlarının qorunması, demokratik norma və prinsiplərin möhkəmlənməsi baxımından bir çox parametrlər üzrə dünyanın qabaqcıl ölkələri sırasında qərarlaşmışdır. Azərbaycanda kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyəti təmin olunur, onlara ciddi dövlət dəstəyi göstərilir, ölkəmizdə internet tam azaddır. Vətəndaş cəmiyyəti institutlarının azad və səmərəli fəaliyyəti üçün geniş imkanlar yaradılmışdır.

Son dövrlərdə görülən məqsədyönlü tədbirlər sayəsində Azərbaycanda siyasi dialoq mühiti getdikcə dərinləşmiş, yeni demokratik siyasi ənənələr yaranmış və siyasi sistemin rəng palitrası daha da zənginləşmişdir. Təbii ki, Azərbaycanda həyata keçirilən və bir qədər əvvəl qeyd etdiyimiz çoxşaxəli islahatlar ölkə həyatının bütün sahələrində olduğu kimi, Azərbaycan Respublikası Milli Məclisinin də fəaliyyətində öz əksini tapmışdır. Altıncı çağırış Milli Məclisdə ilk dəfə olaraq, müxalifət partiyasını təmsil edən deputatlar parlament rəhbərliyində, komitələrin sədr və sədr müavinləri sırasında yer almışdır. Bu, siyasi sistemin yeni konfiqurasiyasına yol açır. Siyasi dialoq, milli və dövlətçilik məsələləri ətrafında əməkdaşlıq mühitinin möhkəmlənməsi həm də Azərbaycanda çoxpartiyalı sistemin təkmilləşdirilməsinə, siyasi münasibətlərin sağlam zəmində qurulmasına xidmət edir. Prezident seçkilərindən sonra bu prosesdə iştirak etmiş namizədlərin möhtərəm Prezident İlham Əliyevə zəng edərək onu qələbə münasibətilə təbrik etmələri də ölkəmizdə sağlam siyasi münasibətlərin yaradıldığını təsdiq edir.

## Birinci vitse-prezidentlik institutunun yaradılması və Mehriban xanım Əliyevanın bu vəzifəyə təyin olunması vacib məsələlərin həllində əvəzsiz rol oynamışdır

Əlbəttə, biz ölkəmizin sosial, humanitar sahələrdə əldə etdiyi nailiyyətləri vurğulayarkən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın fəaliyyətini mütləq qeyd etməliyik. Cənab Prezidentin təşəbbüsü ilə Azərbaycanda Birinci vitse-prezidentlik institutunun yaradılması, 7 il öncə fevral ayının 21-də hörmətli Mehriban xanım Əliyevanın bu vəzifəyə təyin olunması Azərbaycanın qarşısında duran bir çox məsələnin həllində əvəzsiz rol oynamışdır. Mehriban xanım Əliyevanın uğurlu və çoxşaxəli fəaliyyəti vətəndaşlara dövlət diqqəti və qayğısının gücləndirilməsində, cəmiyyətin bütün təbəqələrini əhatə edən uğurlu sosial siyasətin davam etdirilməsində mühüm amil olmuşdur. Onun sosial və humanitar sahələrdə təşəbbüsləri, gördüyü mühüm işlər ölkəmizdə həyata keçirilən sosial müdafiə tədbirlərinin miqyasının genişlənməsinə əhəmiyyətli töhfələr verir.

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun milli-mənəvi dəyərlərin, multikulturalizm ənənələrimizin, mədəni irsimizin qorunmasında və dünyada təbliğində mühüm rolu, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafına verdiyi əvəzsiz töhfələri, xüsusi qayğıya ehtiyacı olan insanlara əl tutması onun xalqın hər kəsiminin böyük sevgisini qazanmasına səbəb olmuşdur. Fond tərəfindən reallaşdırılan layihələr nəticəsində yeni və müasir məktəblərin, xəstəxanaların tikintisi Azərbaycanda təhsil, səhiyyə infrastrukturunun əsaslı şəkildə yenilənməsinə töhfə verir. Mədəniyyət və incəsənət xadimlərinə, yaradıcı potensiala malik insanlara dəstək göstərilməsi, Azərbaycan mədəniyyətinin dünyada geniş təbliğ olunması, qədim mədəniyyət ənənələrimizin tanıdılması istiqamətində həyata keçirilən tədbirlər fondun ölkəmizdə mədəniyyət sahəsində həyata keçirilən dövlət siyasətinə əhəmiyyətli töhfələridir.

## Milli-mənəvi dəyərlərimizin böyük hamisi

Möhtərəm Prezident İlham Əliyev xalqımızın milli-mənəvi dəyərlərinin, mədəniyyətinin də böyük hamisidir. O, Azərbaycanın inkişaf trendlərini müəyyənləşdirərkən iqtisadi-sosial tərəqqiyə xidmət edən proqram və konsepsiyaların həyata keçirilməsində, informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqində nə qədər yenilikçi, islahatçı, novator lider kimi çıxış edirsə, milli-mənəvi dəyərlərin, xalqımızın tarixi ənənələrinin qorunması məsələlərinə isə kifayət qədər mühafizəkar yanaşır. Möhtərəm Prezident İlham Əliyev hər zaman xəlqi siyasət həyata keçirir və haqlı olaraq hesab edir ki, "xalq", "millət" anlayışları ön planda olanda istənilən problem öz həllini tapa bilər. *"Milli dəyərlər hər şeydən üstün olmalıdır. Bizi xalq kimi, millət kimi əsrlərboyu qoruyan bizim dəyərlərimiz olub"* deyən dövlət başçımızın rəhbərliyi ilə Azərbaycan o ölkələrdəndir ki, öz inkişafını, gələcəyini milli köklər üzərində qurmuşdur. Ötən dövrdə də milli-mənəvi dəyərlərimizin, konfessional və etnik rəngarəngliyin, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanması və inkişafı istiqamətində geniş tədbirlər həyata keçirilmişdir.

Son 20 il ərzində Azərbaycanda dinlərarası, millətlərarası münasibətlər artıq dünya üçün bir örnək olmuşdur. Azərbaycan ayırıcı deyil, birləşdirici dövlətdir, əməkdaşlığa üstünlük verir. Tolerantlıq, multikulturalizm bizim milli-mənəvi, ənənəvi dəyərlərimizin ayrılmaz tərkib hissəsidir. Əsrlərboyu ölkəmizdə bütün dinlərin, etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Dövlətimizin başçısı Azərbaycanın çoxkonfessiyalı, çoxmillətli bir ölkə olmasını, dini və etnik müxtəlifliyimizi xalqımızın böyük sərvəti kimi təqdim edərək, ölkəmizin uğurlu inkişafının, sabitliyinin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında tolerantlıq və multikultural dəyərlərin dayandığını bəyan edir. Azərbaycan eyni zamanda dünyada bu dəyərləri ən fəal təbliğ edən dövlətlərin sırasında öncül yerlərdə dayanır. Qlobal humanitar forumlar, dinlərarası dialoqa xidmət edən mühüm tədbirlər ölkəmizdə keçirilir və beynəlxalq forumlar, konfranslar Azərbaycanı dünyada tolerantlıq məkanı, dözümlülük, multikulturalizm mərkəzi kimi təqdim etmişdir.

Dünyanın sürətlə qloballaşması xalqların və cəmiyyətlərin həyatına böyük təsir göstərir. Elmi-texniki tərəqqi baxımından bunun müsbət tərəfləri olduğu kimi, milli-mənəvi dəyərlərin mühafizəsində də qarşıya kifayət qədər ciddi çətinliklər çıxır. Təbii ki, milli-mənəvi dəyərlərimizin qorunmasında, onların gələcək nəsillərə ötürülməsində Azərbaycan gənclərinin üzərinə böyük məsuliyyət düşür. Gənc nəsil hər bir xalqın, dövlətin gələcəyidir. Azərbaycanda da savadlı, vətənpərvər gənc nəslin yetişməsi, gənclərin potensialından səmərəli istifadə olunması istiqamətində görülən tədbirlər ölkəmizin inkişafını təmin edən əsas faktorlardan biridir. Möhtərəm Prezident İlham Əliyev andiçmə mərasimindəki nitqində də bu məsələnin əhəmiyyətini önə çəkərək qeyd etmişdir ki, *gənclərimizin milli ruhda, ənənəvi dəyərlər əsasında tərbiyə edilməsi, dırnaqarası mütərəqqi və yad dəyərlərin tamamilə cəmiyyətimizdən silinməsi hamımızın, o cümlədən də hər bir ailənin və dövlətin qarşısında duran mühüm vəzifələrdən biridir. Bütün cəmiyyət burada həmrəy olmalıdır və biz bu həmrəyliyi görürük.*

## Azərbaycanın suverenliyinin tam bərpası epoxal hadisədir

Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətə başlayan zaman cənab İlham Əliyev özünün və Azərbaycan dövlətinin qarşısında bir çox mühüm vəzifə qoymuş və bunlar haqqında müxtəlif vaxtlarda öz fikirlərini söyləmişdir. Amma qarşıda duran hədəflər sırasında ən vacibi şübhəsiz ki, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması idi. *"Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır... Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir"* deyən cənab Prezident, Ali Baş Komandan İlham Əliyev bu birnömrəli vəzifənin də öhdəsindən ləyaqətlə gəlmişdir. Heç bir təzyiq, heç bir təhdid Azərbaycanın liderini öz yolundan döndərə bilməmiş və Ali Baş Komandan torpaqlarımızı işğaldan azad etmək missiyasını yerinə yetirmişdir. O, Azərbaycan xalqının Vətən və yurd həsrətinə son qoymuş, onun arzularını gerçəkliyə çevirmişdir.

Heç bir qələbə, tarixi zəfər asan başa gəlmir. Azərbaycanın da Zəfər yolu çox keşməkeşli olmuşdur. Dövlət başçısının da bildirdiyi kimi, *hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik və hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq.* Həyata keçirilən bütün tədbirlər, ölkənin xarici siyasətinin və diplomatiyanın bütün resursları məhz bu məqsədə xidmət etmişdir. Qüdrətli ordu quruculuğu istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilmiş, ölkəmizin müasir dövrün ən yüksək standartlarına cavab verən Silahlı Qüvvələri formalaşdırılmışdır. Dünya miqyasında 50 ən güclü ordu sırasında olan Azərbaycan Ordusu torpaqlarımızın işğaldan azad olunması və ölkəmizin suverenliyinin bərpasında öz qüdrətini bütün dünyaya nümayiş etdirmişdir.

Azərbaycan Ordusu döyüş meydanında Zəfər yürüşünü davam etdirdiyi günlərdə Prezident İlham Əliyev beynəlxalq mediaya müsahibələrində, bir çox ölkənin liderləri ilə telefon danışıqlarında Azərbaycanın haqq səsini dünyaya çatdırmış, ölkəmizin ədalətli və beynəlxalq hüququn ali prinsip və normalarına söykənən mövqeyini qətiyyətlə müdafiə etmişdir. Prezident İlham Əliyevin yüksək diplomatik səriştəsi, sarsılmaz iradəsi və möhtəşəm liderliyi ilə diplomatiya sahəsində də parlaq qələbələr təmin olunmuşdur.

Bu qələbə sayəsində Azərbaycan tarixi ədaləti bərpa etmiş, BMT Təhlükəsizlik Şurasının 30 ilə yaxın kağız üzərində qalan qətnamələrini öz gücü, qüdrəti hesabına həyata keçirmişdir. Azərbaycan dövlətinə qarşı təhdidlərə son qoymaq üçün Ali Baş Komandanın rəhbərliyi ilə ötən il sentyabrın 19-20-də Qarabağda həyata keçirilən lokal antiterror tədbirləri də hərb tariximizin yeni şanlı səhifəsini təşkil etmişdir. Bu tədbirlər nəticəsində Azərbaycan ərazisində qanunsuz qalan Ermənistan silahlı birləşmələri və terrorçu qruplar darmadağın edilmiş, Ermənistanın dəstəyi ilə yaradılan kriminal xunta rejiminin fəaliyyətinə son qoyulmuş, Azərbaycanın suverenliyi onun bütün ərazisində bərpa edilmişdir. Möhtərəm Prezident İlham Əliyevin dediyi kimi, *Azərbaycanın suverenliyinin tam bərpası epoxal bir hadisədir.*

## Zəfərin və Böyük qayıdışın müəllifi

Azərbaycan Prezidenti cənab İlham Əliyev 20 il öncə Azərbaycan xalqına verdiyi bütün vədləri həyata keçirmişdir. Bir xalqın lideri, dövlətin rəhbəri üçün bundan böyük nailiyyət, bundan böyük xoşbəxtlik ola bilməz. Möhtərəm Prezident İlham Əliyev özü də ötən il Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldarkən xalqımıza verdiyi vədlərin həyatda öz əksini tapdığını böyük qürurla xatırladaraq demişdir: *"Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi".*

Bu gün isə Azərbaycan üçün yeni bir mərhələ başlayır. Dövlətimizin başçısının da bəyan etdiyi kimi, ən mühüm vəzifələrdən biri Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi, 30 illik işğal dövründə tamamilə dağıdılan, talan olunan yurdlarımızın, şəhər və rayonlarımızın ən yüksək səviyyədə yenidən qurulması, orada həyatın bərpa olunması, keçmiş məcburi köçkünlərin öz torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıtmasıdır. Azərbaycan dövləti bu istiqamətdə çox nəhəng tədbirlər həyata keçirməkdədir. Prezident İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyeva mütəmadi olaraq həmin ərazilərə səfərlər edir, həyata keçirilən işlərə birbaşa özləri nəzarət edirlər. İşğaldan azad edilmiş ərazilərdə ən müasir şəhərsalma nümunələri, texnologiyaları tətbiq etməklə, "ağıllı şəhər" və "ağıllı kənd"lər, bütün sosial infrastruktur, o cümlədən xəstəxanalar, məktəblər, idman obyektləri, iaşə obyektləri, yollar, tunel və körpülər inşa olunur, dəmir yolları çəkilir, iki beynəlxalq hava limanı açılmış, elektrik və su təsərrüfatı yenidən qurulmaqdadır. Burada görülən işlər, bir çoxu üçün xəyal kimi görünən nəhəng layihələrin reallaşdırılması azad edilmiş torpaqlara gələn hər kəsi valeh edir, təəccübləndirir. Bu qonaqların bir çoxu ilə ünsiyyət qurub söhbət etmək imkanımız olmuşdur. Onların söylədikləri, təəssüratları hər birimizdə haqlı qürur hissi doğurur.

Beləliklə, möhtərəm Prezident İlham Əliyev Zəfərin və Böyük qayıdışın müəllifi kimi tarix yazmaqda davam edir. Görülən məqsədyönlü tədbirlər nəticəsində artıq təxminən 5400 keçmiş məcburi köçkün beş yaşayış məntəqəsində yerləşdirilmişdir. 2024-cü ildə ən azı 20 yaşayış məntəqəsinə keçmiş məcburi köçkünlərin qaytarılması nəzərdə tutulmuşdur və ilin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min keçmiş məcburi köçkünün yerləşdirilməsi planlaşdırılır. Ümumilikdə isə 2026-cı ilin sonunda başa çatdırılması nəzərdə tutulan Böyük qayıdış proqramının birinci mərhələsi üzrə 140 min keçmiş məcburi köçkünün öz dədə-baba torpaqlarına qayıtması hədəflənir. Möhtərəm Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqımıza müraciətində 2024-cü ildə Xocalı və Xankəndi şəhərinə də sakinlərin qayıdacağının müjdəsini böyük qürurla vermişdir.

## Azərbaycan xalqı yeni dövrə böyük ümidlərlə qədəm qoyur

Bəli, 30 ilə yaxın bir dövrdə işğal altında olan şəhər və kəndlərimiz indi öz sahiblərinin qurmaq, yaratmaq əzmi ilə gündən-günə dirçəlir, çiçəklənir. Heç də təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndi şəhərində 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində səs verdilər. Bunun böyük rəmzi mənası var və möhtərəm Prezident İlham Əliyev andiçmə mərasimindəki nitqində səs vermək üçün niyə məhz Xankəndini seçdiyini çox aydın şəkildə ifadə etmişdir. Xankəndi şəhərində səsvermənin təşkili Azərbaycan torpaqlarında separatçıların məhvinin, onların havadarlarının süqutunun bəyanına çevrilmişdir. Möhtərəm Prezident İlham Əliyevin təbirincə desək, dövlətimizin başçısının, Müzəffər Ali Baş Komandanın məhz o ünvanda verdiyi səs, o qutuya atdığı bülleten, sadəcə olaraq, bülleten deyildi. *Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi.*

*Artıq Azərbaycan xalqı yeni dövrün ilk günlərini yaşayır. Möhtərəm Prezidentimizin də qeyd etdiyi kimi, yeni dövrə qədəm qoyarkən bütün Azərbaycan xalqı böyük ümidlərlə yaşayır və biz, əlbəttə, elə işləməliyik, elə addımlar atmalıyıq ki, bu ümidlər çin olsun. Və bu gün hər bir vətəndaşımız əmindir ki, onun ümidləri, arzuları həyata keçəcək, yeni dövr də Azərbaycan xalqı üçün çox uğurlu olacaq. Bu əminlik xalqımızın öz gücünə, öz bacarığına inamla yanaşı, öz Liderinə sonsuz etimadından irəli gəlir.*

*Möhtərəm Prezident İlham Əliyevin bütün vədləri həyatda öz əksini tapdığı kimi, yeni dövrdə də qarşıda duran vəzifələr uğurla yerinə yetiriləcək, Azərbaycan yalnız inkişaf yolu ilə gedəcəkdir!*

**Sahibə QAFAROVA,**
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

# "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il yanvarın 9-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Maliyyə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Birləşmiş Ərəb Əmirlikləri tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2024-cü il*

# Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin aşağıdakı əməkdaşlarına 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri rütbəsi verilsin:

Quliyev Kənan Adil oğlu - Daxili təhlükəsizlik baş idarəsinin rəisi

Bəylərov Elçin Bəylər oğlu - Yerli qurumların fəaliyyətinin əlaqələndirilməsi baş idarəsinin rəisi.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2024-cü il*

# Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti işçilərinin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Vergi sisteminin inkişafında xidmətlərinə görə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin aşağıdakı işçiləri təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Vəliyev İlkin Etibar oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Musayev Orxan Azad oğlu

**1-ci dərəcəli "Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə**

Abdullayev Vəli Həsən oğlu
Kəngərli Cavid Muxtar oğlu
Musayev Fəxrəddin Binnət oğlu
Süleymanlı Elxan Süleyman oğlu
Şahinzadə Fərman İlham oğlu

**2-ci dərəcəli "Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə**

Mahmudov Fuad Malik oğlu
Məhərrəmov Ramiz Bulut oğlu

**3-cü dərəcəli "Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə**

Əhmədov Rəşad Kazım oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2024-cü il*

# Qoyuluş gücü 240 MVt olan külək-elektrik stansiyasının tikintisi ilə bağlı pilot layihənin həyata keçirilməsinə dair əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Qoyuluş gücü 240 MVt olan külək-elektrik stansiyasının tikintisi ilə bağlı pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2020-ci il tarixli 2366 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. qoyuluş gücü 240 MVt olan külək-elektrik stansiyasının tikintisi ilə əlaqədar "Dəyişikliklər edilmiş və yenidən tərtib olunmuş İnvestisiya müqaviləsi"nin, "Dəyişikliklər edilmiş və yenidən tərtib olunmuş Enerji alqı-satqı müqaviləsi"nin, "Dəyişikliklər edilmiş və yenidən tərtib olunmuş Ötürücü şəbəkəyə qoşulma müqaviləsi"nin, "Torpaq icarə müqavilələrinin" və bu müqavilələrlə nəzərdə tutulmuş "Birbaşa razılaşma"ların və "Müstəqil mühəndis müqaviləsi"nin imzalanması ilə bağlı zəruri tədbirlər görsün;

1.2. Azərbaycan Respublikası Hökuməti adından imzalanmış müvafiq müqavilələri təsdiq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Energetika Nazirliyi və "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti ilə birlikdə bu Sərəncamın 1.1-ci bəndində göstərilən "Dəyişikliklər edilmiş və yenidən tərtib olunmuş İnvestisiya müqaviləsi"ndə və "Dəyişikliklər edilmiş və yenidən tərtib olunmuş Enerji alqı-satqı müqaviləsi"ndə nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsi üçün zəruri tədbirlər görülməsini təmin etsin;

1.4. aidiyyəti qurumlarla birlikdə layihənin həyata keçirildiyi ərazidə zəruri xarici və daxili infrastrukturun təkmilləşdirilməsi, külək-elektrik stansiyasının bu Sərəncamın 1.1-ci bəndində göstərilən "Dəyişikliklər edilmiş və yenidən tərtib olunmuş Enerji alqı-satqı müqaviləsi" və "Dəyişikliklər edilmiş və yenidən tərtib olunmuş Ötürücü şəbəkəyə qoşulma müqaviləsi"nə uyğun olaraq, nəzərdə tutulan müddətdə və parametrlərlə ötürücü şəbəkəyə qoşulması, layihənin vaxtlı-vaxtında həyata keçirilməsini təmin etmək üçün tələb edilən digər inzibati və texniki məsələlərin icrası istiqamətində tədbirlər görülməsini təmin etsin;

1.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Bu Sərəncamın 1.1-ci bəndində göstərilən "Dəyişikliklər edilmiş və yenidən tərtib olunmuş Enerji alqı-satqı müqaviləsi"ndə nəzərdə tutulan daxili elektrik yarımstansiyası tikildikdən və quşların mühafizəsi sistemi quraşdırıldıqdan sonra "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən "ACWA Power Azerbaijan Renewable Energy" Məhdud Məsuliyyətli Cəmiyyətinin icarəsinə verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2024-cü il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Kraliça Raca Zarit Sofiah ilə birlikdə Sizə ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırırıq.

Əminik ki, Sizin müdrik rəhbərliyinizlə Azərbaycan xalqı bundan sonra daha yüksək tərəqqi və firavanlığa nail olacaqdır.

Uca Allahdan Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycanı yeni yüksək zirvələrə çatdırmaq üçün fəaliyyətinizdə daha böyük uğurlar nəsib etməsini diləyirəm.

Malayziya ilə Azərbaycan Respublikası arasında çoxillik qardaşlıq münasibətlərinin və dostluq əlaqələrinin xalqlarımıza qarşılıqlı fayda gətirərək daha da möhkəmlənməsini arzu edirəm.

*Hörmətlə,*

***Əlahəzrət Sultan İBRAHİM,***
***Malayziyanın Kralı***

❖ ❖ ❖

Zati-aliləri.

Venesuela Bolivar Respublikası hökuməti və xalqı adından Sizə müraciət etməkdən şərəf duyur və bu fürsətdən istifadə edərək 2024-cü il fevralın 7-də keçirilmiş demokratik prezident seçkilərindəki parlaq qələbəniz münasibətilə Sizə səmimi təbriklərimizi çatdırıram.

Həmçinin seçki prosesində Azərbaycan qurumlarının fəaliyyəti zamanı əldə etdikləri uğurları yüksək qiymətləndiririk. Şübhəsiz ki, bu, hərtərəfli inkişafla yanaşı, sülh, rifah və təhlükəsizliyin qorunub saxlanılmasını təmin etməklə, xalqın milli suverenliyə sadiqliyini təsdiqləyən bariz bir qələbədir.

Azərbaycan xalqının demokratik vətəndaş mövqeyinin ifadəsi ilə Simon Bolivar və Uqo Çavesin vətənindən ikitərəfli əlaqələrin daha da genişləndirilməsi və multisentrik, çoxtərəfli dünyanın davamlı şəkildə möhkəmləndirilməsi yönündəki istəklərimizi Sizə çatdırırıq.

Zati-aliləri, fürsətdən istifadə edərək Sizə bir daha yüksək ehtiramımı və hörmətimi bildirirəm.

***Nikolas MADURO,***
***Venesuela Bolivar Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Yenidən dost Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Fürsətdən istifadə edərək dost Azərbaycan xalqına göstərdiyiniz xidmətdə, ölkənizin tərəqqisi və rifahı istiqamətində fəaliyyətinizdə Zati-alinizə uğurlar arzulayıram. Xalqlarımız arasında mövcud olan sıx dostluq əlaqələrindən məmnunluğumuzu ifadə edərək, bu münasibətlərin ölkələrimizin mənafeyi naminə daha da inkişaf etdirilməsi ilə bağlı istəyimizi bir daha vurğulayıram.

Zati-aliləri, Sizə cansağlığı və xoşbəxtlik, Azərbaycan Respublikasına davamlı inkişaf və rifah arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

***Məhəmməd Sabah əl-Salim ƏL-SABAH,***
***Küveyt Dövlətinin Baş naziri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ötən illər ərzində Sizinlə və Azərbaycan hökuməti ilə əməkdaşlığımızdan məmnun olmuşuq. Dünya Bankı Qrupu ölkənin 2022-2026-cı illəri əhatə edən Sosial-İqtisadi İnkişaf Strategiyasında əksini tapmış əsas strateji prioritetlərin həyata keçirilməsində Sizi dəstəkləməyə sadiqdir. Biz bütün Azərbaycan vətəndaşlarının faydalanacağı investisiya siyasətinin hazırlanması və həyata keçirilməsində hökumətinizə yardım üçün qlobal təcrübəmizi bölüşməyə hazırıq.

Son onillik ərzində Azərbaycan öz inkişafında mühüm nəticələr əldə edib. Ölkənin iqtisadiyyatının şaxələndirilməsi, neft və qaz sektorundan asılılığın azaldılması məqsədilə hərtərəfli islahatların həyata keçirilməsi ilə bağlı öhdəliyinizi yüksək qiymətləndirirəm. Mən həmçinin Sizi Azərbaycanın COP29-a evsahibliyi edəcəyinə və bununla da iqlim fəaliyyətinə dair qlobal diskursun formalaşmasına kömək etməyə hazır olduğunuzu nümayiş etdirdiyinizə görə təbrik edirəm.

Sizə yeni Prezident mandatınızda uğurlar arzulayıram və əməkdaşlığımızın davam edəcəyinə ümid edirəm.

*Səmimiyyətlə,*

***Antonella BASSANİ,***
***Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Seçkilərdə inamlı qələbə seçicilərin Sizə yüksək etimadının əlaməti, regionun rifahı naminə fəaliyyətinizə verilən dəyərdir. Əminəm ki, Sizin işgüzar və şəxsi keyfiyyətləriniz gələcəkdə də respublikanın inkişafı və onun sakinlərinin rifah halının yüksəldilməsinə yönəlmiş planların uğurla həyata keçirilməsinə kömək edəcək.

Sizə möhkəm cansağlığı, uğurlar arzulayır, ən xoş diləklərimi çatdırıram.

*Dərin hörmətlə,*

***Maqomed-Sultan MAQOMEDOV,***
***Rusiya Federasiyası Dağıstan Respublikasının Dövlət katibi***

❖ ❖ ❖

Zati-aliləri.

Kral Abdulla bin Əbdüləziz Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzi (KAICIID) adından və şəxsən öz adımdan Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimizi çatdırıram. Sizin liderliyiniz və uzaqgörənliyiniz ölkənizi firavanlığa və sülhə doğru aparmaqda əhəmiyyətli rol oynayıb. Yenidən Prezident seçilməyiniz Azərbaycan xalqının Sizə olan inam və etimadını nümayiş etdirir.

Azərbaycanın Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinə dəstəyi çox böyükdür. Ölkənizin sülh və dialoq dəyərlərinin təşviqinə sadiqliyi bizim missiyamızla üst-üstə düşür. Biz müxtəlif cəmiyyətlər arasında anlaşmanın və əməkdaşlığın inkişafı istiqamətində böyük nailiyyətlər əldə etmişik.

Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin bütün üzvləri seçkilərdə qələbəniz münasibətilə mənimlə birlikdə Zati-alinizi təbrik edir və Sizə fəaliyyətinizdə uğurlar arzulayırlar. Əməkdaşlığımızı daha da möhkəmləndirməyi, sülh, dialoq və anlaşma kimi ortaq məqsədlərimiz naminə Azərbaycan hökuməti ilə sıx işləməyi səbirsizliklə gözləyirik.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımızı bildiririk.

*Dərin hörmətlə,*

***Zuhair ƏLHARTİ,***
***Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin (KAICIID) Baş katibi***

❖ ❖ ❖

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə "Masdar" şirkəti adından ən səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirəm.

Müdrik liderliyiniz və baxışınız sayəsində "Masdar" Azərbaycanın Energetika Nazirliyi ilə ölkənizdə təmiz enerjinin təşviqi istiqamətində birlikdə səylə çalışır. Azərbaycan bərpaolunan enerjinin istehsalında regionda lider olmaqda davam edir.

Bu tərəfdaşlığın əyani nəticəsi ötən ilin oktyabrında Azərbaycanın ilk xarici investisiyaya əsaslanan müstəqil sənaye miqyaslı birinci günəş-elektrik stansiyası layihəsinin - 230 MVt gücündə Qaradağ Günəş-Elektrik Stansiyasının rəsmi açılış mərasimi ilə nümayiş olundu.

Prezidentliyinizin yeni dönəminə başlayarkən "Masdar" tərəfdaşlığımızı daha da gücləndirməyi, bununla da birlikdə ölkənin nəhəng təmiz enerji potensialını üzə çıxarmağı səbirsizliklə gözləyir.

Bu il Bakıda COP29-un keçiriləcəyini nəzərə alaraq biz Dubayda COP28-də qəbul edilmiş Birləşmiş Ərəb Əmirlikləri Konsensusunun müddəalarını yerinə yetirməyə, BƏƏ-nin və Azərbaycanın təmiz enerjinin, iqlim dəyişikliyi ilə mübarizənin təşviq olunmasına möhkəm sadiqliyini bütün dünyaya nümayiş etdirməyə ümidvarıq.

"Masdar" şirkətinin komandası COP29-dan faydalanaraq Azərbaycanın Energetika Nazirliyi və Dövlət Neft Şirkəti ilə birlikdə yeni layihələrin, o cümlədən quruda 1 qiqavat gücə malik bərpaolunan enerji layihələrinin və dəniz/yaşıl hidrogen istehsalı layihələrinin inkişaf etdirilməsində əməkdaşlıq edəcək.

Sizinlə Bakıda keçiriləcək "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclasında və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasında görüşməyi səbirsizliklə gözləyirəm.

*Hörmətlə,*

***Məhəmməd Cəmil ƏL-RAMAHİ,***
***Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin baş icraçı direktoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Stokholm şəhərində fəaliyyət göstərən "SAF" - İsveç-Azərbaycan Birliyinin, Qarabağ həftəsonu məktəbinin və Skandinaviya Azərbaycan Koordinasiya Şurasının üzvləri adından Sizi prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə təbrik edirik. Bu seçkilərin nəticələri bir daha təsdiq etdi ki, Azərbaycan xalqı Sizin siyasətinizi bəyənir, dəstəkləyir. Ötən illər ərzində Azərbaycan Sizin rəhbərliyinizlə böyük inkişaf yolu keçmişdir, ölkənin beynəlxalq aləmdə nüfuzu durmadan artmış, mövqeyi möhkəmlənmişdir.

İnanırıq ki, düşünülmüş, uzaqgörən siyasətiniz sayəsində uğurlar davamlı olacaq, Azərbaycan yeni-yeni zəfərlərə imza atacaqdır. Sizə ölkəmizin daha da inkişafı istiqamətində qarşıya qoyduğunuz hədəflərə nail olunmasında müvəffəqiyyətlər arzulayırıq.

*Hörmətlə,*

***Sevda DADAŞOVA,***
***"SAF" - İsveç-Azərbaycan Birliyinin sədri və Qarabağ həftəsonu məktəbinin rəhbəri***
*İsveç Krallığı, Stokholm şəhəri*

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Paris şəhərində fəaliyyət göstərən Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının nəzdində yaradılmış Xurşidbanu Natəvan adına həftəsonu Azərbaycan dili məktəbinin şagirdləri və müəllim kollektivi adından Sizi prezident seçkilərində parlaq qələbəniz münasibətilə təbrik edirik. Bu seçkilərin nəticələri xalqın Sizə inam və etimadının bariz göstəricisi, Vətənə fədakar xidmətinizə verdiyi qiymətdir.

Sizin rəhbərliyiniz altında Azərbaycanda bütün sahələr, o cümlədən iqtisadi, hərbi, elm və təhsil sahələri inkişaf etmiş, ölkəmizin beynəlxalq arenadakı mövqeyi möhkəmlənmişdir. Gənclərə göstərdiyiniz diqqət və qayğıya görə Sizə xüsusilə təşəkkür edirik. Sizin dəstəyinizlə ölkəmizdə gənclərin inkişafı üçün yeni imkanlar yaradılmışdır ki, bu da bizim parlaq gələcəyimizə olan inamımızı daha da artırır.

Cənab Prezident, Azərbaycanın inkişafı, xalqın rifahı üçün atdığınız bütün addımlarda uğurlarınızın davamlı olmasını arzu edirik.

*Dərin hörmətlə,*

***Xurşidbanu Natəvan adına həftəsonu Azərbaycan dili məktəbinin kollektivi:***
***Aytən MURADOVA,***
***Günel SƏFƏROVA,***
***Əsmər NƏRİMANBƏYOVA,***
***Kəmalə GÜLMƏMMƏDOVA,***
***Səidə ZÜLFÜQAROVA***
*Fransa Respublikası, Paris şəhəri*

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Azərbaycanda fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində inamlı qələbə qazanmağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Sizin rəhbərliyinizlə Azərbaycan tarixində ilk dəfə xalqımızın və dünya azərbaycanlılarının tam milli birliyi və həmrəyliyi təmin edilib. Siz qalib ölkənin qalib Lideri olaraq müdrik siyasətinizlə Azərbaycanı daim irəli aparırsınız. Bir yazıçı olaraq Sizin ideyalarınızdan və çıxışlarınızdan yeni əsərlər yazmaq üçün ilhamlanıram. Xüsusən fevralın 14-də keçirilən andiçmə mərasimində proqram xarakterli çıxışınız mənə də yazıçı olaraq gələcək hədəflərimi, qarşımda duran vəzifələri müəyyənləşdirməkdə kömək oldu. Azərbaycan vətəndaşının Vətənə bağlılığı, dövlətinə sadiqliyi, dünya azərbaycanlılarının milli birliyi hər zaman mənim əsərlərimin əsas ideyası olub. Mən bundan sonra da öz əsərlərimlə Azərbaycan həqiqətlərinin beynəlxalq aləmdə təbliğini aparacağam.

Əziz Ali Baş Komandan, Siz hər zaman qətiyyətli, prinsipial, milli maraqlara hesablanmış ardıcıl siyasət yürüdərək güclü Azərbaycan amilini önə çəkmisiniz. Məhz buna görə də 7 fevral seçkiləri bir daha Sizin Azərbaycanın alternativsiz Prezidenti olduğunuzu göstərdi. Dünya azərbaycanlıları hər zaman Sizinlə fəxr edir.

Sizə yeni-yeni uğurlar arzu edirəm.

*Hörmətlə,*

***Sabit ƏLİYEV,***
***Rusiya Yazıçılar İttifaqının üzvü, "F.M.Dostoyevski" və "Sergey Yesenin" medallarına layiq görülmüş yazıçı***
*Rusiya Federasiyası, Moskva şəhəri*

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

2024-cü il fevralın 7-də keçirilən Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi Moskva vilayətinin böyük azərbaycanlı icması adından səmimi-qəlbdən təbrik edirəm!

Bu seçkilər bir daha təsdiq etdi ki, seçdiyiniz yol düzgün, demokratik yoldur və xalqımız öz Prezidentini sevir, etimad göstərir!

Əminik ki, Azərbaycan Sizin rəhbərliyinizlə çiçəklənəcək və dünyanın harasında olmasından asılı olmayaraq hər bir azərbaycanlının bu gözəl ölkədə yaşamaq arzusu olacaq.

Cənab Prezident.

İşğaldan azad edilmiş ərazilərin bərpasının hansı sürətlə aparıldığını heyrətlə izləyirik. Bilirik ki, qarşıda hələ yerinə yetiriləsi çox böyük işləriniz var. Bu yolda Sizə uğurlar, bütün planlarınızın müvəffəqiyyətlə başa çatması üçün qüvvət və cansağlığı arzulayıram!

*Hörmətlə,*

***İbrahimov ELŞƏN,***
***"Moskva vilayəti Azərbaycanlılarının Regional Milli-Mədəni Muxtariyyəti" İctimai Birliyinin sədri***
*Rusiya Federasiyası, Moskva şəhəri*

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Bu günlərdə dünya liderləri, beynəlxalq təşkilatların rəhbərləri, digər yüksəkvəzifəli şəxslər yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizə çoxsaylı təbriklər ünvanlayırlar. Bizim də təbriklərimizi qəbul etməyinizi xahiş edirik.

Siz Azərbaycan dövlətinin və xalqının dünyada yeni imicinin formalaşmasına nail olmusunuz. Xalqımız heç zaman indiki kimi qürurlu, dövlətimiz isə belə qüdrətli, bütöv olmamışdır. Dünyanın harasında yaşamasından asılı olmayaraq hər bir soydaşımız Sizinlə fəxr edir. Biz Rusiyanın Kirov vilayətində Sizin liderliyinizdən güc alaraq iftixarla fəaliyyət göstəririk. Sizin Münxendə dövlət və hökumət başçıları, beynəlxalq qurumların rəhbərləri ilə keçirdiyiniz görüşləri izlədikcə bir daha qürurlandıq.

Şadıq ki, Sizin sayənizdə bu gün Azərbaycan-Rusiya münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. İnanırıq ki, qarşıdakı illərdə ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlıq daha da genişlənəcəkdir.

Cənab Prezident, seçkilərdə inamlı qələbəniz münasibətilə Sizi bir daha təbrik edirik. Sizə möhkəm cansağlığı, xalqımıza əmin-amanlıq arzulayırıq.

*Hörmətlə,*

***Osman ALIYEV,***
***Rusiyanın Kirov vilayətində fəaliyyət göstərən "Birlik" Azərbaycan Mədəniyyət Mərkəzinin sədri***
*Rusiya Federasiyası, Kirov vilayəti*

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirik. Azərbaycan vətəndaşlarının böyük əksəriyyətinin növbəti dəfə Sizə etimad göstərərək səs verməsi gördüyünüz işlərə verilən qiymətin təzahürüdür.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, uzun ömür, yeni prezidentlik fəaliyyətinizdə Azərbaycanın daha da inkişafı üçün qarşıya qoyduğunuz hədəflərə nail olunmasında uğurlar arzulayırıq.

*Hörmətlə,*

***Sander OOSTROM,***
***niderlandlı keçmiş peşəkar futbolçu və ailə üzvləri:***
***Səltənət ZEYNALOVA (diaspor nümayəndəsi),***
***Həcər KARAMAN***
*Niderland Krallığı, Amsterdam şəhəri*

# Prezidentin təqdimatı Milli Məclisdə müzakirəyə çıxarılacaq

**Fevralın 20-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin onlayn formatda iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli gündəlikdə 5 məsələnin olduğunu bildirib.

İlk olaraq Fikrət Fərrux oğlu Məmmədovun Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi vəzifəsinə təyin edilməsi haqqında məsələ müzakirə olunub. Müzakirələrdən sonra məsələ Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

İclasda "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 824-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş), Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) qanun layihələri müzakirə edildikdən sonra baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*Ülkər XASPOLADOVA*
*"Azərbaycan"*

# Xorvatiya Azərbaycanla əlaqələrin dərinləşməsində maraqlıdır



**Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Xorvatiya Respublikasının Xarici və Avropa İşləri Nazirliyinin dövlət katibi Frano Matuşiçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı Milli Məclisdə salamlamaqdan məmnunluğunu ifadə edən Səməd Seyidov ikitərəfli münasibətlərin inkişafında yüksəksəviyyəli siyasi dialoqun və qarşılıqlı səfərlərin rolunu vurğulayıb. Azərbaycanın torpaqlarını Ermənistanın işğalından azad etməsindən və suverenliyini tam bərpa etməsindən söz açan Səməd Seyidov regiondakı mövcud vəziyyət, Azərbaycanın bölgədə uzunmüddətli sülh və sabitliyin təmin olunmasına yönələn səyləri, aparılan sülh danışıqları haqqında qonaqlara məlumat verib.

Xorvatiya Respublikasının Xarici və Avropa İşləri Nazirliyinin dövlət katibi Frano Matuşiç ölkəmizə səfərindən və burada keçirdiyi görüşlərdən məmnun qaldığını söyləyib. Bildirilib ki, Xorvatiya ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Azərbaycanın qarşılaşdığı problemləri anlayır və bölgədə sülh quruculuğu proseslərini dəstəkləyir. Ölkələrimiz arasında bir çox sahədə əməkdaşlıq üçün geniş imkanlar olduğunu söyləyən qonaq Xorvatiyanın Azərbaycanla əlaqələrin dərinləşməsində maraqlı olduğunu deyib.

*"Azərbaycan"*

# Gürcüstan parlamentinin AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Givi Mikanadze AŞPA sədrinə məktub ünvanlayıb

**Gürcüstan parlamentinin Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin rəhbəri Givi Mikanadze AŞPA sədri Teodoros Rusopulosa məktub ünvanlayıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, məktubda AŞPA-nın sessiyası zamanı Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin səlahiyyətlərinin ratifikasiya edilməməsi barədə qəbul edilmiş qətnaməyə toxunulur.

Bildirilir ki, bu cür sərt qərarlar AŞPA-nın Azərbaycanla və Cənubi Qafqazla gələcək münasibətləri, eləcə də AŞPA-nın özünün gələcəyi üçün mümkün olan mənfi nəticələr əsaslı şəkildə müzakirə edilmədən və təhlil olunmadan qəbul edilir. Bu isə narahatlıq doğurur.

Gürcüstanın qurumdakı nümayəndə heyətinin rəhbəri hesab edir ki, bu qətnamə AŞPA çərçivəsində Azərbaycanla gələcək əməkdaşlığı və fikir mübadiləsini mümkünsüz edir. Bu, AŞPA-nın Cənubi Qafqaz regionu ilə qarşılıqlı fəaliyyətinə də mənfi təsir göstərəcək.

Üstəlik, bu qərar Avropa Şurasının dialoq və əməkdaşlıq üçün vacib platforma kimi missiyasına və nüfuzuna da xələl gətirir. Bu qətnamə Avropa Şurasının dəyər və öhdəliklərinin ruhuna zidd olmaqla yanaşı, daha çox qütbləşməyə səbəb ola və AŞPA-ya üzv dövlətlər arasında xüsusilə dəyərli olan etimad əsaslı əməkdaşlığa xələl gətirə bilər.

G.Mikanadze yuxarıda göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikası nümayəndə heyətinin səlahiyyətlərinin ratifikasiya edilməməsi barədə qərarın zərərli nəticələrinin qarşısını almaq üçün bu qətnamənin yenidən nəzərdən keçirilməsinə çağırır.

Məktubun sonunda bu qətnamənin ləğvinin Avropa Şurasının maraqlarına xidmət edəcəyinə əminlik ifadə olunur.

*"Azərbaycan"*

# Azərbaycan növbəti beynəlxalq tədbirə evsahibliyi edir

## Bakıda bu gün Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyası başlayır

*Əvvəli 1-ci səh.*

"Asiyada dayanıqlı inkişaf naminə regional əməkdaşlığın gücləndirilməsi" mövzusuna həsr olunmuş sessiya çərçivəsində qurumun İcraedici Şurasının, plenar sessiyasının, siyasi, iqtisadi, büdcə, sosial və mədəni sahələrə dair komitələrinin iclasları keçiriləcək, müvafiq məsələlər müzakirə olunacaq, bir sıra təşkilati məsələlərə baxılacaq. Sessiyanın sonunda Bakı Bəyannaməsi və APA-nın yekun hesabatı qəbul ediləcək.

Xatırladaq ki, ötən il Türkiyənin Antalya şəhərində APA-nın İcraedici Şurasının iclasında Azərbaycan 2024-2025-ci illər üzrə qurumun sədri seçilib. Buna qədər isə assambleyaya Türkiyə sədrlik edib. Qurumun bundan əvvəlki "Dəyişən qlobal dinamiklərdə çoxtərəfliliyin təşviqi" mövzusunda 13-cü plenar sessiyası da ötən ilin yanvar ayında Türkiyədə keçirilmişdi.

Parlament əməkdaşlıq platformaları müxtəlif dövlətlərin qanunvericilik orqanlarının təmsilçilərini qlobal narahatlıq doğuran problemlərin həlli yollarını tapmaq məsuliyyətinin və daha yaxşı dünya naminə birlikdə işləmək əzminin təzahürüdür. Bu mənada APA da Asiya dövlətlərini parlamentlərarası əməkdaşlıq formatında bir çətir altında birləşdirən beynəlxalq təşkilatdır. Bu assambleyanı Asiya qitəsində və dünyada əməkdaşlığın, sülhün və sabitliyin möhkəmləndirilməsinə nail olmaq məqsədilə cari problemlərin və çağırışların həlli üçün ümumi səyləri səfərbər edən parlament diplomatiyası platforması da adlandırmaq olar. Təşkilatın müxtəlif sahələrdə həmrəyliyin təşviqinə və əməkdaşlığın inkişafına yönəlmiş fəaliyyəti xüsusi diqqətə layiqdir.

Azərbaycan Milli Məclisi ilə APA arasında uzun müddətdir ki, sıx əməkdaşlıq mövcuddur. Milli Məclisin nümayəndə heyəti hər zaman APA-nın tədbirlərində yaxından iştirak edib. 2023-cü ilin sentiyabr ayında isə Bakıda APA-nın Sosial və mədəni məsələlər üzrə daimi komitəsinin iclası keçirilib. İclasda müzakirə olunan məsələlərlə bağlı müvafiq qərarlar qəbul edib, o cümlədən Azərbaycanın irəli sürdüyü "Qadınlar üzrə Komissiya haqqında" qətnamə layihəsi təsdiqləqnib. Bu qətnamə həm də onu göstərib ki, Azərbaycan APA-nın fəaliyyətinə öz töhfələrini verir.

Fevralın 7-də respublikamızda keçirilən prezident seçkilərində APA-nın müşahidə missiyası da iştirak edib. APA-nın Baş katibi Məhəmməd Rza Məcidinin başçılıq etdiyi missiya keçirdiyi mətbuat konfransında növbədənkənar prezident seçkilərinin yüksək səviyyədə keçirilməsinin şahidi olduğunu bəyan edib.

Bakıda keçirilən APA-nın 14-cü plenar sessiyası qəbul ediləcək qərarlar baxımından qurumun tarixində mühüm və əlamətdar hadisə kimi qalacaq. Ən əsası, bu tədbir ölkəmizi və uğurlarımızı, o cümlədən qalibiyyətimizi bir daha dünyaya bəyan edəcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# ATƏT iflic vəziyyətindədir

**"Prezident İlham Əliyevin ATƏT-in Minsk qrupu və ona yedək strukturların ləğvi ilə bağlı tələbi tamamilə əsaslı olmaqla yanaşı, regionda yaranmış reallıqdan qaynaqlanır".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Sahib Alıyev deyib. Onun sözlərinə görə, hətta Ermənistan baş naziri də Azərbaycana qarşı hər hansı torpaq iddiaları olmadığını bildirirsə, Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu etiraf edirsə, Minsk qrupuna həmsədrlik edənlərdən biri, konkret olaraq Rusiya Qarabağ məsələsinin başa çatdığını qeyd edirsə, bəs guya bu məsələnin həlli ilə məşğul olmalı olan Minsk qrupuna nə ehtiyac var? Həm də söhbət o strukturdan gedir ki, vaxtında münaqişənin həlli istiqamətində, demək olar ki, heç bir addım atmayıb.

Sahib Alıyev bildirib ki, əgər zamanında ATƏT-in Minsk qrupu beynəlxalq normalara əsaslanaraq prinsipiallıq göstərsə və Ermənistanın işğalçılığına yanaşmada qətiyyətli mövqe sərgiləsəydi, onda Avropada İkinci Dünya savaşından sonra ən böyük toqquşma baş verməzdi. Burada söhbət Ukrayna ilə Rusiya arasındakı müharibədən gedir. ATƏT-in Minsk qrupunun niyyətinin heç də münaqişəni həll etmək olmadığı həmsədrlərdən biri olan Amerika Birləşmiş Ştatlarının təmsilçisi Riçard Hoqlandın bir etirafında açıq-aşkar öz əksini tapıb. Xatırlayırsınızsa, təxminən 4 il əvvəl Hoqland yazmışdı ki, Minsk qrupu həmsədrləri olaraq onların işi-gücü yalnız beşulduzlu hotellərdə qalmaq, bahalı mini barlarda, qonaqlıqlarda vaxt keçirmək olub. Elə indi də Minsk qrupu həmsədrlərinin, xüsusilə də ABŞ və Fransanın davranışları ondan xəbər verir ki, onlar münaqişənin həllindən çox narahatdırlar".

Deputatın sözlərinə görə, bütün bunlara nəzər saldıqda tam aydın olur ki, Azərbaycan Prezidentinin təklif və tələbi tam reallığı əks etdirir: "Ümumiyyətlə, bu gün nəinki Minsk qrupu, elə ATƏT-in özü bir institut olaraq böyük dövlətlərin arasındakı ziddiyyətlər nəticəsində iflic vəziyyətə düşüb. Səhv etmirəmsə, 2010-cu ildə Almatı sammitindən sonra ATƏT ölkələrinin dövlət başçılarının görüşü keçirilmir. Yəni bu, bir daha ATƏT-in özünün nə vəziyyətdə olduğunu göstərir və əgər Minsk qrupundakılar sivilizasiyalararası qarşıdurma məntiqindən çıxış edərək ayrıca xətlər çəkərək davranış sərgiləməsəydilər, nə ikinci Qarabağ savaşına ehtiyac qalacaqdı, nə də dünya Rusiya-Ukrayna savaşı ilə üzləşəcəkdi. Bu qurumun və onun yedək strukturlarının fəaliyyətsizlikləri və prinsipsizlikləri ona aparıb çıxardı ki, ATƏT-in əhatə etdiyi məkanda daha qanlı münaqişə ocağı yarandı".

Sahib Alıyev yekunda bildirib ki, de-fakto mövcud olmayan bir qrupun adının qalması gülüncdür: "Ona görə də Prezident İlham Əliyevin bununla bağlı tələbi olmasaydı belə, əgər ATƏT-dəkilər özlərinə hörmət edirlərsə, bu məsələni qaldırıb Minsk qrupunu və digər yedək strukturları ləğv etməli idilər".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# *Xorvatiyalı nazir:* "Tarixi-mədəni mirasımızın tanıdılması üçün qarşılıqlı layihələrin həyata keçirilməsi zəruridir"



**Mədəniyyət naziri Adil Kərimli ölkəmizdə səfərdə olan Xorvatiya Respublikasının Xarici və Avropa İşləri Nazirliyində siyasi məsələlər üzrə Dövlət katibi Frano Matuşiçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə nazir Azərbaycan ilə Xorvatiya arasında əlaqələrin inkişafından danışıb. Bildirilib ki, iki ölkənin rəhbərləri arasında mövcud səmimi münasibətlər geniş spektrli faydalı əməkdaşlıq üçün zəmin yaradıb.

Qeyd olunub ki, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək və mədəniyyətin müxtəlif sahələri üzrə əməkdaşlığın genişləndirilməsi hər iki ölkə üçün əhəmiyyət kəsb edir. Nazir bu il mayın 1-3-də Bakıda keçiriləcək VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu haqqında məlumat verib, Xorvatiya tərəfinin bu mötəbər tədbirdə iştirakından məmnun olacağımızı deyib.

Frano Matuşiç Xorvatiya ilə Azərbaycanın uzun illərdən bəri səmərəli iqtisadi-ticari əlaqələrə sahib olduqlarını diqqətə çatdırıb. Bildirib ki, xalqlarımızın yaxınlaşması, tarixi-mədəni mirasımızın tanıdılması üçün qarşılıqlı mədəniyyət layihələrinin həyata keçirilməsi zəruridir.

Söhbət zamanı Azərbaycan-Xorvatiya birgə Hökumətlərarası Komissiyanın Bakıda keçiriləcək növbəti iclası və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Xorvatiyanın Azərbaycandakı səfiri Branko Zebiç və Azərbaycanın Xorvatiyadakı səfiri Anar İmanov da iştirak ediblər.

# *Cavanşir QULİYEV:* "Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın dəstəyi olmasaydı, ən yaxşı halda bu gün əlil ola bilərdim"

**"Azərbaycan dövləti, xüsusilə Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın dəstəyi olmasaydı, ən yaxşı halda mən bu gün əlil ola bilərdim. Səhhətimdə yaranan problemlər məhz Mehriban xanımın yüksək diqqət və qayğısı, dövlətimizin dəstəyi nəticəsində aradan qaldırıldı. Bunun üçün Mehriban xanıma xüsusi təşəkkürümü bildirirəm".**

Bu fikirləri Heydər Əliyev Fondu tərəfindən Türkiyədə müalicə olunan Azərbaycanın Əməkdar incəsənət xadimi, bəstəkar Cavanşir Quliyev AZƏRTAC-a açıqlamasında ifadə edib.



Səhhəti ilə bağlı danışan bəstəkar deyib: "Sağlamlıq hər kəs üçün çox vacibdir, lakin bəzən bunu unuduruq. Səhhətimdəki narahatlıq eyni vaxtda üç problemin yaranmasından irəli gəldi. Hazırda səhhətim qaydasındadır. Müalicə müddəti çox ağır idi. Bu müddət ərzində üç əməliyyat keçirdim. Mənim üçün ən sevindirici hal o oldu ki, əməliyyatlar nəticəsində hansısa qalıcı problem yaranmadı, hətta əvvəlki narahatlıqlarım da aradan qaldırıldı. Burada da əsas olan yardımın vaxtında edilməsi idi. Bu çətin vaxtda mənə dəstək olanlara minnətdaram".

# Ermənistan hakimiyyəti öz ərazisində Azərbaycanın suverenliyini təhdid edən keçmişin tör-töküntülərinin fəaliyyətinə qadağa qoymalıdır

**Qərbi Azərbaycan İcması özünü hansısa "parlament" adlandıran qondarma qurumun "üzvləri"nin Vardan Oskanyanla görüşünə, "Qarabağ münaqişəsi həll olunmayıb" kimi gülünc fikirlərə dair erməni mətbuatında yer alan məlumatlarla əlaqədar bəyanat yayıb.**

İcmadan AZƏRTAC-a daxil olan bəyanatda bildirilir: "Bütün bunlar bir daha Qarabağ ermənilərinin son 35 ildə baş verənlərdən heç bir dərs çıxarmadıqlarını, xəyalpərəstlər və şovinistlər tərəfindən istifadə olunduqlarını göstərir. Bu, eyni zamanda bütün günü yalandan sülhdən danışan Ermənistan hakimiyyətinin, ən yumşaq formada desək, qeyri-səmimiliyindən xəbər verir. Qərbi Azərbaycan İcmasının hətta mədəni irsin qorunması ilə bağlı fikirlərini özünün suverenliyinə qəsd kimi görən Ermənistan hakimiyyəti ərazisində Azərbaycanın suverenliyini təhdid edən, hələ də "öz müqəddəratını təyin etmək"dən dəm vuran, keçmişin qalıqları olan tör-töküntülərin fəaliyyətinə qadağa qoymalıdır".

# Türkiyə-Azərbaycan Universitetinin yaradılması birliyimizin növbəti rəmzidir

**Azərbaycan və Türkiyə arasında bütün sahələrdə olduğu kimi, elm, təhsil sahəsində də əməkdaşlıq yüksək səviyyədə qurulub. Ali təhsil, peşə təhsili, orta təhsil istiqamətindəki münasibətlər hər iki ölkədə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəlib.**

Azərbaycan universitetləri ilə Türkiyə universitetləri arasında ikili diplom proqramlarının işlənməsi, universitetlərarası qarşılıqlı tədqiqat mühitinin formalaşması inkişafa hədəflənib. İllərdir ki, Azərbaycanın və Türkiyənin bir sıra ali təhsil müəssisələri arasında kadrların peşəkarlığına, ali təhsil müəssisələrində çalışan pedaqoji heyətin peşə inkişafına hədəflənən müxtəlif tədbirlər, mübadilə proqramları həyata keçirilir. Həmçinin Türkiyənin və Azərbaycanın ali təhsil müəssisələri və elmi-tədqiqat mərkəzləri arasındakı əməkdaşlıq əlaqələri genişlənir.

Bir müddət idi ki, iki dost, iki qardaş ölkə arasında ali təhsil sahəsində əməkdaşlığın növbəti təzahürü olacaq Türkiyə-Azərbaycan Universitetinin yaradılmasına hazırlıq işləri görülürdü. Qeyd edək ki, ötən il Prezident İlham Əliyev Türkiyənin ovaxtkı milli təhsil naziri Mahmut Özeri və Türkiyə Böyük Millət Məclisinin bir qrup üzvünü qəbul edərkən birgə universitetin yaradılması məsələsi də müzakirə olunmuşdu. Dövlətimizin başçısı həmin görüşdə Azərbaycan-Türkiyə birgə universitetinin yaradılmasının böyük önəm daşıdığını qeyd etmişdi. Keçən ilin oktyabrında isə Türkiyə Ali Təhsil Şurasının sədri Erol Özvarın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan - Türkiyə Universitetinin yaradılması üzrə danışıqların davam etdirilməsi məqsədilə ölkəmizə gəlmişdi.

Fevralın 19-da Ankarada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə geniş tərkibdə görüşündə digər mühüm məsələlərlə yanaşı, bu ali təhsil müəssisəsinin yaradılmasının əhəmiyyəti barədə də danışıldı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dedi: "Təhsil sahəsindəki əlaqələrimizin inkişafından da məmnunluq duyuram. Bu çərçivədə bir az sonra imzalanacaq Türkiyə-Azərbaycan Universitetinin yaradılmasına dair Anlaşma Memorandumu ali təhsil sahəsində əməkdaşlıq baxımından yeni bir dönüş nöqtəsi olacaq. Universitetimiz elm və texnologiya sahələrində münasibətlərimizi yeni səviyyəyə qaldıracaq. Bu istiqamətdə başda səhiyyə olmaqla mühəndislik və texnologiya sahələrində təcrübə mübadiləmiz artacaq".

Həmin gün Türkiyə-Azərbaycan Universitetinin yaradılması istiqamətində mühüm addım atıldı. Ankarada Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimində "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Türkiyə Respublikasının Ali Təhsil Şurası arasında Türkiyə-Azərbaycan Universitetinin yaradılmasına dair Anlaşma Memorandumu" imzalandı. Sənədi Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev və Türkiyənin Ali Təhsil Şurasının sədri Erol Özvar imzaladılar.

Həmin tədbirdə Ankarada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış etdilər. Rəccəb Tayyib Ərdoğan iki qardaş ölkə arasında ticarət, enerji və müdafiə sənayesi sahələrindəki uğurlu əməkdaşlıqdan danışdı. Bildirdi ki, qarşıdakı dövrdə Can Azərbaycan ilə qardaşlıq hüququmuz və Şuşa Bəyannaməsində ortaya qoyduğumuz ruhla yol getməkdə davam edəcəyik. Azərbaycan Prezidenti İlham Əliyev isə qeyd etdi ki, bu gün Türkiyə-Azərbaycan birliyi təkcə bölgə üçün deyil, Avrasiya üçün önəmli amilə çevrilib. İki ölkənin birgə həyata keçirdiyi önəmli layihələrdən danışan dövlətimizin başçısı həmin gün təhsil sahəsində imzalanmış memorandumun əhəmiyyətini də vurğuladı: "Bu gün təhsillə bağlı önəmli anlaşma imzalanmışdır. Bu, gələcəyə yönəlmiş təşəbbüsdür. Çünki bizim gənc nəslimiz həm Türkiyədə, həm Azərbaycanda qardaşlıq, müttəfiqlik, ortaq dəyərlər prinsipləri əsasında tərbiyə almalıdır, bizim milli-mənəvi dəyərlərimizə sadiq olmalıdır, yad təsirdən uzaq olmalıdır, bilikli, savadlı vətənpərvər insanlar olmalıdır. Bu gün Türkiyə-Azərbaycan Universitetinin yaradılması, sadəcə olaraq, təhsil məsələsi deyil. Bu, bizim birliyimizin növbəti rəmzidir. Əminəm ki, yaxın gələcəkdə bu universitet nəinki Azərbaycanda, bölgədə ən aparıcı ali məktəblərdən birinə çevriləcəkdir".

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# İlham Əliyevin yeni inkişaf prioritetləri



Tarix 14 fevral 2024-cü il...

Qüdrətli Azərbaycanın şanlı tarixində yeni səhifə açılır...

Müstəqillik dövrünün 9-cu prezident seçkilərində hər zaman güc aldığı xalqdan növbəti dəfə etimad mandatı qəbul edən cənab İlham Əliyevin Azərbaycana layiqli xidmət missiyasının yeni mərhələsi başlayır...

Möhtərəm Prezident tarixinin ən qüdrətli dövlətinə çevirdiyi Azərbaycanın Konstitusiyasına, müqəddəs "Qurani-Şərif"ə and içərək bəyan edir ki, bütün dövrlərdə olduğu kimi dövlətin Ana Qanununa əməl edəcək, ölkənin müstəqilliyini, ərazi bütövlüyünü qoruyacaq və xalqa ləyaqətli xidmət missiyasını şərəflə həyata keçirəcək, xalqımızın əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq olacaq, onları daim uca tutacaq!

Ümumiyyətlə, cənab İlham Əliyevi həm xalqına, həm də dünyada sevdirən ən mühüm amil verdiyi sözə, vədə sadiqliyidir. Prezidentimizin sözü imzası qədər keçərlidir və bu günədək reallaşdırmadığı söz, vəd qalmayıb.

Andiçmə mərasimində Azərbaycanın daha böyük zəfərlərə doğru inamla irəliləyəcəyini söyləyən möhtərəm Prezident növbəti 7 illik fəaliyyətində də ölkə vətəndaşının maraqlarının, onun rifahının daim diqqət mərkəzində olacağını, yaşayış səviyyəsinin daha da yaxşılaşacağını söylədi.

Adı tariximizin qızıl səhifəsinə qalib xalqın qalib Lideri kimi yazılan cənab İlham Əliyevin andiçmə mərasimindəki nitqi həm də çox mühüm mesajlarla yadda qaldı. Dövlət başçısı dərin məzmunlu nitqində bir çox məqamlara aydınlıq gətirdi, Azərbaycanın qarşısında duran yeni hədəflərdən, nəhəng iqtisadi layihələrdən, Silahlı Qüvvələrimizin daha da gücləndirilməsi istiqamətində görüləcək işlərdən söz açdı, şanlı Zəfərimizi şərtləndirən amilləri diqqətə çatdırdı, yeni prioritetlərin yol xəritəsini təqdim etdi.

## Xalqın birmənalı etimad ünvanı

Zəfər seçkisi milli və siyasi həmrəyliyin təntənəsi kimi tarixə yazıldı. Ulu Öndər Heydər Əliyev siyasi məktəbinin ən layiqli məzunu kimi cənab İlham Əliyevin yenidən Azərbaycan Prezidenti seçilməsi bir çox məna kəsb etmiş oldu.

İlk növbədə dünya şahidlik etdi ki, bir xalq onun xilaskarı olan liderə necə etimad göstərir, inanır və güvənir. Fevralın 7-də keçirilən azad, demokratik və tam şəffaf seçkilərdə seçicilərin mütləq əksəriyyətinin - 4 milyon 567 min 458 nəfərin (92,12 faiz səs) cənab İlham Əliyevə etimad mandatı verməsi bunun bariz təcəssümüdür.

Cənab İlham Əliyevin Zəfər seçkilərində digər namizədlər arasında səs fərqinin 40 dəfədən çox olması isə onu göstərdi ki, xalq xoşbəxt gələcəyini yalnız cənab İlham Əliyevdə görür.

Cənab İlham Əliyevin qələbəsinə beynəlxalq ictimaiyyətin, xüsusən də böyük dövlətlərin rəhbərləri tərəfindən verilən qiymət də bir daha göstərdi ki, yorulmaz əzmlə Vətəninin, xalqının rifahı uğrunda çalışan, mübarizə aparan, hər kəlməsi, addımı və əməli ilə millətinə uğurlar, qələbələr bəxş edən cənab İlham Əliyev tarixin Azərbaycana bəxş etdiyi ən böyük mükafatdır.

Bunu dünya liderlərinin bir neçəsinin möhtərəm Prezidentimizə ünvanladığı təbrik məktublarındakı dəyərli fikirlər də təsdiqləyir:

*Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan: "Zati-alinizin uğurlu liderliyi ilə Azərbaycanın əmin addımlarla əldə etdiyi inkişaf, bütün torpaqlarını işğaldan azad etməsi və beynəlxalq aləmdə getdikcə artan nüfuzu bizim üçün daim qürurverici olub".*

*Çin Xalq Respublikasının Sədri Si Cinpin: "Əminəm ki, Azərbaycan Sizin rəhbərliyinizlə bütün dövlət quruculuğu təşəbbüslərində yeni nailiyyətlər əldə edəcək".*

*Rusiya Prezidenti Vladimir Putin: "Səsvermənin nəticələri Sizin yüksək siyasi nüfuzunuzu, Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı və onun mövqelərinin dünya arenasında möhkəmləndirilməsi üzrə həyata keçirdiyiniz kursa ümumxalq dəstəyini tam təsdiq edir".*

*Belarus Prezidenti Aleksandr Lukaşenko: "İyirmi il ərzində Sizin qətiyyətiniz, yüksək siyasi mədəniyyətiniz, xalqınızın səsini eşitmək bacarığınız sayəsində dünyada rəyi ilə hesablaşılan güclü, müstəqil dövlət qurulmuşdur".*

*Serbiya Prezidenti Aleksandar Vuçiç: "Bu qələbə Azərbaycan vətəndaşlarının Sizin liderliyinizə olan hədsiz etimadının təzahürüdür və Sizin strateji siyasətiniz, sadiqliyiniz sayəsində Azərbaycan sosial və iqtisadi inkişaf istiqamətində ciddi irəliləyişə nail olmuş, hər bir vətəndaşın təhlükəsizliyi və firavanlığı təmin edilmiş, ölkəniz regional liderə çevrilərək beynəlxalq arenada həsədaparılası nüfuza sahib olmuşdur".*

*Özbəkistan Prezidenti Şavkat Mirziyoyev: "Bu gün Sizin - öz xalqının həqiqi müdrik liderinin, vətənpərvər və fədakar, görkəmli siyasi xadiminin rəhbərliyi ilə Azərbaycan dövləti şanlı zirvələri fəth edir və onun beynəlxalq arenada nüfuzu, etibarı getdikcə artmaqdadır".*

Dünya liderlərinin cənab İlham Əliyevə ünvanladıqları təbrik məktubları bir daha göstərir ki, Azərbaycan Prezidenti sözün əsl mənasında qlobal lider kimi qəbul edilir və Avropada ən arzuolunan dövlət başçısı kimi yüksək nüfuza sahibdir. Seçkilərdə inamlı qələbə isə dahi Heydər Əliyev tərəfindən qoyulmuş təməl üzərində son 20 ildə cənab İlham Əliyevin daxili, regional və beynəlxalq müstəvidə əldə etdiyi misilsiz nailiyyətlərə verilmiş qiymətdir.

## Zəfər Komandanının Xankəndi mesajı

Möhtərəm Prezident Milli Məclisdə keçirilən andiçmə mərasimində Xankəndidə səs verməsinin səbəbini açıqladıqda nəinki biz deputatların, bütün dünya azərbaycanlılarının ürəyi dağa döndü.

Cənab İlham Əliyev dedi ki, Azərbaycanın istənilən yerində səs verə bilmək imkanına malik olsa da, Xankəndidə səs verməyi daha düzgün addım hesab edib. Çünki dünya erməniliyinin məhv edilmiş 200 illik məkrli planlarının ssenarilərinə əsasən, məhz Xankəndidə hələ 1980-ci illərin sonlarında xalqımıza qarşı qanlı cinayətlər başlayıb. Məhz Xankəndidə səs verdiyi binada xalqımıza qarşı soyqırımı planlaşdırılıb və oradan idarə olunub. Məhz səs verdiyi binanın önündə yerləşən meydanda erməni millətçiləri və ondan sonra Ermənistan dövləti Azərbaycana qarşı ərazi iddialarını irəli sürüb. Məhz o binada Qarabağı Azərbaycandan ayırmaq üçün hələ sovet dövründə xüsusi komitə yerləşdirilib və o komitənin əsas məqsədi Qarabağı Azərbaycandan ayırmaq olub. Otuz il bu yurd yerlərimizi işğal altında saxlayıb xarabalığa çevirən şeytanlar sonunda elə bir zərbə aldılar ki, bir də çətin özlərinə gələrlər. Çünki Zəfər Komandanı onların 200 illik xülyasını məhv edib. Xankəndidə seçki qutusuna atılan bülleten isə möhtərəm Prezidentimizin təbirincə desək, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi...

Prezident İlham Əliyevin dünyaya verdiyi mesajlar da olduqca açıq idi. Dövlət başçısı bir daha bəyan etdi ki, Azərbaycanın siyasəti tam müstəqil, milli maraqlara söykənən siyasətdir və ondan qəti surətdə geri çəkilməyəcək, heç kimə heç bir güzəşt olmayacaq.

Cənab İlham Əliyevin xalqın birmənalı dəstəyi ilə həyata keçirdiyi siyasətinin mahiyyəti məhz budur və biz bununla ancaq qürur duya bilərik. Məhz bu siyasət Azərbaycanı cəmi 20 ildə tarixinin ən qüdrətli dövlətinə çevirib. Azərbaycan 20 ildə iqtisadi cəhətdən bəlkə də bir çox dövlətin 100 ildə əldə edə bilmədiyi uğurlara imza atıb. Cəmi 20 ildə iqtisadiyyatımızın inkişaf tendensiyasına nəzər salsaq görərik ki, 20 il öncə ölkə üzrə ÜDM istehsalının dəyəri 7 milyard dollar idisə, keçən il bu rəqəm 72 milyard dollara bərabər olub. Bu illər ərzində valyuta ehtiyatlarımız 1,6 milyard dollardan 69,5 milyard dollarıdək artıb. Mühüm fakt isə ondan ibarətdir ki, xarici borcumuz gəlirlərimiz və valyuta ehtiyatlarımızla müqayisədə çox aşağıdır. Bu, ölkəmizin maliyyə sabitliyinin əsas göstəricilərindən biri olmaqla yanaşı, iqtisadi müstəqilliyimizi özündə əks etdirən mühüm amildir. Təsəvvür edin ki, 69,5 milyard dollar valyuta ehtiyatı olan, 72 milyard dollarlıq ÜDM istehsal edən ölkəmizin xarici borcu cəmi 6,4 milyard dollardır. Bu rəqəm inkişaf etmiş bir çox xarici ölkədə 100, hətta 140 faiz də təşkil edir. Ancaq ölkəmizdə bu rəqəm ümumi daxili məhsulun 9 faizindən də azdır.

Ölkəmizdə iqtisadi dinamika yüksək olaraq qalır. Bu ilin ilk ayında ÜDM istehsalı 5 faiz, o cümlədən qeyri-neft sektorunda 12 faizdən çox artıb. Bu onu göstərir ki, iqtisadiyyatımız sağlam təməl üzərində qurulduğundan qarşıdakı illərdə göstəricilərimiz daha yüksək olacaq. Dövlətimiz inkişaf etdikcə, onun maliyyə imkanları artdıqca əhalinin sosial vəziyyətini daha da yaxşılaşdırmaq imkanı yaranır.

Prezident İlham Əliyev andiçmə mərasimində əhalinin sosial vəziyyəti istiqamətində görülən işlər barədə danışarkən dedi ki, sosial sahədə görülmüş işlər göz qabağındadır. 2003-cü ildə minimum əməkhaqqı 9 manat idisə, indi 345 manatdır. Əlbəttə ki, bu da yetərli deyil, ancaq dinamika var və bu, davam edəcək. Minimum pensiya 2003-cü ildə 20 manat idi. Bu gün 280 manata çatıb. Orta pensiya 500 manatdan çoxdur. Orta əməkhaqqı 940 manatdır. 2003-cü ildə yoxsulluq 50 faiz idisə, bu gün cəmi 5 faiz səviyyəsindədir.

Hazırda ölkə qarşısında duran əsas məsələlərdən biri işğaldan azad edilən ərazilərdə bərpa-quruculuq işlərini davam etdirmək, oradan məcburi köçkün düşmüş soydaşlarımızın ləyaqətlə geri dönüşünü təmin etməkdir. Artıq 5400 keçmiş məcburi köçkün hər cür şəraiti olan evlərə köçürülüb. Cari ilin sonuna qədər yenidən qurulmuş 20 yaşayış məntəqəsinə soydaşlarımızın qayıtması planlaşdırılır. Onlar 5 şəhər və 15 kənddə məskunlaşacaqlar. Ümumilikdə isə Böyük qayıdış proqramının birinci mərhələsində, yəni 2026-cı ilin sonuna qədər 140 min vətəndaşımızın dədə-baba yurduna dönüşü proqnozlaşdırılır. Bu səbəbdən bölgədə paralel olaraq geniş sosial infrastruktur layihələri icra edilir. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonunda xəstəxanalar, məktəblər, idman və infrastruktur obyektləri, yollar, 130-dan çox tunel və körpü tikilir. Ən əsası isə buraya qayıdacaq insanlar üçün hər cür şəraiti olan yaşayış evləri və binaları inşa olunur.

İşğaldan azad olunan ərazilər ölkəmizin iqtisadi inkişafına yeni güc qatacaq. Burada kənd təsərrüfatı, sənaye və turizmin inkişafı üçün geniş imkanlar var. Bu, eyni zamanda doğma yurdlarına dönən insanların məşğulluğunun təmin edilməsində önəmli rol oynayacaq. Dövlət başçısının dediyi kimi, ölkəmizdə başlanan yeni dönəmdə işğaldan azad olunan ərazilər ümumi inkişafa əlavə imkanlar qazandıracaq.

## Yeni dövr - əsas istiqamətlər və hədəflər

Əlbəttə ki, bütün bu uğurlar Prezident İlham Əliyevin yüksək şəxsi və siyasi keyfiyyətləri, hər bir məsələdə qətiyyətli mövqedən çıxış etməsi, xarizması sayəsində əldə edilib. 20 il ərzində kosmik dövlətlər sırasına daxil olan, regionda multikulturalizmin qalasına çevrilən, sosial-iqtisadi və hərbi cəhətdən gündən-günə inkişaf edən Azərbaycan cənab İlham Əliyevin yeni inkişaf konsepsiyası ilə daha da qüdrətli dövlətə çevrilmək istiqamətində inamla addımlayır.

Dövlətimizin başçısı yeni dövrdə qarşıya qoyulan hədəfləri, prioritet istiqamətləri açıqlayaraq həm görüləcək işlərin anonsunu verdi, həm də tapşırıqlarını çatdırdı.

Prezident dedi ki, indi yeni dövr başlayır. Azərbaycan bu dövrə alnıaçıq, üzüağ, başıdik daxil olur. Əlbəttə ki, bu dövrün böyük nailiyyətləri olacaq, buna şübhə yoxdur. Çünki son illərin tarixi onu göstərir ki, cənab İlham Əliyevin qarşıya qoyduğu bütün vəzifələr icra edilib. Azərbaycan cəmiyyətində hökm sürən çox müsbət ab-hava dövləti daha da gücləndirir.

Prezidentin haqqında danışdığı hədəflərdən ən birincisi hərbi, təhlükəsizlik məsələləri, o cümlədən hərbi sənayenin daha da genişləndirilməsidir. İkinci sırada milli-ideoloji məsələlərdə vahid mövqeyin qorunması, milli ənənələrə, dəyərlərə sadiq nəsillərin yetişdirilməsi gəlir. Qarabağ və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması istiqamətində işlərin intensivləşdirilməsi, bölgənin geosiyasi landşaftının dəyişdirilməsi, infrastruktur quruculuğu, keçmiş köçkünlərin doğma yurdlarına qaytarılması prosesinin davam etdirilməsi qarşıdakı hədəflərdəndir.

Növbəti illərdə qarşımızda duran əsas vəzifələrdən biri ordumuzun, Silahlı Qüvvələrimizin daha da gücləndirilməsidir. İkinci Qarabağ müharibəsindən sonra bu istiqamətdə çox böyük addımlar atılıb və bu gün də Müzəffər Ali Baş Komandanın tapşırıq və göstərişləri ilə yeniliklər həyata keçirilir. Bu gün Azərbaycan Ordusu 2020-ci ildəkindən daha güclüdür və cəmi bir neçə saat davam edən antiterror əməliyyatı bunun bariz nümunəsidir. Türkiyənin "Baykar" şirkətinin istehsalı olan "Akıncı" hücum PUA-larının Hərbi Hava Qüvvələrinin silahlanmasına qəbul edilməsi də bunun tərkib hissəsidir.

Yəni bu gün Silahlı Qüvvələrimizin gələcək inkişafı ilə bağlı lazımi addımlar atılır, müasir silah-sursat, texnika alınır, yeni silahlı birləşmələr yaradılır. Xüsusi Təyinatlı Qüvvələrin sayı bir neçə dəfə artırılıb, yeni yaradılmış "Komando" silahlı birləşmələrində hərbçilərin sayı minlərlə ölçülür və bu proses davam edir.

Zəfər Komandanı elə ordu yaradıb ki, özünün də dediyi kimi, heç kim Azərbaycana sataşa bilməz və gələcəkdə də belə bir fikirdə ola bilməz. Bu günlərdə Ermənistan tərəfindən törədilmiş yeni təxribata dərhal adekvat cavab verilməsi - "Qisas" əməliyyatı düşməni bir daha cəzalandırdı. Bu bir daha onlara və əsasən onlara ürək-dirək verən, üstümüzə göndərən qüvvələrə siqnal idi ki, Azərbaycanın qarşısında heç kim dura bilməz. Ermənistanın nə qədər havadarı olsa da, heç kim bizi dayandıra bilməz. Azərbaycanın siyasəti beynəlxalq hüquqa əsaslanır.

Azərbaycan çox güclü hərbi sənaye kompleksi yaradır, artıq bunun birinci mərhələsi başa çatıb. İkinci mərhələsi daha genişmiqyaslı olacaq. Təkcə cari ildə bu məqsədlər üçün həm özəl, həm dövlət müəssisələri tərəfindən ən azı bir milyard manat sərmayə qoyulacaq və Azərbaycan özünü bundan sonra daha böyük həcmdə silah-sursatla, texnika ilə təmin edəcək, daha böyük həcmdə ixrac edəcək.

Müzəffər Ali Baş Komandan eyni zamanda sərhədlərimizin qorunmasını qarşıya önəmli vəzifə kimi qoyaraq tapşırıq verdi ki, sərhədlərimizi daha da güclü qorumalıyıq. Düzdür, bu istiqamətdə önəmli addımlar atılıb.

Prezidentin qarşıya qoyduğu vəzifələrdən biri də təhlükəsizlik tədbirlərinin görülməsidir. Bu gün özümüzü təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və sərhədlərimizin möhkəmləndirilməsi nəticəsində həm fiziki risklərdən, həm də ideoloji risklərdən qorumalıyıq. Əsas vəzifə gənc nəslin vətənpərvərlik ruhunda, milli ənənələr ruhunda tərbiyə olunmasıdır. Bu məsələyə çox ciddi yanaşılmalıdır. Dövlət başçısı bu məsələni də əsas vəzifələrdən biri kimi qarşıya qoydu.

Növbəti önəmli vəzifə Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir. Artıq 3 ildən çoxdur ki, bu ərazilərdə görülən işlər o torpaqlara gələn hər bir qərəzsiz xarici qonağı valeh edir. Çünki bu dərəcədə dağıntılardan sonra bu sürətlə bərpa işlərinin aparılması tarixdə görünməmiş hadisədir. Böyük qayıdış davam edir və bu ilin sonuna qədər azad edilmiş torpaqlarda 5 şəhərə və 15 kəndə 20 min keçmiş köçkünü yerləşdirmək nəzərdə tutulur.

## Heç kimdən xahiş etməyən qlobal lider

Azərbaycan güclü və özünü təmin edən regional aktor qismində yeni dövrə qədəm qoyur. Hər zaman tam müstəqil siyasət yürüdən və məhz bu səbəbdən də etibarlı tərəfdaş statusuna sahiblənən Azərbaycan xarici siyasət kursunu davam etdirməlidir. Məhz bu xarici siyasət Azərbaycanın nüfuzunu gündən-günə yüksəldir. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatçısı kimi qitənin enerji xəritəsini tamamilə dəyişib. Bütün bunlar İlham Əliyevin müəllifi olduğu qlobal layihələrin hesabına reallaşıb.

Prezident İlham Əliyevin də söylədiyi kimi, Azərbaycanın xarici siyasəti bundan sonra da çox aydın və açıq olacaq. Çünki indiyədək möhtərəm Prezidentimizin yürütdüyü siyasət dünya ictimaiyyəti tərəfindən bəyənilir, dəstəklənir. Əgər belə olmasaydı, 155 ölkə Azərbaycanı BMT Təhlükəsizlik Şurasına üzv, 120 ölkə Qoşulmama Hərəkatına sədr seçməzdi. Əgər belə olmasaydı, dünya birliyi COP29 konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul etməzdi.

Avropanın lider ölkələrinin rəhbərləri özləri etiraf edirlər ki, bu gün dünya siyasətçiləri, dövlət başçıları beynəlxalq tədbirlərdə cənab İlham Əliyevlə şəkil çəkdirmək üçün növbəyə dururlar.

Elə fevralın 16-18-də Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransına dəvət edilməsi, bu mühüm toplantıda iştirakı, konfrans çərçivəsində bir çox dövlət liderinin xahişi ilə keçirilən görüşlər bir daha sübut edir ki, dünya ölkələri, böyük iqtisadi təşkilatlar Azərbaycanla əməkdaşlığa yüksək dəyər verir, cənab İlham Əliyevi sözünün sahibi, etibarlı tərəfdaş və ən önəmli lider hesab edirlər. Ümumiyyətlə, Münxen Təhlükəsizlik Konfransı dünya liderlərinin, aparıcı beynəlxalq təşkilatların, nüfuzlu tədqiqat, elm mərkəzlərinin rəhbərlərinin, tanınmış ekspertlərin toplaşdıqları ən mühüm platformalardan biridir. Azərbaycan müntəzəm şəkildə bu platformaya cənab İlham Əliyevin şəxsində dəvət alır, dövlət başçısı müzakirələrdə fəal iştirak edir, qlobal və regional təhlükəsizlik məsələləri ilə bağlı öz dəyərli fikirlərini bölüşür. Prezident İlham Əliyev üç gün qarşı tərəflərin müraciətlərinə əsasən, 23 mühüm görüş keçirib. Bu görüşlər haqqında qarşı tərəfin müraciətləri və görüşlərin intensivliyi Azərbaycan Prezidentinin yüksək nüfuzunun, onun şəxsiyyətinə olan böyük hörmət və diqqətin göstəricisidir. Görüşlərin intensivliyi Azərbaycanla əməkdaşlıq etmək istəyənlərin sayının həddən artıq çox olması ilə bağlıdır.

Bütün bunlar cənab İlham Əliyevin 20 ildə həyata keçirdiyi xarici siyasətin aynasıdır. Hər kəs qlobal liderlə görüşmək istəyir. Amma Azərbaycan Prezidenti heç kimdən nəsə xahiş etmir. Özünün də dediyi kimi, 20 ildən çoxdur ki, prezident kimi heç kimdən heç nə xahiş etməyib. Çünki buna ehtiyac da olmayıb. Azərbaycan özünü tam təmin edən ölkədir. Azərbaycan hər zaman ikitərəfli formatda əməkdaşlığın tərəfdarıdır və xarici siyasəti də buna hesablanıb - bərabərhüquqlu münasibətlər, qarşılıqlı hörmət, xoş münasibət, bir-birinin işinə qarışmamaq. Bu, Azərbaycanın prinsipləridir və bu prinsipləri cənab İlham Əliyev diktə edib və qəbul etdirə də bilib.

Qarşıdakı prioritetlərə gəlincə isə cənab Prezident dedi ki, yeni dövrdə xarici siyasət istiqamətində yeni üfüqlər açmalıyıq. Əgər əvvəlki dövrdə xarici siyasətimizin əsas istiqaməti Ermənistan-Azərbaycan münaqişəsinin həlli idisə, bu gün artıq bu məsələ demək olar gündəlikdə durmur. Ona görə xarici siyasətimizin yeni istiqamətləri üstünlük təşkil etməlidir.

Cənab Prezident bəyan etdi ki, Azərbaycan dünyanı narahat edən problemlərin həllində daha fəal olacaq. Nəzərə alsaq ki, ölkəmiz COP29-un ev sahibi və sədri olacaq, eyni zamanda dünyada islamofobiyaya qarşı mübarizədə ön sıralarda, neokolonializmə qarşı mübarizə aparan ölkələrin yanında olmaq vacib şərtlərdən biridir. Neokolonializmi Yer üzündən tamamilə silmək üçün Azərbaycan öz dəstəyini göstərir və bundan sonra da göstərəcək. Azərbaycana qarşı atılan addımlara adekvat addım atılacaq, ölkəmizə qarşı məkrli planlar hazırlayanlar peşman olacaqlar. Çünki Azərbaycana qarşı istənilən çirkin kampaniya hər zaman bumeranq effekti verib.

## Peşəkar komanda

Prezident İlham Əliyevin də dəfələrlə vurğuladığı kimi, ölkəmiz üçün yeni dövr başlayır. Azərbaycan bu yeni mərhələyə ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş, güclü, sözün həqiqi mənasında müstəqil siyasət yürüdə bilən və beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi qəbul olunan dövlət kimi qədəm qoyur.

Artıq "Dağlıq Qarabağ" adlı problemimiz yoxdur, Qarabağın üzərindən "dağ" götürülüb. İndi yeni hədəflərimiz, daha böyük planlarımız var. Möhtərəm Prezidentimizin çıxışının sonunda səsləndirdiyi fikirlər hər birimizə qürur, fəxarət hissi yaşatdı: "Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək. Bu yolda hamımıza uğurlar, yolumuz açıq olsun!"

Bu tarixi, möhtəşəm fikirləri eşitmək üçün tam bir qərinə gözlədik, səbir etdik. Allahın Azərbaycan xalqına nəsib etdiyi Xilaskar Liderin yaratdığı güc hesabına xalqın otuzillik həsrəti, dünya erməniliyinin isə ikiəsrlik avantürası sona çatdı.

Andiçmə mərasimindən sonra Prezident Nazirlər Kabinetinin yeni tərkibini müəyyənləşdirdi. Dövlət başçısı tərəfindən Milli Məclisə Baş nazir Əli Əsədovun yenidən bu vəzivəyə təyinatı ilə bağlı daxil olan müraciətinə ali qanunverici orqan müsbət cavab verdi. Bu, 2019-cu ildə Prezident İlham Əliyev tərəfindən Baş nazir təyin edilməklə böyük etimad qazanan hörmətli Əli Əsədovun 5 illik fəaliyyətinə həm dövlət başçısının, həm də parlamentin verdiyi yüksək qiymət idi. Əminliklə söyləmək olar ki, Əli Əsədov Azərbaycan Respublikasının Baş naziri vəzifəsində fəaliyyətini layiqincə davam etdirəcək.

Bu bir həqiqətdir ki, son 20 ildə Prezident İlham Əliyevin həyata keçirdiyi mütərəqqi islahatların, qazanılan böyük Zəfərin, uğurlu daxili və xarici siyasətin ən böyük dəstəkçisi Birinci vitse-prezident Mehriban xanım Əliyevadır. Məhz əldə olunan uğurlarda ölkənin birinci xanımının əvəzsiz xidmətləri var. Mehriban xanım Əliyevanın dövlət başçısının ən sadiq silahdaşı kimi göstərdiyi fəaliyyət, gördüyü işlər çoxşaxəli və misilsizdir. Birinci vitse-prezident kimi hər bir sahədə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun dəstəklənməsinə və uğur qazanmasına layiqli töhfələr verən Mehriban Əliyevanın gördüyü işləri təhlil etsək, əminliklə deyə bilərik ki, onun çoxşaxəli və geniş əhatəli fəaliyyəti Azərbaycanın bugünkü inkişafı içərisində çox böyük çəkiyə malikdir.

*Əminliklə deyə bilərik ki, qarşıdakı 7 ildə də Mehriban xanım Əliyeva Birinci vitse-prezident kimi İlham Əliyevin həyata keçirəcəyi tam müstəqil siyasətin, yeni-yeni Zəfər salnamələrinin ən böyük dəstəkçisi olacaq. Tarixinin ən qüdrətli Azərbaycanı isə cənab İlham Əliyevin yeni inkişaf konsepsiyası əsasında möhtəşəm nailiyyətlərə imza atacaq.*

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

# Xalqı daim uğurlara aparan siyasətin növbəti zəfəri

## Prezident İlham Əliyevin son seçkilərdəki inamlı qələbəsi Azərbaycanın yeni mərhələ üçün qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləməsinə təminatdır

Dünya təcrübəsi göstərir ki, hüquqi dövlət və vətəndaş cəmiyyətinin yaradılması güclü iqtisadiyyat quruculuğu ilə yanaşı, həm də xalqın azad iradəsinin ifadəsi olan demokratik seçkilərdən keçir. Seçkilərin beynəlxalq səviyyədə qəbul olunmuş meyarlar əsasında keçirilməsi sivil münasibətlər sisteminin, siyasi mədəniyyətin formalaşdırılması, habelə cəmiyyətin milli maraqlar ətrafında birləşməsi kimi mühüm amillərə yol açır.



Azərbaycanda keçirilmiş növbədənkənar prezident seçkilərinin yekunları ilə bağlı beynəlxalq rəylər - xarici müşahidəçilərin, qeyri-hökumət təşkilatlarının, media nümayəndələrinin açıqlamaları prosesin şəffaf, ədalətli keçdiyini, xalqın azad siyasi iradəsini əks etdirdiyini bir daha təsdiqləyib. Erməni lobbisinin və anti-Azərbaycan şəbəkəsinin apardıqları qarayaxma və böhtan kampaniyasına baxmayaraq, beynəlxalq ictimaiyyət ölkəmizdə yüksək standartlara cavab verən seçkilərin keçirildiyinin, bunun üçün ciddi siyasi iradənin mövcudluğunun əyani şahidi olub.

Seçkilərin ilk dəfə olaraq bütün ölkə ərazisini, rayon və şəhərləri əhatə etməsi müstəqil Azərbaycanın ən böyük nailiyyətlərindən biridir. Yüksək seçici fəallığı şəraitində səsvermə hüququ olan vətəndaşların 92,12 faizinin Müzəffər Ali Baş Komandana etimad göstərməsi həm də xalqın təşəkkürü, vəfa borcuna sadiqliyi kimi dəyərləndirilməlidir. Xalq-iqtidar birliyinin daha da güclənməsi Azərbaycana münasibətdə məkrli mövqedə olan qüvvələrin qarşısında ən ciddi sipərdir.

Növbədənkənar prezident seçkilərinin Azərbaycanın hərtərəfli inkişafında, milli maraq və mənafelərinin qorunmasında, demokratikləşmə prosesinin sürətlənməsində keyfiyyətcə yeni mərhələnin əsasını qoyduğu hazırda beynəlxalq miqyasda da etiraf olunur. Əslində, ölkəmizin son 20 ildəki inqilabi xarakterli uğurları, iqtisadi, siyasi nüfuzu, eləcə də ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi fonunda Prezident İlham Əliyevin həlledici səs çoxluğu ilə qələbə qazanacağına nəinki daxildə, beynəlxalq arenada da ciddi əminlik var idi. Seçkilərin nəticələri ilə bağlı rəylər fonunda bir daha təsdiqlənir ki, dünyanın əksər ölkələri Azərbaycanda uzun illərin sınağından çıxmış mövcud siyasi kursa yüksək etimad göstərirlər. Prezident İlham Əliyevə ünvanlanan səmimi çoxsaylı təbriklər ölkəmizin nəinki Cənubi Qafqazda, ümumən qlobal miqyasda yüksək nüfuza malik olmasının göstəricisidir. Təbrik məktublarından da göründüyü kimi, respublikamızın bölgədə sabitləşdirici rol oynaması, Avropanın enerji təhlükəsizliyində mühüm rolu hazırda istər fövqəlgüc dövlətlər, istərsə də aparıcı beynəlxalq təşkilatlar tərəfindən birmənalı etiraf olunur.

Seçkilərin nəticələri hər bir siyasi qüvvənin fəaliyyətinə verilən ictimai qiymətdir. Bu mənada ötən 20 ildə Azərbaycanı davamlı inkişaf və tərəqqi yoluna çıxararaq təminatlı gələcəyə etibarlı zəmin yaradan mövcud siyasi kursun davam etdirilməsi cəmiyyətin həlledici çoxluğunun iradəsi kimi önə çıxıb, qədirbilən xalqımız birmənalı olaraq taleyini növbəti dəfə də cənab İlham Əliyevə etibar edib. Bu dəyişməz seçim eyni zamanda Azərbaycan cəmiyyətinin öz layiqli liderinin siyasi fəhminə və parlaq şəxsiyyətinə sarsılmaz inamının əyani təcəssümü olub. Mütləq əksəriyyət 7 fevral seçkilərində əməli işi, konkret nəticəni, firavan sabahı seçdiyini nümayiş etdirib.

Yüksək siyasi iradəsi, qətiyyətliliyi, məqsədə doğru inamla irəliləməsi, milli maraqlara sadiqliyi, praqmatizmi, təvazökarlığı və sadəliyi, ən əsası Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olması dövlət başçısının növbəti prezident seçkilərində xalq tərəfindən yüksək dəstək almasını birmənalı təmin edib. Cənab İlham Əliyev praqmatik lider və rəhbər olaraq, mövcud gerçəklikləri operativ və obyektiv şəkildə qiymətləndirib, milli maraqlar naminə cəsarətli addımlar atıb, yaranmış ekstremal şəraitlərdə ən optimal, düzgün qərar qəbul edib. Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik fəlsəfəsini dərindən mənimsəmiş cənab İlham Əliyev son 20 ildə idarəçilikdə yeni ənənənin və inqilabi xarakterli yeniliklərin müəllifinə çevrilib.

Bu məqamda onu da xüsusi qeyd etməliyik ki, müdrik xalqımız hələ 31 il əvvəl - 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevə yüksək etimad göstərməklə, dövlətimizin dayanıqlı və sabit inkişaf yolunu müəyyənləşdirib. Tarixdən məlumdur ki, müstəqilliyin elan edilməsi dövlətin davamlı inkişafı, xalqın can atdığı milli ideallara çatması baxımından çox zaman yetərli olmur. Bu mənada Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətini xaos və anarxiya, vətəndaş müharibəsi təhlükəsindən xilas edən, iqtisadi tənəzzülün dərinləşməsinin qarşısını alan, həyata keçirdiyi islahatlarla ictimai həyatın bütün sahələrində tərəqqini, inkişafı təmin edən böyük lider kimi hər zaman dərin ehtiramla xatırlanır.

Azərbaycan vətəndaşları növbədənkənar prezident seçkilərində dövlətimizin başçısı cənab İlham Əliyevin namizədliyini dəstəkləməklə siyasi taleyini Heydər Əliyev siyasi kursuna etibar edib. Dövlət başçısının milli maraq və mənafelərə əsaslanan uğurlu diplomatiyası, modern ordu quruculuğu siyasəti, xalqı ətrafında səfərbər etmək bacarığı sayəsində Azərbaycan bu gün dünyada ərazi bütövlüyünü, suverenliyini hərb meydanında təmin edən, regionda yeni geosiyasi reallıqlar formalaşdıran qalib ölkə kimi tanınır. 44 günlük Vətən müharibəsi və ötən ilin sentyabrında keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı qazandığımız parlaq zəfərlər dövlətimizin başçısı İlham Əliyevin son 20 illik fəaliyyətinin nəticələrinin obyektiv dəyərləndirilməsi baxımından ən qürurverici, möhtəşəm hadisələrdir.

Azərbaycanı son iki əsrdə ərazi itirən dövlətdən torpaqlarını geri qaytaran dövlətə çevirən dövlət başçısı Ulu Öndərin ən böyük arzusunu, vəsiyyətini də həyata keçirib. Şuşa şəhərinin işğaldan tam azad edildiyi gün - 2020-ci il noybarın 8-də dövlətimizin başçısının xalqa müraciəti zamanı dediyi bu sözlər yaddaşımızda əbədi həkk olunub: *"Mən bu gün eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik!"*

Dövlət başçısının ilk dəfə prezident seçildiyi gün - 15 oktyabr tarixdə Xankəndidə hərbçilər qarşısında dövlət bayrağımızı uçaltması isə rəmzi mahiyyət kəsb edən hadisə kimi tarixiləşib. Nəhayət, dövlətimizin başçısı İlham Əliyevin və ailə üzvlərinin fevralın 7-də Xankəndiyə gələrək, bu şəhərdə səs verməleri Qarabağın əzəli və əbədi Azərbaycan torpağı olması ilə bağlı bütün dünyaya, xüsusilə Ermənistana, onun bəzi havadarlarına ünvanlanan sərt ismarış olub. Dövlətimizin başçısı fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimindəki çıxışı zamanı bu məqama xüsusi toxunaraq deyib: "Məhz səs verdiyim binanın önündə yerləşən meydanda erməni millətçiləri və ondan sonra Ermənistan dövləti bizə qarşı ərazi iddialarını irəli sürmüşdü. Məhz o binada Qarabağı Azərbaycandan ayırmaq üçün hələ sovet dövründə xüsusi komitə yerləşdirilmişdi və o komitənin əsas məqsədi Qarabağı Azərbaycandan ayırmaq idi, bunu hər kəs bilir. Ona görə məhz orada otuz il bizim tarixi yerimizi, Pənahəli xan tərəfindən salınan o məkanı qanunsuz zəbt edən şeytanlar məhz orada da öz süqutunu özləri təsdiq etmişlər, təbii ki, məcburən. Orada verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi".

Fevralın 14-də keçirilən andiçmə mərasimindəki hesabat xarakterli, yeni inkişaf mərhələsinin hədəflərini müəyyən edən dərin məzmunlu nitqi bir daha sübut edib ki, dövlət basçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev 2003-cü ilin prezident seçkiləri zamanı və sonrakı mərhələdə xalq qarşısında verdiyi bütün vədləri əməli işi ilə doğruldub. Praqmatik lider kimi gücü və xarizması cənab İlham Əliyevin qarşıda müəyyənləşdirdiyi milli ideya səviyyəli vəzifələri gerçəkləşdirmək üçün dərin strateji baxışa, yüksək idarəçilik keyfiyyətlərinə, daxili inama və siyasi qətiyyətə malik olmasında, xalqın dəstəyinə arxalanmasındadır.

Dəqiq sosial-iqtisadi strategiya əsasında qarşıda duran vəzifələri düzgün müəyyənləşdirən liderlər həm də inkişafa yönəlmiş məqsədləri gerçəkləşdirməyə nail olurlar. Bu baxımdan cənab İlham Əliyevin yürütdüyü iqtisadi siyasət nəticəsində ictimai-siyasi sabitlik, vətəndaş sülhü və həmrəyliyi qorunub saxlanılıb, cəmiyyətin ümumi potensialının ümummilli məqsədlər naminə səfərbər olunması inkişaf prosesində dinamizmi təmin edib. Dəqiq müəyyənləşdirilmiş prioritetlər, elmi əsaslara söykənən fundamental qərarlar, xalqın mənafeyinə uyğun sosial-iqtisadi siyasət, çevik idarəçilik mexanizminin formalaşdırılması, diplomatik münasibətlərdə balanslaşdırma prinsipinin qorunması, mövcud imkanlardan Azərbaycan vətəndaşlarının rifahı naminə maksimum istifadə müasir tariximizin son 20 illik dövrünü səciyyələndirən mühüm yeniliklərdəndir.

Azərbaycanı mövcudluq tarixinin ən güclü dövlətinə, habelə beynəlxalq miqyasda söz sahibinə çevirən cənab İlham Əliyev seçkiqabağı platformasında irəli sürdüyü *"Əsl siyasət konkret real iş görməkdən ibarətdir"* tezisini də əməli fəaliyyəti ilə doğruldub. Sözünün imzası qədər çəkisinin olduğunu beynəlxaq səviyyədə təsdiqləyən dövlətimizin başçısı hər bir mərhələ üçün hökumət qarşısında duran vəzifələri düzgün müəyyənləşdirib, onların çevik və işlək mexanizmlər əsasında icrasını təmin edib, sosial sifariş amilini fəaliyyətində əsas tutub. "Güclü iqtisadiyyat, yüksək sosial rifah" tezisi əsasında reallaşdırılan iqtisadi siyasət sivil və inkişaf etmiş cəmiyyət quruculuğu sahəsində mühüm uğurların əldə olunmasına imkan yaradıb. Xalqa layiqli xidmət, vətəndaşa həssas münasibət məsələləri cənab İlham Əliyevin yürütdüyü siyasətin ana xəttini, başlıca ideya istiqamətini təşkil edib.

Dövlət başçısı İlham Əliyev fevralın 7-də Milli Məclisdə keçirilmiş andiçmə mərasimində ona yüksək etimad göstərmiş ölkə vətəndaşlarına səmimi minnətdarlığını ifadə edib, ölkənin inkişafı naminə həyata keçirilən islahatların bundan sonra da davam etdiriləcəyini vurğulayıb: *"İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə ki, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq. Mənim buna şübhəm yoxdur. Azərbaycan cəmiyyətində hökm sürən çox müsbət ab-hava bizi daha da gücləndirir"*.

Ötən 20 illik mərhələ ölkə həyatı üçün strateji əhəmiyyət kəsb edən inkişaf proqramlarının hazırlanması və işlək mexanizmlər əsasında həyata keçirilməsi, ən müxtəlif sahələrdə intibah və tərəqqi prosesinin geniş vüsət alması ilə səciyyəvidir. Ümumiləşdirərək ifadə etsək, qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrinin uğurla gerçəkləşdirilməsi, Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın rolunun artırılması, neft strategiyasının milli mənafelərə uyğun davam etdirilməsi, eyni zamanda qeyri-neft sektorunun ümumi daxili məhsuldakı çəkisinin yüksəldilməsi, regionların tarazlı və davamlı inkişafı, sahibkarların hərtərəfli dəstəklənməsi, yeni istehsal müəssisələrinin açılması, işsizlik, yoxsulluq problemlərinin tədricən aradan qaldırılması, əhalinin sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi, infrastrukturun bütün sferalarda yeniləşdirilməsi məsələləri cənab İlham Əliyevin iqtisadi siyasətinin əsasını təşkil edib.

İdarəetmə sisteminə yenilikçi düşüncə tərzi, dinamizm və müasirlik çalarları gətirmiş dövlət başçısı hər il üçün hökumətin həyata keçirməli olduğu tədbirlərin əhatə dairəsini və vaxtını dəqiq müəyyənləşdirməklə, onların icra prosesini şəxsi nəzarətdə saxlayıb, ölkənin strateji resurslarını milli inkişafa təkan verən qlobal layihələrin reallaşdırılması yönündə səfərbər edib. Bu nöqteyi-nəzərdən regional inkişaf və qeyri-neft sektorunun inkişafı naminə həyata keçirilmiş tədbirləri xüsusi vurğulamaq olar. Bölgələrin tarazlı və davamlı inkişafının təmin olunması, iş yerlərinin açılması, infrastrukturun yeniləşdirilməsi, mövcud problemlərin aradan qaldırılması məqsədilə imzaladığı dövlət proqramlarının, fərman və sərəncamların icrası vəziyyəti ilə yerindəcə tanış olmaq, sıravi vətəndaşlarla birbaşa ünsiyyət quraraq mövcud çətinliklər barədə informasiyaları ilkin mənbədən almaq üçün vaxtaşırı Azərbaycanın müxtəlif rayonlarına təşkil edilən səfərlər cənab İlham Əliyevin prezidentlik fəaliyyətinin əsas istiqamətləri kimi diqqəti çəkir.

Yürüdülən məqsədyönlü siyasət qlobal gərginliklərin ölkəmizə mənfi təsirlərinin maksimum dərəcədə azaldılmasına deyil, həm də dövlət idarəçiliyində sistem xarakterli keyfiyyət dəyişikliklərinin təminatına yönəlib. 2016-cı il sentyabrın 26-da keçirilmiş refendumun nəticəsi kimi ölkədə Birinci vitse-prezident institutunun yaradılmasını, Heydər Əliyev Fondunun rəhbəri kimi uzun illər ərzində reallaşdırdığı mühüm sosial-humanitar, mədəni və digər layihələrlə cəmiyyətin rəğbətini qazanmış Mehriban xanım Əliyevanın 2017-ci il fevralın 21-də bu vəzifəyə təyin olunmasının əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. Bu təyinat dövlət idarəçiliyinə yeni ruh və müasirlik gətirməklə, ümumilikdə gənc, təcrübəli və intellektual səviyyəli novator kardların ölkədə həyata keçirilən islahatlarda iştirak imkanlarını genişləndirib, ictimai-siyasi münasibətlər sisteminin xarakterində əsaslı dəyişikliklərə yol açıb.

Son prezident seçkilərindən dərhal sonra dövlətimizin başçısının formalaşdırdığı yeni hökumət, apardığı kadr islahatları ölkəmizdə islahatların miqyasını və tempini sürətləndirmək, xidmət sahələrində vətəndaş məmnunluğunu, idarəçilikdə, xüsusilə məhkəmə və ədliyyə orqanlarının fəaliyyətində səmərəliliyi, şəffaflığı təmin etmək niyyətindən irəli gəlib. Aparılan institusional islahatlar dövlət məmurları tərəfindən ölkə vətəndaşlarına göstərilən xidmətlərin daha da təkmilləşməsinə və yaxşılaşdırılmasına xidmət edib. Tətbiq edilən modern idarəetmə texnologiyasının əsas cəhətlərindən biri hər bir məmurun fəaliyyətinin əldə edilmiş konkret nəticələr əsasında qiymətləndirilməsidir. Bu prinsip dövlət məmurlarının öz işinə daha məsuliyyətlə yanaşmalarına, dövlət idarəetmə aparatının daha səmərəli və məhsuldar işləməsinə zəmin yaradır.

Bunu demək kifayətdir ki, "ASAN xidmət", "ASAN Kommunal", "DOST" və sairə kimi yeni idarəçilik modellərinin tətbiqində məqsəd vətəndaş məmnunluğunu təmin etmək, bürokratik amillərin aradan qaldırılmasına nail olmaq, idarəetməni çevik və səmərəli əsasda qurmaqdır. Mərkəzi və yerli icra hakimiyyəti strukturlarında şəffaflığa, hesabatlığa, "Açıq cəmiyyət" quruculuğu prinsiplərinə əsaslanan çevik idarəetmə modelinin formalaşdırılması yeni mərhələdə kadr siyasətinin əsas qayəsində yer alır. Bunlar həm də göstərir ki, Azərbaycanda başlanmış islahatlar sistem xarakterlidir və ictimai həyatın bütün sahələrində köklü dəyişikliklərin reallaşdırılması üçün ali səviyyədə ciddi siyasi iradə mövcuddur. Müasir idarəetmə meyarlarına uyğunlaşmaq istəməyən məmurlar barəsində sərt ölçülərin götürülməsi, onlardan bir qisminin cinayət məsuliyyətinə cəlb olunması ilk növbədə qanunun aliliyinin təmin edilməsi istiqamətində atılan prinsipial addımlar olub.

Dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi, modernləşmə prosesinin dərinləşdirilməsi və innovativ modellərin tətbiqi də bu sırada xüsusi qeyd oluna bilər. Kompleks siyasi, iqtisadi və hüquqi islahatlar çərçivəsində 2009-cu və 2016-cı illərdə keçirilmiş ümumxalq referendumları əsasında Konstitusiyada edilmiş əlavə və dəyişikliklər ölkə rəhbərliyinin sistem xarakterli islahatların dərinləşdirilməsində, ictimai maraqların etibarlı müdafiəsində nə qədər ciddi olduğunu əyani şəkildə göstərib.

Dövlət başçısı İlham Əliyev ötən 20 ildə beynəlxalq hüququn demək olar ki, formal xarakter daşıdığı ədalətsiz dünyada qarşıya qoyulan hədəflərin reallaşdırılmasının, ayaqda durmağın, müstəqilliyi möhkəmləndirməyin, söz sahibi olmağın sadə formulunu müəyyən edib: iqtisadi və hərbi cəhətdən güclü olmaq, hücum diplomatiyası yürütmək, təhdidləri dəf etmək! Məhz bunun nəticəsində iqtisadi sahədə inqilabi uğurlara imza atan, dünyanın enerji təhlükəsizliyinə sanballı töhfələr verən Azərbaycan dünyada müstəqil siyasət yürütməyə nail olub, davamlı şəkildə artan iqtisadi-maliyyə resurslarımız ölkəmizə heç bir ölkədən asılı olmadan hədəflərinə çatmaq imkanı yaradıb. Dövlət başçısı İlham Əliyev respublikamızın necə həssas və mürəkkəb geosiyasi məkanda yerləşməsinin fərqindədir və özünün xarici siyasət doktrinasında bölgənin özəlliklərini nəzərə alır.

Seçkilərin nəticələri fonunda onu da deyə bilərik ki, respublikamız milli mənafelərinin müdafiəsinə yönəlmiş praqmatik, reallıqları özündə əks etdirən, qlobal proseslərin xarakterinə cavab verən çevik xarici siyasətini bundan sonra da davam etdirmək əzmindədir. Prezident İlham Əliyevin andiçmə mərasimindəki dərin məzmunlu çıxışı ölkə diplomatiyası qarşısında yeni vəzifə və hədəfləri də müəyyən edib. Azərbaycanın müstəqil siyasətini bundan sonra da davam etdirəcəyini, qlobal və regional təhdidlərə adekvat cavab verəcəyini, beynəlxalq platformalarda fəaliyyətini davam etdirəcəyini vurğulayıb: *"Biz özümüzü tam təmin edən ölkəyik. Biz ikitərəfli formatda əməkdaşlığın tərəfdarıyıq və xarici siyasətimiz də buna hesablanıb - bərabərhüquqlu münasibətlər, bir-birinə hörmət, bir-birinə, necə deyərlər, xoş münasibət, bir-birinin işinə qarışmamaq. Bu, bizim prinsiplərimizdir və bu prinsipləri biz diktə etmişik, bunları qəbul etdirə bilmişik"*.

Postkonflikt dövründə ölkə reallıqlarının beynəlxalq miqyasda, müxtəlif təşkilatlar çərçivəsində təbliği, Ermənistanın və onun himayədarlarının informasiya cəbhəsində zərərsizləşdirilməsi yeni mərhələdə də Azərbaycan diplomatiyasının əsas vəzifələri olaraq qalır. Dövlətimizin başçısı xüsusən də Türk Dövlətləri Təşkilatı, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı ilə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi zəruriliyini vurğulayıb. Prezident İlham Əliyevin bu günlərdə ilk rəsmi səfərini qardaş Türkiyəyə etməsi də bu mənada təbii və qanunauyğun hadisədir.

Azərbaycan strateji müttəfiqi olan Türkiyə ilə birgə eyni dil, din və mədəni köklərə malik türkdilli ölkələr arasında əməkdaşlığın genişləndirilməsi, onların təmsil olunduqları əsas qurumların beynəlxalq müstəvidə real güc amilinə çevrilməsi təşəbbüsləri ilə çıxış edir. Dünya iqtisadi-təsərrüfat sistemində xüsusi çəkiyə malik türkdilli ölkələrin əməkdaşlıq üçün bu potensialdan səmərəli bəhrələnmələri, bir sıra mühüm sahələrdə, o cümlədən nəqliyyat-logistika sektoru üzrə əməkdaşlığı qlobal çağırışlara əsaslanır.

İkinci Qarabağ müharibəsindən sonra yeni mənzərənin formalaşdığı Cənubi Qafqaz regionu ilə Mərkəzi Asiya arasında tarixən mövcud olmuş nəqliyyat-kommunikasiya imkanlarının genişləndirilməsi strateji məsələ kimi meydana çıxıb. Bu kontekstdə Azərbaycanın Mərkəzi Asiyanın türkdilli respublikaları, xüsusilə Qırğızıstan, Özbəkistan, Qazaxıstanla münasibətlərinin strateji müstəvidə inkişafı xüsusilə qeyd oluna bilər. Azərbaycan Qərblə Şərq arasında körpü rolunu oynayan ölkə kimi Orta dəhlizin fəaliyyətinin gücləndirilməsini, yükdaşımalar üçün daha əlverişli şəraitin yaradılmasını təşviq edir.

Ümumiyyətlə, son 20 ildə avtomobil yollarının, dəmir yolu xətlərinin, xüsusilə Gürcüstan, Rusiya, İran istiqamətində ölkə ərazisindən keçən magistral yolların beynəlxalq standartlar əsasında yenidən qurulması, Bakıda, regionlarda beynəlxalq hava limanlarının, Bakı-Tbilisi-Qars dəmir yolunun, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynamaqla yanaşı, ölkəmizin tranzit potensialını daha da gücləndirib. 2017-ci ildə istismara verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə birinci mərhələdə 5 milyon ton, sonrakı mərhələdə 17 milyon ton, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur. Bakı Beynəlxalq Ticarət Limanının yükaşırma qabiliyyəti 15 milyon tona bərabərdir və ehtiyacdan asılı olaraq bu həcm 25 milyon tona qədər artırıla bilər. "Şərq-Qərb nəqliyyat dəhlizi" Çinlə Avropa arasındakı ən qısa marşrut olduğundan tranzit və yükdaşıma baxımından səmərəlidir.

Prezident İlham Əliyevin ötən həftə Almaniyada Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirdiyi rəsmi görüşlər, apardığı müzakirələr deməyə əsas verir ki, Azərbaycanın neft-qaz sektoru ilə yanaşı, alternativ və bərpa olunan enerji sahəsindəki zəngin potensialı da dünyanın diqqət mərkəzindədir. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının bu il Bakıda keçirilməsinə ifadə edilən beynəlxalq dəstək də iri neft-qaz hasilatçısı olan Azərbaycanın alternativ enerji mənbələrindən səmərəli istifadə və karbonsuzlaşdırma sahəsində həyata keçirdiyi tədbirlərin dünyada müdafiə edildiyini göstərir.

Ümumiyyətlə, dövlət başçısının seçkilərdəki inamlı qələbəsi Azərbaycanın daha çevik, qətiyyətli xarici siyasət yürütməsinə, milli maraq və mənafelərinin müdafiəsinə, milli təhlükəsizliyini təhdid edən xoşagəlməz geosiyasi meyillərə qətiyyətli cavab verməsinə imkan yaradacaq. Bu qələbə eyni zamanda Ermənistanla yekun sülh sazişinin imzalanması istiqamətində aparılan danışıqların milli maraqlarımıza uyğun şəkildə irəliləməsini təmin edəcək. Dövlət başçısı seçkilərdən sonra bir daha bəyan edib ki, Azərbaycanla Ermənistan arasında beynəlxalq hüquq və qarşılıqlı hörmət, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı əsasında münasibətlərin normallaşmasına hazırdır. Yalnız bu halda Ermənistan məkrli xarici qüvvələrin əlində vasitə olmaqdan xilas ola və regionda Azərbaycan sayəsində yaranan yeni vəziyyətdən faydalanıb, dinamik inkişaf yoluna çıxa bilər. Ermənistandakı revanşist qüvvələr anlamalıdırlar ki, mövcud vəziyyəti dəyişməyə hər hansı kiçik cəhd və yaxud müharibə ritorikasına qayıdış onun dövlət olaraq mövcudluğunu sual altına ala bilər. İnkişaf parametrləri, iqtisadi imkanlar və hərbi güc baxımından Ermənistanın hansısa mərhələdə Azərbaycanla rəqabətə girməsi qeyri-mümkündür.

Onu da xüsusi vurğulamaq istərdim ki, seçkilər Azərbaycanın hər bir bölgəsində olduğu kimi, Sumqayıt şəhərində də yüksək mütəşəkkilliklə keçib, şəhər sakinləri xalqımıza parlaq zəfərlər bəxş edən alternativsiz siyasi kursu dəstəkləməklə, ölkəmizin uğurlu sabahına sarsılmaz inamlarını bir daha nümayiş etdiriblər. Son seçkilərdən sonra ölkəmizin qədəm qoyduğu yeni mərhələdə mütləq əksəriyyət ürəkdən inanır ki, respublikamızın hər bir şəhəri, rayonu, kəndi daha sürətlə inkişaf edəcək, azad edilmiş ərazilərimiz sürətlə bərpa olunacaq, müstəqil Azərbaycan inkişaf etmiş ölkələr sırasında öz layiqli yerini tutacaqdır.

**Qüdrət KƏRİMOV,**
***"Xəzər" QSC-nin sədri, iqtisad elmləri doktoru***



# Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin təməli möhkəm, perspektivləri genişdir

**Azərbaycan-Türkiyə iqtisadi əlaqələri dedikdə ilk növbədə möhtəşəm enerji layihələri yada düşür. Bu da təbiidir. Çünki Azərbaycan neftinin və qazının dünyaya yolu Türkiyədən keçir. İki qardaş ölkə sıx tərəfdaşlıqla həmçinin bu gün Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verən layihələr gerçəkləşdiriblər.**

Lakin Azərbaycanla Türkiyənin iqtisadi əməkdaşlığı yalnız bu sahə ilə məhdudlaşmır. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri ilə, TANAP-la möhkəm təməli qoyulan və sınaqlardan keçən iqtisadi münasibətlər artıq bir çox sahələri əhatə edir. Sevindirici haldır ki, əməkdaşlıq həm indiyə qədər əlaqələrin mövcud olduğu sahələrdə genişlənir, həm də iqtisadiyyatın digər sektorlarında yeni bağlar yaranır.

Fevralın 19-da Ankarada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla təkbətək və geniş tərkibdə görüşlərində, eləcə də hər iki dövlət başçısının mətbuata bəyanatlarında əsas mövzulardan biri məhz iqtisadi əməkdaşlığın genişləndirilməsi olub.

Hədəf ikitərəfli ticarət dövriyyəsini 15 milyard dollara çatdırmaqdır. Nəzərə alınsa ki, bu göstərici bir il əvvəlkinə nisbətən 16 faizdən çox artıb və 7,5 milyard dollar səviyyəsinə yüksəlib, qarşıdakı hədəfə çatmağın da yolu uzun görünmür. Cari ilin may ayında Ankarada keçiriləcək birgə iqtisadi komissiyanın 11-ci iclasının bu istiqamətdə hazırlanacaq "Yol xəritəsi"nin müəyyənləşdirilməsinə fayda verəcəyi şübhəsizdir. Eləcə də fevralın 19-da imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş" hədəflərə çatmağa öz töhfəsini verəcək.

Yeri gəlmişkən qeyd edək ki, həmin gün imzalanan sənədlərdən biri də "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş"dir ki, bu da bir daha əlaqələrin şaxələndiyini göstərir.

Görüşlərdə və bəyanatlarda enerji layihələri barədə fikirlər qırmızı xətlə keçib. Xüsusilə TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) haqqında söhbət gedib. Bu, iki qardaş ölkənin birgə layihəsi, "Cənub qaz dəhlizi"nin onurğa sütunudur. Məhz bu kəmər Azərbaycan qazını Türkiyəyə çatdırmaqla yanaşı, həm də mavi yanacağı "Cənub qaz dəhlizi"nin Avropa qolu olan TAP-a (Trans-Adriatik Qaz Boru Kəməri) ötürür. Keçən il Azərbaycandan Türkiyəyə 9 milyard kubmetr təbii qaz ixrac edilib. Bunun əsas hissəsi TANAP-la nəql olunub. Prezident İlham Əliyev qeyd edib ki, əldə olunmuş razılaşmalar əsasında qazın həcminin artırılması nəzərdə tutulur, o cümlədən Türkiyə ərazisindən Avropaya gedən təbii qaz qitənin bir çox ölkələri üçün önəmli enerji təhlükəsizliyi məsələsidir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da TANAP-ın imkanlarının artırılmasının, Xəzərin təbii qazının Türkiyəyə və Avropaya çatdırılmasının bu istiqamətdəki prioritetlər arasında olduğunu deyib.

Nəqliyyatla bağlı da görüləsi işlər var. Bakı-Tbilisi-Qars dəmir yolu yüklərin həcmini 1 milyon tondan 5 milyon tona çatdırmaq üçün bu ilin ortalarında tam istismara verilməlidir. Ərdoğan 2017-ci ildə açılan bu dəmir yolu xəttini Orta dəhlizin strateji mərhələsi adlandırıb: "Bu xətdəki işlərin ən qısa zamanda başa çatdırılması və xəttin tamamilə işlək vəziyyətə gətirilməsi ortaq mənfəətimizə xidmət edir. Çünki təmirlə əlaqədar yaşanan plansız bağlanma səbəbindən yükdaşıyıcıları çətin vəziyyətdə qalıb. Bundan başqa, uzun müddət bağlı qalan xətt beynəlxalq səviyyədə cazibəsini itirir. Quru yolu ilə tranzit daşımalarını ən qısa zamanda sərbəst vəziyyətə gətirməyimiz də əhəmiyyətlidir. Bu məsələdə dəstəyinizə güvənirəm".

Səfər çərçivəsində keçirilən tədbirlərdə eləcə də Qars-Naxçıvan dəmir yolunun tikilməsinin mühüm əhəmiyyəti vurğulanıb.

Önəm daşıyan məsələlər sırasında Azərbaycanın Naxçıvan ərazisindən elektrik ixracı və İğdır-Naxçıvan təbii qaz boru kəməri layihələrinin ən qısa zamanda başa çatdırılması da dayanır. Xatırladaq ki, Azərbaycan və Türkiyə arasında İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisinə dair anlaşma memorandumu 2020-ci il dekabrın 15-də Ankarada imzalanıb. Azərbaycan Prezidenti İlham Əliyevin 10 fevral 2022-ci il tarixli sərəncamına əsasən isə İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisi üçün dövlət büdcəsindən vəsait ayrılıb. Layihə keçən il iyunun 5-də qəbul edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın prioritet layihələri sırasında yer alıb.

Qeyd edək ki, boru kəmərinin İğdırdan Sədərək rayonuna qədər uzunluğu 97,5 kilometr təşkil edir. Kəmərin Azərbaycan hissəsinin uzunluğu 17,5, Türkiyə hissəsinin uzunluğu isə 80 kilometrdir. Eyni zamanda layihə çərçivəsində Dilucu məntəqəsində qazpaylayıcı stansiya tikiləcək. Bu stansiya 20 min kvadratmetr sahəni əhatə edəcək və boru kəməri ilə qaz axını balansını təmin edəcək. Beləliklə, təbii qaz Naxçıvana ən təhlükəsiz şəkildə daxil olacaq. Boru kəməri ilə gündə 2 milyon kubmetr, ildə isə 730 milyon kubmetr qaz ötürmək mümkün olacaq ki, bu da Naxçıvanın mavi yanacağa tələbatını tam ödəməyə imkan yaradacaq. Gələcəkdə isə boru kəmərinin ötürücülük qabiliyyətini iki dəfədən çox artırmaq mümkündür.

Məlum olduğu kimi, Prezidentimiz tərəfindən Naxçıvan Muxtar Respublikası da "yaşıl enerji" zonası elan edilib. Bərpaolunan enerji layihələrinin reallaşdırılması yaxın illərdə Naxçıvanı enerji ixracatçısına çevirəcək. Odur ki, Naxçıvanın enerji təhlükəsizliyini möhkəmləndirməyi və onu "yaşıl enerji" zonasına çevirməyi hədəfləyən yeni inkişaf mərhələsi Azərbaycan-Türkiyə enerji əməkdaşlığında yeni səhifədir. 2023-cü il sentyabrın 25-də İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması, həmçinin Azərbaycanda və Türkiyədə bərpaolunan enerji mənbələrindən istehsal olunan elektrik enerjisinin ötürülməsi sahəsində əməkdaşlıq sənədinin imzalanması mərasimində Azərbaycan və Türkiyə Prezidentlərinin iştirakı bir daha göstərdi ki, ölkələrimiz yeni strateji kursun birgə həyata keçirilməsində qərarlıdırlar və onların siyasi iradəsi bu prosesdə də həlledicidir

Azərbaycan Türkiyənin, Türkiyə də Azərbaycanın nailiyyətlərinə daim ürəkdən sevinir. Bu, iqtisadi sahədə də belədir. Təsadüfi deyil ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a evsahibliyi edəcəyindən də böyük məmnunluq duyduğunu bildirib.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Qardaşlığa və müttəfiqliyə söykənən siyasi ənənə

**"Prezident İlham Əliyevin Türkiyəyə səfəri çox mühüm əhəmiyyət kəsb edir. Ənənə halını alan bu səfərlər Azərbaycan-Türkiyə münasibətləri üçün vacibdir".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Onun sözlərinə görə, əsas məqam ondan ibarətdir ki, İlham Əliyevin növbəti müddətə prezident seçildikdən sonra yenə ilk rəsmi səfəri qardaş Türkiyəyə oldu. Necə ki, Vətən müharibəsindəki zəfərimizdən sonra da dövlət başçımızın ilk səfər etdiyi ölkə Türkiyə olmuşdu.

Bunun qardaşlığa və müttəfiqliyə söykənən siyasi ənənəyə çevrildiyini deyən deputat xatırladıb ki, vaxtilə Rəcəb Tayyib Ərdoğan da prezident seçiləndə onun ilk səfəri məhz Azərbaycana olmuşdu: "Türkiyə və Azərbaycan arasında əlaqələr o həddə çatıb ki, münasibətlər "Bir millət, iki dövlət" kimi dəyərləndirilir. Münasibətlərin bu səviyyədə qorunub saxlanmasına tək ümumi maraqlar deyil, dostluq, eyni zamanda iki liderin bir-birinə olan qardaş münasibəti də öz töhfəsini verir. Bunun nəticəsidir ki, Türkiyə ilə Azərbaycan arasında siyasi, iqtisadi, eləcə də hərbi sahədə layihələr icra edilir. Əməkdaşlıq əlaqələri hər bir sahəni əhatə edir".

Deputat onu da qeyd edib ki, Azərbaycan və Türkiyənin birgə səyləri nəticəsində bütün türk dövlətləri arasında həmrəylik güclənib, Türk Dövlətləri Təşkilatının fəaliyyəti yeni mərhələyə yüksəlib. Azərbaycanla Türkiyənin Türk Dövlətləri Təşkilatında birgə iştirakı bu qurumun güclənməsinə böyük töhfələr verib".

Arzu Nağıyev Türkiyə-Azərbaycan münasibətlərindən danışarkən Şuşa Bəyannaməsinə mütləq şəkildə diqqət çəkməyin vacibliyini bildirib. Deputat söyləyib ki, bu bəyannamənin imzalanması ölkələrimiz arasında münasibətləri müttəfiqlik səviyyəsinə çatdırıb. Bu sənəd ölkələrarası əlaqələrimizin möhkəmlənməsində, Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin qorunub saxlanmasında mühüm rol oynayır. Tarixboyu hər zaman bir-birinə qarşılıqlı dəstək nümayiş etdirən iki dövlətin bu tarixi sənədə imza atması onların ictimaiyyətlərini də ürəkdən sevindirdi.

Deputat həmçinin vurğulayıb ki, Azərbaycanla Türkiyə arasında siyasi, iqtisadi, mənəvi və hərbi əlaqələrimiz durmadan inkişaf edir və bundan sonra da inkişaf edəcək: "Müdafiə sənayesi sahəsində əməkdaşlığımız, silahlı qüvvələrimizin birgə təlimləri bunu bir daha təsdiq edir. Biz bir daha bütün dünyaya göstərdik ki, Azərbaycan və Türkiyə, doğrudan da, "bir millət, iki dövlət" olmaqla yanaşı, xarici və daxili siyasətdə də bir-birlərinə dəstək olan ölkələrdir".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Yeni güc birliyi - türk dünyası

## Bu birlikdə Azərbaycanın rolu və yeri müstəsnadır

**İndi dünya qaynar dövrünü yaşayır. Qütbləşmə və qarşıdurma gündən-günə dərinləşir. Əvvəllər siyasi və iqtisadi sahələrdə, diplomatik masalarda baş verən gərginliklər indi açıq müstəviyə keçib. Artıq heç nə gizli deyil, açıq-aşkar müharibə gedir.**

Bu gün Rusiya-Ukrayna müharibəsinin iki ölkə arasında getmədiyini hamı görür. ABŞ, Kanada və Avropa ölkələri birbaşa Ukraynanı müdafiə edir. Rusiya da tək deyil. Onun tərəfində Çin dolayısı, Belarus, Şimali Koreya və İran isə açıq şəkildə iştirak edir. Ukraynaya dron zərbələrinin İran PUA-larının endirməsini bilməyən yoxdur, atılan mərmilərin xeyli hissəsi isə Şimali Koreyadan alınır. Belarusun Şimal qonşumuza ərazisində nüvə silahının yerləşdirilməsi də sıradan fakt deyil.

İlk baxışdan HƏMAS-İsrail qarşıdurması tərəflər arasında dini müharibə kimi qəbul edilsə də, bu, belə deyil. Tərəflər arasında baş verən savaş üçüncü dünya müharibəsinin "anons"udur. Bu müharibənin başlanması isə ABŞ-nin istəyinə bağlıdır. Belə ki, son bir-iki ildə ərəb dövlətləri müstəqil hərəkət edib Rusiya və Çinlə yaxınlaşma yolunu tutmuşdur. Yəni Yaxın Şərq bölgəsi tədricən ABŞ-nin nəzarətindən çıxırdı. HƏMAS-İsrail müharibəsi onlara yerini göstərmək üçün bir təzyiq mexanizmidir. İkinci tərəfdən, bu qarşıdurma Çin və Rusiyanın Yaxın Şərqdəki təsirini azaltmağa da yönəlib.

Birləşmiş Qərbin Rusiya və Çinin hərəkət imkanlarını məhdudlaşdırmaq istədikləri yeni bölgə Cənubi Qafqazdır. Bu günə qədər Ermənistanın sülhdən yayınmasının səbəbi də budur. Azərbaycandan fərqli olaraq Ermənistan siyasi iradəyə və müstəqil siyasət aparmağa qadir deyil. Ona görə də zəif bənd kimi seçilib.

Prezident İlham Əliyev Qərb ölkələrinin bu pozucu siyasətinə cavab olaraq fevralın 14-də andiçmə mərasimində demişdir: "Bu günlərdə Ermənistan tərəfindən törədilmiş yeni təxribata dərhal adekvat cavab verildi, düşmən cəzalandırıldı. Bu, bir daha onlara və əsasən onlara ürək-dirək verən, üstümüzə göndərən qüvvələrə siqnal idi ki, bizim qabağımızda heç kim dura bilməz. Ermənistanın nə qədər havadarları olsa da, heç kim bizi dayandıra bilməz".




Dövlətimizin başçısının bu çıxışı Ermənistanı qızışdırıb silahlandıraraq revanşist müharibəyə təhrik edənlərə ciddi mesaj idi. Yəni bizi təhdid edib tutduğumuz doğru yoldan döndərə bilməzsiniz, Azərbaycana qarşı törədilən təxribata çəkinmədən artıqlaması ilə cavab veriləcək və belə cəhdlər cəzasız qalmayacaq. Yəqin ki, Ermənistan bundan dərs çıxaracaq. Onlar elə düşünürdülər ki, biz sərhəddə yerləşdirilən müşahidəçilərdən çəkinib təxribatlarına qarşı sərt cavab verə bilməyəcəyik. Yanıldıqlarını gördülər.

Prezident İlham Əliyev andiçmə mərasimində dünyada baş verən qütbləşmədə Azərbaycanın yerini də bəyan etdi. Onun bu çıxışından bəlli olur ki, ölkəmiz bir-biri ilə savaşan iki qüvvə arasında seçim etmək məcburiyyətində deyil. Bizə qarşı ayırıcı xətlər çəkənlərin təmsil etdiyi regional qurumların qapısında boyun əyib durmaq fikrindən uzağıq. Əvəzində dövlət başçısı Azərbaycanın təmsil olunacaq təşkilatın adını bütün dünyaya bəyan etdi: "Bizim ailəmiz türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".

Təsadüfi deyil ki, Prezident İlham Əliyev türk dünyası ilə bağlı bəyanatına dünya mətbuatında geniş yer verilir, analitik mərkəzlər bu barədə fikirlərini KİV vasitəsilə geniş ictimaiyyətə çatdırırlar. Xüsusilə Türkiyədə siyasətçilər və təhlilçilər tərəfindən dövlətimizin başçısının türk dünyasının birləşməsi və təşkilatlanması yolunda göstərdiyi səylər yüksək qiymətləndirilir. Sözsüz ki, Orta Asiyadakı türk dövlətləri də Prezident İlham Əliyevin bu cəsarətli çıxışını təqdir edir.

Ancaq burada diqqət yetiriləsi önəmli olan bir məsələ var. Qərb bu ittifaqın baş tutmaması üçün bütün təxribatlara əl atacaq. Çünki qarşımızda Rusiyanın slavyan birliyini yaratmaq barədə təşəbbüsünün qarşısının alınmasının şahidiyik. Belarus və Serbiya xaric bütün slavyan ölkələri, yumşaq desək, Rusiyaya qarşıdır. Elə Ukrayna-Rusiya müharibəsi bu birliyin qarşısını almaq üçün ən böyük maneədir.

Prezident İlham Əliyev bu sahədə bizə qarşı törədilə biləcək təxribatlar barədə xəbərdarlıq edərək demişdir: "Biz, - İkinci Qarabağ müharibəsi zamanı və antiterror əməliyyatı zamanı mən bunu artıq demişdim, - sarsılmaz hesab olunan elə bir daşları tərpətdik ki, bunu bizə bağışlamayacaqlar, biz bunu bilməliyik. Əgər kimsə hesab edir ki, bizdən əl çəkəcəklər, səhv edir. Biz hazır olmalıyıq, səfərbər olmalıyıq, əlbəttə ki, cəmiyyət rahat yaşamalıdır".

Azərbaycanın müasir dünyadakı yeri barədə Prezident İlham Əliyevin verdiyi bəyanat dünyada geniş şəkildə müzakirə olunur. Dövlət başçısı yerimizin türk dünyası olduğunu bildirməsi xüsusilə Qərbdə böyük marağa səbəb olub. Belə ki, Qərb dünyasının ticarət marşrutunun şah damarları olan Orta dəhliz və "Şimal-Cənub" nəqliyyat marşrutunun üzərində yerləşən Azərbaycanın onların yanında, daha doğrusu, nəzarətində olmasını istəyir. Ermənistan üzərindən ölkəmizə qarşı aparılan təzyiqin bir səbəbi də budur. Ancaq Prezident İlham Əliyevin bəyanatı onların planlarını puç etdi.

Prezident İlham Əliyevin fevralın 19-da Türkiyəyə rəsmi səfəri zamanı mətbuata verdiyi bəyanatında bir daha türk dünyasının birliyinin əhəmiyyətini vurğuladı. Dövlət başçısı yolumuzun hansı yana olduğunu Türkiyədən bir daha bütün dünyaya bəyan etdi: "Bu gün Müttəfiqlik Bəyannaməsini əsas götürərək biz bütün məsələlərdə bir yerdəyik, bir nöqtəyə vururuq. Biz öz gücümüzə güc qatırıq və təbii ki, türk dünyasının birləşməsi, ortaq köklərə sahib olan xalqların bir arada olması Türk Dövlətləri Təşkilatının hər bir üzvünü gücləndirəcək. Bu gün bu məsələ ilə də bağlı geniş müzakirə aparılmışdır. Türk Dövlətləri Təşkilatının Şuşada keçiriləcək qeyri-rəsmi Zirvə görüşü hörmətli Prezidentin qeyd etdiyi kimi, bu ilin iyul ayında keçiriləcəkdir. Eyni zamanda müşahidəçi statusunda olan Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti də mənim dəvətimlə bu görüşdə iştirak edəcək və bu, bizim ümumi işimizə, türk xalqlarının birliyi işinə növbəti güclü təkan verəcək".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*



# Şərəfli missiya

Fevralın 7-də keçirilən prezident seçkiləri cənab İlham Əliyevə olan ümummilli etimad və ehtiramın növbəti təntənəsi kimi tarixə düşdü. Azərbaycan xalqı bir daha Heydər Əliyev ideyalarına söykənərək Azərbaycanın sürətli yüksəlişinin, indiyədək qazandığımız nailiyyətlərin, tarixi zəfərlərimizin Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni mərhələdə də davamına səs verdi.

Növbədənkənar seçkilərdə xalqın seçimini müəyyən edən olduqca mühüm fundamental əsaslar vardı. Prezident İlham Əliyevin ötən 20 ildə ölkəmizə rəhbərliyi dövründə formalaşmış bu əsasların hər biri zəncirvari şəkildə bir-birini tamamlayaraq Azərbaycanı öz tarixinin ən qüdrətli dövlətinə çevrilməsini şərtləndirib. Təsadüfi deyil ki, qlobal miqyasda Azərbaycan deyəndə Cənubi Qafqazda lider, dünyada söz sahibi kimi çıxış edən, beynəlxalq enerji təhlükəsizliyi məsələlərində aparıcı rol oynayan, kosmik klubun üzvü olan, özünün qətiyyətli mövqeyi ilə tanınan və müstəqil siyasət yürüdən dövlət göz önünə gəlir. Bu uğurları təmin edən Prezident İlham Əliyev hər bir azərbaycanlının qürur mənbəyidir.

Prezident İlham Əliyevin Azərbaycan dövləti qarşısında ən böyük tarixi xidməti, əlbəttə ki, torpaqlarımızın işğaldan azad edilməsi, ərazilərimizdə iki əsrə yaxın davam edən erməni separatizminə birdəfəlik son qoyulmasıdır. Cənab İlham Əliyevin qətiyyətli və müdrik siyasəti ilə qazandığımız tarixi uğurlar xalqımızın yalnız müasir müstəqillik dövrünün deyil, bütün dövlətçilik tariximizin ən möhtəşəm hadisələridir. Torpaqlarımızı işğaldan azad etməklə, ərazilərimiz üzərində milli suverenliyimizi təmin etməklə İlham Əliyev xalqımızın yeganə ağrılı probleminə birdəfəlik son qoydu.

Bütün bu tarixi nailiyyətlər həm də təsdiq edir ki, xalqımız Heydər Əliyev ideyalarına söykənməklə, seçkilərdə cənab İlham Əliyevin ətrafında səfərbər olmaqla nə qədər müdrik və düzgün yol tutub. 7 fevral seçkilərində İlham Əliyevə göstərilən ümummilli etimad isə həm də xalqımızın öz müzəffər sərkərdəsinə olan minnətdarlığının ifadəsinə çevrildi.

Fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimində Prezident İlham Əliyevin çıxışını qürurla izlədim. Bu tarixi çıxış möhtərəm Prezidentin ötən 20 illə bağlı uğur hesabatı idi. Dövlətimizin başçısının "Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik!" sözləri hər birimizi bir daha qürurlandırdı, qalib dövlətin qalib vətəndaşları olmağımızla fəxr etdik. Eyni zamanda dövlət başçısı qarşıda dayanan vəzifələri, milli prioritetləri elan etdi. Prezident İlham Əliyevin andiçmə mərasimindəki çıxışı respublikamızın gələcəyinə olan konseptual baxış idi. Əminik ki, bu dövrdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz milli hədəflərinə layiqincə çatacaq və Azərbaycan yeni möhtəşəm uğurlara nail olacaq. Bu yolda hər birimiz öz fəaliyyət sferamızda fəal olmağı, əməllərimizlə ölkədə həyata keçirilən siyasi kursa layiqli töhfələr verməliyik. Hesab edirəm ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyəti hər birimiz üçün mühüm nümunədir.

Bu gün Mehriban Əliyevanın Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin olunmasının 7 ili tamam olur. Yaxşı xatırlayırıq ki, o zaman bu təyinat cəmiyyətimizdə xüsusi razılıqla qarşılanmışdı. Bu təyinatla bağlı söylənilən bütün fikirləri birləşdirən ümumi ortaq məxrəc həm də ondan ibarət idi ki, hər kəs Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsini layiqincə icra edəcəyinə əmin idi. Bu da ondan irəli gəlirdi ki, xalq Birinci vitse-prezident vəzifəsinə təyin olunana qədər Mehriban Əliyevanın çalışdığı bütün vəzifələrdə dövlət və millətə layiqli xidmət məramını görmüşdü. Buna qədər Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, Azərbaycan Mədəniyyət Fondunun və Azərbaycan Gimnastika Federasiyasının rəhbəri kimi respublikamızın uğurlarına layiqli töhfələr vermişdi. Bütün bunlar həm də onu göstərir ki, Mehriban Əliyeva Birinci vitse-prezident təyin olunana qədər olduqca əhatəli ictimai-siyasi fəaliyyətlə məşğul olub.

Birinci vitse-prezidentlik institutunun Azərbaycanda dövlət idarəetməsindəki fəaliyyəti praktiki olaraq Mehriban Əliyevanın bu vəzifəyə təyinatı ilə başlayır. Mehriban Əliyeva ilk günlərdən Birinci vitse-prezident vəzifəsinin idarəetmədəki yerini və rolunu layiqincə doğruldub. Eyni zamanda təyin olunduğu vaxtdan xalqımız Mehriban Əliyevanın həm də Birinci vitse-prezident kimi işgüzarlığının şahidinə çevrilib. İlk günlərdən Mehriban Əliyevanın məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması, Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi ilə bağlı müşavirələr keçirməsi ondan xəbər verirdi ki, Birinci vitse-prezident kimi də o, öz diqqətini sosial sahələrə, vətəndaş qayğılarının həllinə yönəldəcək. Ötən 7 ilin mənzərəsi göstərir ki, Birinci vitse-prezident Mehriban Əliyeva hər zaman vətəndaşların yanında olub, ehtiyacı olanlardan öz dəstəyini əsirgəməyib. Xüsusən pandemiya zamanı və Vətən müharibəsi günlərində Azərbaycan ictimaiyyəti Mehriban Əliyevanın fəal vətəndaşlıq mövqeyinə şahidlik edib. Məhz Mehriban Əliyevanın təşəbbüsləri ilə pandemiya günlərində ölkəmizə xaricdən xüsusi tibbi ləvazimatların, avadanlıqların, laboratoriyaların alınıb gətirilməsi təmin edilib, habelə xarici ölkələrdən həkimlər dəvət olunublar. Pandemiya günlərində Mehriban Əliyeva evdən çıxa bilməyən yaşlı, tənha və qayğıya ehtiyacı olan insanları xüsusi diqqət mərkəzində saxlayıb, Heydər Əliyev Fondu tərəfindən belə vətəndaşlarımızın evlərinə mütəmadi olaraq ərzaq sovqatı göndərilib.

Vətən müharibəsi zamanı isə Mehriban Əliyeva öz fəaliyyəti ilə cəmiyyətimizdə qələbə ovqatının daha yüksək olmasına böyük töhfələr verdi. 44 günlük savaş zamanı rəsmi sosial şəbəkə ünvanından paylaşdığı qələbə statusları, etdiyi müraciətlər hər zaman şəhid analarının yanında olması Mehriban Əliyevanın ən yüksək vətənpərvərlik hisslərinə malik olduğunu göstərdi. Vətən müharibəsində yaralanmış qəhrəman hərbçilərimizin Heydər Əliyev Fondu tərəfindən müalicə üçün Türkiyəyə göndərilməsi ilə bir daha Mehriban Əliyeva vətənə xidmətin mükəmməl nümunəsini yaratdı.

Bu gün isə Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərində Mehriban Əliyevanın nümayiş etdirdiyi quruculuq əzmi olduqca qürurvericidir. Elə buna görə də Mehriban Əliyeva Prezident İlham Əliyevin ən böyük silahdaşı kimi xalqın böyük ehtiramını qazanıb. Onun çoxşaxəli fəaliyyəti, dövlət və xalqa nümunəvi xidməti, daim insanların arasında olması xalqımız tərəfindən hər zaman yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, bu qiymət yaradıcılıq nümunələrində də öz əksini tapır. Yüz minlərlə insanın bu böyük şəxsiyyətə rəğbətini, ehtiramını mən "Mehriban insan" əsərini bəstələməklə, "Ulu Öndər Fondu", "Mehriban Azərbaycan" musiqi layihələrini ərsəyə gətirməklə ifadə etmişəm.

Ümumiyyətlə, ötən 7 il Azərbaycanın tarixində sürətli yüksəliş və möhtəşəm uğurlar dövrü kimi əlamətdardır. Əlbəttə ki, hər bir uğurumuzda Birinci vitse-prezident Mehriban Əliyevanın xidmətləri, gördüyü işlər ölçüyəgəlməzdir. Bu şərəfli missiyada Mehriban xanım Əliyevaya yeni müvəffəqiyyətlər arzu edirəm.

***Novruzəli ASLANOV,***
***Milli Məclisin deputatı,***
***Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti***

# Böyük qayıdışa zərif töhfə

## 7 il öncə Mehriban xanım Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olundu

"...Əminliklə bildirmək istəyirəm ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün Qarabağ bölgəsini Azərbaycanın ən gözəl bölgələrindən birinə çevirəcəyik. Burada yenidən həyat canlanacaq, bütün rayonlarımız bərpa olunacaq, vətəndaşlarımız öz doğma yurd-yuvalarında yaşayıb-yaradacaqlar".

2020-ci il dekabrın 8-də, Zəfərlə bitən Vətən müharibəsinin üzərindən cəmi bir ay keçdikdən sonra Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva rəsmi instaqram səhifəsindəki paylaşımında bu fikirləri bildirmiş, eyni zamanda qürur hissi ilə xalqımıza Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığı müjdəsini vermişdi: "Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçələcək və bütün Qarabağ ərazisindəki məscidlərimizdə azan səsləri eşidiləcək, dualar oxunacaqdır..."

Budur, artıq sürətlə yeni həyata qayıdan Qarabağ və Şərqi Zəngəzurun məscidlərindən də müqəddəs azan sədası yüksələrək bütün Azərbaycana yayılır, xalqımızın ruhuna mənəvi dinclik bəxş edir.



### Mühüm dəstək

Azərbaycan xalqı ilk dəfə işğaldan azad olan yurdlarımızın düşmən tərəfindən necə viranə qoyulmasını o yerlərə Qalib Lider İlham Əliyevlə birgə səfər edən Mehriban xanımın ürək ağrısı ilə çəkib paylaşdığı videogörüntülərdən izləmişdi. Erməni təcavüzkarlarının işğal müddətində yaşayış məntəqələrimizi necə çapıb-talamasını, dini, tarixi, mədəni abidələrimizi dağıtmasını, ekologiyamıza qənim kəsilməsini dəhşətlə seyr etmişdi.

Eyni zamanda Prezident İlham Əliyevin 2020-ci il noyabrın 24-də birinci xanımla birgə Ağdam Cümə məscidinə ziyarətə getməsi, Məkkədən gətirdiyi "Qurani-Kərim"i dini ocağımıza hədiyyə etməsi xalqımızın ürəyinə sərin su çiləmiş, keçmiş məcburi köçkünlərə tezliklə tarixi yurdlarımızın dirçəldiləcəyinin, ruhunun özünə qaytarılacağının rəmzi mesajını çatdırmışdı.

Prezident İlham Əliyevin şəxsi diqqəti və nəzarəti ilə cəmi üç il ərzində Qarabağ və Şərqi Zəngəzurda dünyada bərabərinə rast gəlinməyən bərpa və quruculuq işləri aparılır, "ağıllı şəhər və kəndlər" tikilir. Qayıdış proqramının uğurlu icrasının nəticəsidir ki, artıq Zəngilanın Ağalı, Tərtərin Talış, Laçının Zabux kəndlərinin, eləcə də Laçın və Füzuli şəhərlərinin timsalında tarixi yurdlarımıza Böyük qayıdış da həyata keçirilib.

Azərbaycan dövlətinin işğaldan azad edilən torpaqlarda apardığı nəhəng quruculuq və bərpa işlərinə Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu mühüm dəstək verir.

Fəaliyyətə başladığı ilk gündən ölkəmizdə müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirən fond Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi, keçmiş məcburi köçkünlərin dədə-baba torpaqlarına tez zamanda qayıdışı üçün görülən işlərə dəstək verir, tarixi, dini və mədəni irsimizin bərpası istiqamətində mühüm fəaliyyət göstərir.

### Vətən borcu

Heydər Əliyev Fondunun işğaldan azad edilən ərazilərdəki layihələri Ağdam Cümə məscidi, Zəngilan şəhər məscidi, Şuşada Aşağı Gövhər ağa məscidi, Yuxarı Gövhər ağa məscidi, Saatlı məscidi, Mamayı məscidi və bulağı, Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Mehmandarovların malikanə kompleksi, Şuşada Yaradıcılıq Mərkəzi, Üzeyir Hacıbəylinin ev-muzeyi və digər tarixi-mədəni abidələrin bərpa və yenidənqurulmasını, Şuşada yeni məscidin inşasını əhatə edir.

Artıq 2023-cü ilin may ayında bərpası başa çatmış Yuxarı Gövhər ağa, Saatlı məscidləri istifadəyə verilib. Hazırda Heydər Əliyev Fondu tərəfindən Şuşada Mamayı və Çöl Qala məscidlərində bərpa işləri, o cümlədən Yeni Şuşa məscidinin tikintisi davam edir. Həmçinin Şuşada Heydər Əliyev Fondu tərəfindən ən geniş bərpa işlərindən biri dağıntıların miqyasına uyğun olaraq Aşağı Gövhər ağa məscidində aparılır.

Ermənistanın torpaqlarımızı işğal altında saxladığı illərdə Zəngilan şəhərindəki məsciddən tövlə kimi istifadə olunub. İşğal altındakı ərazilərimiz azad edildikdən sonra Heydər Əliyev Fondu Zəngilan məscidində də bərpa-tikinti işlərinə başlayıb. Fond tərəfindən təşkil olunan yerli və xarici ekspertlərdən ibarət işçi qrup məscidin mövcud binasını qiymətləndirib, onun konservasiyası və bərpasına, o cümlədən bu ərazidə yeni məscidin tikilməsinə qərar verilib. 2021-ci ildə Prezident İlham Əliyev tərəfindən təməli qoyulan yeni məscidin inşası "Paşa Holding" MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir.

Ermənilərin daşı daş üstündə qoymadığı Ağdamın mənəvi rəmzi Ağdam Cümə məscidi də fond tərəfindən bərpa olunur.

2022-ci il fevralın 13-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işlərinin gedişi ilə tanış olduğu zaman etdiyi çıxışında dövlət başçısı İlham Əliyev fondun işğaldan azad edilən torpaqlarımızda gerçəkləşdirdiyi mühüm işlərlə bağlı bu fikirləri dilə gətirmişdi: "Bütün bu işləri Heydər Əliyev Fondu öz imkanları hesabına görür. Bu, Heydər Əliyev Fondunun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti töhfəsidir. Bu, bizim borcumuzdur. Bunu biz edirik. Vətən qarşısında bu borcu şərəflə yerinə yetiririk".

### Nəcib missiya

Heydər Əliyev Fondunun Qarabağdakı bərpa layihələrinin bir hissəsi Azərbaycanın mədəniyyət paytaxtı, Zəfər qalamız Şuşa şəhərində həyata keçirilir. Bunların sırasına dahi Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin büstünün yenidən qurulması, görkəmli bəstəkar Üzeyir bəy Hacıbəylinin heykəlinin Şuşada yenidən ucaldılması, bərpa işlərindən sonra Şuşada Yaradıcılıq Mərkəzinin, Mehmandarovların malikanə kompleksinin açılışının edilməsi və sair daxildir. Şuşada bərpa edilərək təqdim edilən möhtəşəm layihələrdən biri də "Yasəmən" hotelidir.

Mədəniyyət paytaxtında fond tərəfindən bərpası həyata keçirilən binalardan biri də milli memarlıq ənənələrini özündə əks etdirən Şirin su hamamıdır. Məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın vaxtilə Şuşada yaşadığı ev də yenidən qurulur.

Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığına əsasən, Heydər Əliyev Fondu Qarabağın mədəni ənənələrinə də yenidən həyat verir. İllər sonra, 2021-ci il mayın 12-13-də Şuşada, Cıdır düzündə fond tərəfindən təşkil olunan "Xarıbülbül" Musiqi Festivalı, həmin il avqustun 30-da illərdən sonra yenidən Şuşada təşkil olunan Vaqif Poeziya Günlərinin keçirilməsi və sair mühüm tədbirlər bunun təcəssümüdür.

Eyni zamanda fondun təşəbbüsü ilə Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrinin əsərlərinin notlarından ibarət "Əbədi imzalar" toplusunun, "Qarabağın mədəni irsi" adlı nəşrlər toplusunun hazırlanması Azərbaycan xalqının mənəvi, mədəni irsinin dünyada tanıdılmasına, həmçinin qorunaraq gələcək nəsillərə ötürülməsinə ərməğandır.

Nümunə gətirdiyimiz bu faktlardan da göründüyü kimi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu 2020-ci il dekabrın 8-dən etibarən Qarabağ və Şərqi Zəngəzurda mədəni-dini abidələrin, məscidlərin bərpası layihələrinin icrasını müvəffəqiyyətlə həyata keçirir. Xalqımıza məxsus maddi-mədəni irsin bərpası fonunda tarixi bərpa etmək kimi nəcib missiyanı yerinə yetirir. Prezident İlham Əliyevin təbirincə desək, Heydər Əliyev Fonduna xas olan zövqlə, Mehriban xanımın rəhbərliyi ilə...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



# Uşaqların böyük himayədarı

Uşaqlar hər bir dövlətin, cəmiyyətin gələcəyidir. Ölkəmiz həmişə uşaqlara xoş münasibət, diqqət və qayğı göstərməyin örnəyini yaradıb. Yeni nəslin düzgün, fiziki və əqli cəhətdən sağlam yetişdirilməsi, keyfiyyətli təhsil və tibbi xidmətlərlə təmin edilməsi, layiqli vətəndaş kimi formalaşması Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Bu siyasətin uğurla reallaşdırılmasına Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu hərtərəfli dəstək verir.

Azərbaycanda uşaqlara qayğının dövlət siyasətinin əsas istiqaməti kimi müəyyənləşdirilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Öz fəaliyyətində Ulu Öndərin ideyalarını rəhbər tutan Heydər Əliyev Fondunun həyata keçirdiyi proqram və layihələrin bir istiqaməti də uşaqlarla bağlıdır. Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsləri ilə bu sahədə həyata keçirilən proqram və layihələr çoxşaxəli olmaqla yanaşı, həm də davamlıdır. Birinci xanımın bu missiyası onu uşaqların ən yaxın dostuna və himayədarına çevirib.

Heydər Əliyev Fondu tərəfindən mütəmadi olaraq xüsusi qayğıya ehtiyacı olan uşaqlara diqqət göstərilir, onların sağlamlığının bərpası üçün tədbirlər görülür, problemlərinin həlli istiqamətində mühüm layihələr həyata keçirilir. Belə ki, Heydər Əliyev Fondu tərəfindən daun, autizm, talassemiya, epidermoliz, əqli və fiziki qüsurlu, xərçəng, şəkər kimi xəstəlikləri olan uşaqlar üçün xüsusi müalicə və reabilitasiya mərkəzləri inşa edilib, onlar lazım olan bütün tibbi avadanlıqlarla təmin edilib.

Ötən dövrdə Heydər Əliyev Fondu "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", ürək qüsurlu uşaqların əməliyyatına dəstək, "Koxlear implantasiya" kimi layihələr həyata keçirib. Artıq 20 ildir həyata keçirilən "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi çərçivəsində şəkərli diabetdən əziyyət çəkən uşaq və yeniyetmələr müntəzəm olaraq insulin preparatları və şpris-qələmlərlə təmin edilirlər.

"Koxlear implantasiya" proqramı çərçivəsində bir qrup eşitmə qüsuru olan şəxslərin əməliyyatı həyata keçirilib. Anadangəlmə və qazanılmış eşitmə qüsuru olan bu şəxslər əksəriyyəti uşaqlar olmaqla müxtəlif yaş kateqoriyalarındadır. Habelə bu və digər xəstəliklərin aradan qaldırılmasına kömək edən neçə-neçə yeni tibb müəssisəsi, o cümlədən Daun, Talassemiya, Psixonevroloji Uşaq mərkəzləri və bu qəbildən olan əhəmiyyətli sosial obyektlər istifadəyə verilib. Bu layihələr xalqımızın genefondunun qorunması kimi mühüm və son dərəcə ali məqsədə xidmət edir.

Paytaxtda və ölkənin digər regionlarında mütəmadi keçirilən qanvermə aksiyaları, ürək çatışmazlığından, dodaq və damaq bitişməzliyi patologiyasından əziyyət çəkən uşaqların əməliyyat olunması, aztəminatlı ailələrin üzvlərinin müayinələri, lazım gəldikdə insanların xarici ölkələrə müalicəyə göndərilməsi Mehriban Əliyevanın xeyirxah əməlləri nəticəsində baş tutur. Fondun prezidenti vaxtaşırı bu mərkəzləri ziyarət edərək uşaqlarla görüşür, sağlamlıqları ilə maraqlanır, cəmiyyətə inteqrasiyaları üçün dəstək olur. Birinci xanım əlamətdar günlərdə, bayramlarda, hətta öz ad günündə belə uşaqların əhatəsində olur, onlarla birlikdə şənlənir, balacaların uğurlarını alqışlayır.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə təhsil istiqamətində də müxtəlif layihələr həyata keçirilir. Bu layihələrin əsas məqsədi təhsil sahəsində dövlət siyasətinə dəstək vermək, ölkə miqyasında müasir standartlara cavab verən komplekslər yaratmaq və tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaqdır. Fond tərəfindən həyata keçirilən "Təhsilə dəstək" layihəsi çərçivəsində hər il keçmiş məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə çanta və məktəb ləvazimatı hədiyyə edilir. Gürcüstanın azərbaycanlılar yaşayan bölgələrindəki məktəblərə, həmçinin Azərbaycanın Qax, Zaqatala və Balakən rayonlarında tədrisin gürcü dilində aparıldığı məktəblərə də mütəmadi olaraq yeni dərslik və tədris ləvazimatları göndərilir. Habelə regionlarımızdakı ali və ümumtəhsil məktəblərinə, uşaq evləri və internat məktəblərinin kitabxanalarına dəstək göstərilir.

Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində yüzlərlə məktəb inşa və təmir edilib. Ötən ilin sentyabrında proqram çərçivəsində inşa edilən sayca 500-cü məktəb istifadəyə verilib. Bu məktəblərin hər biri müasir laboratoriya, kitabxana, yeməkxana, ən son avadanlıqla təchiz edilmiş kompüter otaqları, emalatxana, idman zalları, geniş meydançalar və ayrıca istilik sistemi ilə təchiz edilib.

Cəmiyyətdə qayğı və xeyirxahlığın ali ünvanına çevrilməklə ümumxalq mənafeli layihələri uğurla gerçəkləşdirən Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti nəcib dəyərlərə söykənir. Bunun nəticəsidir ki, BMT-nin Uşaq Fondu tərəfindən Azərbaycanda uşaqların müdafiəsi sahəsindəki fəaliyyətinə görə, Mehriban Əliyevaya UNICEF-in xüsusi mükafatı təqdim olunub. Mehriban Əliyevanın irəli sürdüyü təşəbbüslər əsl mərhəmət və humanistlik nümunəsidir. Bu layihələr ölkəmizdə sosial inkişafın təmin edilməsinə, xüsusi diqqətə ehtiyac duyan şəxslərin qayğı ilə əhatə olunmasına xidmət edir və ictimaiyyət tərəfindən daim böyük rəğbət hissi ilə qarşılanaraq yüksək dəyərləndirilir. Birinci xanım tərəfindən uğurla həyata keçirilən bütün işlərin əsasında Azərbaycanın gələcəyi olan uşaqların sağlam və layiqli vətəndaş kimi böyüməsi durur.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Heydər Əliyev Fondunun təşəbbüsü ilə...

## Tullantıdan yaradılan möcüzə

Üç ilə qədər ömür sürən tırtıldan qısa zamanda elə müxtəlif növ zərif kəpənəklər əmələ gəlir ki, gözəllikləri ilə insanı valeh edir. Bu möhtəşəm çevrilmə təbiətin möcüzəsidir...

Lakin Tanrının yaratdığı ən güclü canlı varlıq olan insan da zəkası sayəsində belə möcüzələr yaratmaq bacarığına sahibdir. Müasir dünyamızda buna aid saysız-hesabsız nümunələr göstərmək olar. Elə baş çəkdiyimiz məkanı simvolizə edən bir çevrilmə də kəpənəyin yaradılışı qədər maraqlı və heyrətamizdir. Amma bu möcüzə insan əməyinin məhsuludur. Söhbət "Tullantıdan Sənətə" muzeyindən gedir...

Bu muzeydə bütün eksponatlar nə qədər təəccübləndirici olsa da, tullantılardan hazırlanıb. Bəli, burada tullantının sənətə çevrilməsi ilə nəticələnən möhtəşəm işin şahidi olduq.













### 180-nə qədər müxtəlif sənət əsəri

Ətraf mühitin qorunması, ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədilə son illər Azərbaycanda bir çox layihə həyata keçirilir. Bu məqsədlə Prezident İlham Əliyev tərəfindən Bakı və Abşeron yarımadasının ekoloji durumunun sağlamlaşdırılmasına xidmət edən tədbirlər planı da təsdiqlənib. Planda tullantıların düzgün idarə edilməsi daxil olmaqla, ətraf mühitin mövcud vəziyyətinin yaxşılaşdırılmasına yönəldilmiş bütün əsas fəaliyyət istiqamətləri öz əksini tapıb. 2008-ci ildə Bakı şəhərində məişət tullantıları ilə bağlı idarəetmənin təkmilləşdirilməsi üçün "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti təsis edilib. Beləliklə, qurum 2009-cu ildən paytaxtda tullantıların yerləşdirilməsi və zərərsizləşdirilməsi sistemini müasir standartlara uyğun quraraq, ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində fəaliyyətə başlayıb. "Təmiz Şəhər" tərəfindən bərk məişət tullantılarının çeşidlənməsi, yandırılması, Böyükşor gölünün ekoloji bərpası kimi bir çox mühüm layihə həyata keçirilir. Möhtəşəm layihələr arasında kiçikdən-böyüyə hər kəsin diqqətini çəkən isə 2015-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisində yaradılan "Tullantıdan Sənətə" muzeyidir.

Bilirik ki, gündəlik məişətdə istifadə olunan plastik qablar, sellofanlar, batareyalar torpaqda həll olmayan təbiət üçün ciddi çirkləndiricilərdir. Bu baxımdan tullantıların düzgün idarə edilməsi bizi həm bu günün, həm də gələcəyin təhlükələrindən qoruyur.

Azərbaycanda 2012-ci ildən keçirilən beynəlxalq "Tullantıdan Sənətə" sərgisi də bu xüsusda böyük maarifləndirici əhəmiyyətə malikdir. Dünyanın müxtəlif ölkələrində, Azərbaycan da daxil olmaqla, sənətkarların hazırladıqları əsərlər sərgidə nümayiş olunduqdan sonra "Tullantıdan Sənətə" muzeyi təşkil olunub.

Muzeydə hazırda tullantıdan istifadə edilərək yaradılan 180-nə qədər müxtəlif sənət əsəri nümayiş olunur. Bu əsərlər sərgilər keçirildikcə yeniləri ilə əvəzlənə bilir. Muzeyə girərkən diqqəti cəlb edən bütün portretlər, fiqurlar, müxtəlif əşyalar plastik su qabları, sellofan, uşaq arabası, oyuncaq, maşın hissələri, siqaret kötükləri, disklər, mismarlardan, bir sözlə, lazımsız hesab edilən saysız-hesabsız tullantılardan düzəldilib. Elə həm yerli, həm də xarici turistlərin diqqətini cəlb edən də eksponatların tullantıdan hazırlanmasıdır.

### "Plastik insanlar", "Dövr", "Həyat"...

Muzeyin hər iki mərtəbəsində sərgilənən əsərdən-əsərə keçdikcə insanı təəccübləndirən sənətkarların müxtəlif əl işləri ilə rastlaşırıq. Hər birinin özünəməxsus adı var. Qeyd edək ki, sərgiyə əsərlərini təqdim edənlər arasında həvəskar yaradıcı insanlar da yer alır.

"Səssizliyin səsi"ni göstərən amerikalı sənətkar lifli pambıq və kartondan heykəl hazırlayıb. Kağızdan hazırlanmış 3D ölçülü əsəri isə Nərmin Abdullayeva Nəsiminin yaradıcılığından bəhrələnərək onun qəzəllərindəki Dilbərə həsr edib və o, "Dilbərim" adlanır. Digər sənətkarımızın "Dövr" adlanan əl işi isə insan və təbiətin vəhdətini nümayiş etdirir. Əsərdə insanın təbiətsiz, təbiətin də insansız mövcud ola bilməyəcəyi göstərilir.

Türkiyəli sənətkar Sebahat Yıldırım isə şüşə qırıqlarını sənət əsərinə çevirib. "Həyat" əsəri şüşə tullantıları ilə "Saf həyat instinkti" şüarı ilə yenidən canlanır. Muzeydə amerikalı Tess Feliks tərəfindən hazırlanan dahi bəstəkarımız Qara Qarayevin portreti də xüsusilə diqqət çəkir.

Plastik tullantıların ətraf mühitimizi çirkləndirdiyi bir dövrdə pakistanlı Xəlil Çistinin yaratdığı "Plastik insanlar" əsərinin də dərin mənası var. Sənətkar polietilen paketlərdən dərdi, əzabı və iztirabı özündə əks etdirən heykəltaraşlıq nümunələri yaradıb.

### Tullantıdan hazırlanan əsərlərin dili ilə...

Müxtəlif ekoloji problemləri özündə əks etdirən, insanlara mesaj verən əsərlərdən çox danışmaq olar. Çünki hər biri təbiəti qorumağı, tullantıların doğru idarə edilməsini, ətraf mühitə dəyən zərərin minimuma endirilməsini, dahi şəxslərin yaradıcılığını ehtiva etməklə sənətin incəliklərini özündə cəmləşdirir.

Hər kəsin marağına səbəb olan muzey hər gün səhər saat 09:00-dan 18:00-a kimi fəaliyyət göstərir. Muzeydə həm rusdilli, həm də ingilisdilli bələdçilər var ki, onlar da muzey ziyarətçilərini əsərlər, muzeyin fəaliyyəti, məqsədi barədə məlumatlandırırlar.

Bizi müşayiət edən bələdçi Nuriyyə Sultanova bildirir ki, muzeyi ziyarət edənlərin sayı yaz və yay aylarında daha çox olur. Bəzən gündə 800-1000 nəfər bu incəsənət məkanına baş çəkir. Eyni zamanda məktəblilərin ekskursiyalarına da tez-tez rast gəlinir. Onun sözlərinə görə, əsərlər həm xarici, həm də yerli turistlərin marağına səbəb olur. Muzeyin şəhər mərkəzindən kənarda - Qala qəsəbəsində yerləşməsinə, yolun uzun olmasına baxmayaraq, böyük marağın qarşısını ala bilmir. Ziyarətçilər yay, qış demədən muzeyə baş çəkirlər.

Bələdçi xanım qeyd edir ki, sərgilərdə indiyədək 45 ölkədən 180-ə yaxın sənətkar iştirak edib. Həmin şəxslər Azərbaycana dəvət olunurlar və onlara ayrılmış xüsusi poliqonda müəyyən vaxt ərzində əl işlərini hazırlayırlar. Yaratdıqları sərgidə bir həftə nümayiş olunduqdan sonra isə onlar "Tullantıdan Sənətə" muzeyinə təhvil verilir.

N.Sultanova deyir ki, əsərlərin hazırlandığı materiallar arasında həm bərk, həm də yumşaq tullantılar olur: "Məsələn, plastik tullantılardan dəniz canlıları hazırlanıb ki, bu da həmin tullantılardan ən çox su heyvanlarının zərər çəkdiyinə diqqəti çəkir".

Qeyd edək ki, pandemiya dövründə kütləvi tədbirlərin keçirilməsinə məhdudiyyətlər qoyulduğundan bir neçə ildir baş tutmayan "Tullantıdan Sənətə" sərgisinin bu il keçiriləcəyi gözlənilir.

### Kəpənək effekti...

Muzeyi gəzdiyimiz zaman diqqəti cəlb edən hissələrdən biri də dahi şairimiz İmadəddin Nəsimiyə həsr olunan guşədir. Bələdçi qeyd edir ki, bu guşə 2019-cu ildə yaradılıb və "Nəsimi ili"nə həsr olunub. Burada Nəsiminin portretləri, onun əsərlərini canlandıran əl işləri sərgilənir.

N.Sultanova Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Təmiz Şəhər" ASC tərəfindən Abşeron ərazisinin tarixi yerlərindən olan Qala qəsəbəsində bərk məişət tullantılarının müasir üsullarla idarə olunması məqsədilə baş tutan pilot layihədən də söz açdı. "Layihə çərçivəsində ekoloji problemlərə əhalinin diqqətini çəkmək üçün maarifləndirmə tədbirləri görülüb. "Tullantıdan Sənətə" sərgiləri də pilot layihə əsasında aparılan maarifləndirmə işlərindən biridir. Bu baxımdan muzey ümumilikdə maarifləndirici xarakter daşıyır", - deyə bələdçi vurğulayır.

Yenidən yaradılışı təcəssüm etdirən kəpənək müxtəlif tullantılardan hazırlanan incə, zərif əl işlərinin yer aldığı bu muzeyin rəmzidir. Sərgilənən hər bir əsər birgünlük həşəratın kövrək qanadlarını xatırladır - toxunsan qırılacaqlar kimi...

Qaldı ki tullantılara - onlara təbiətdə qalaraq tırtıl kimi uzunömürlü zərərverici, yoxsa gözəlliyi ilə arxasıyca aparan kəpənək kimi don geydirmək bizim təbiətə olan sevgimizə əsaslanan seçimimizdir.

Unutmayaq ki, hər kəsin elə evinin içindən başlayaraq tullantıları çeşidləmək kimi təbiəti qorumaq naminə etdiyi ən kiçik işlər belə kəpənək effekti yaradaraq böyük və uğurlu nəticələrə səbəb ola bilər.

***Əsmər QARDAŞXANOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***









# "Qardaş yenə də ilk bizə gəldi"

## *Prezident İlham Əliyevin səfəri Türkiyənin əsas gündəm mövzusu oldu*

Tarixin sınaqlarından daim üzüağ çıxmış Azərbaycan-Türkiyə münasibətləri ötən dövr ərzində daha da möhkəmlənərək iki ölkə arasında strateji bağların yeni səviyyəyə yüksəlməsini təmin edib. Eyni zamanda qlobal əhəmiyyətli layihələrin reallaşması, qarşılıqlı regional münasibətlər sisteminin möhkəm təməllər üzərində davam etdirilməsi üçün Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrinin inkişafı böyük əhəmiyyətə malikdir.

Proseslərin bu səpkidə inkişafını şərtləndirən daha bir vacib məqam isə hər iki ölkənin dövlət başçılarının ortaya qoyduqları siyasi iradə, xalqlarımızı bir-birinə daha da yaxınlaşdırmaq cəhdləridir.

İstər Azərbaycan Prezidenti İlham Əliyevin, istərsə də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qarşılıqlı əlaqələrin inkişafına verdikləri diqqət və önəm münasibətlərimizi daha möhkəm özüllər üzərində qurur.

İlham Əliyevin prezident seçkilərindən sonra ilk rəsmi səfərini Türkiyəyə etməsi davam edən xoş ənənənin, ölkələrimiz arasında strateji əməkdaşlığa və müttəfiqliyə verilən önəmin növbəti göstəricisidir. Bu səfər qardaş ölkənin bir neçə yüz minlik tirajlı qəzetlərinin, xəbər portallarının, onlarca teleşirkətin əsas manşet mövzusuna çevrildi.

"Milliyet" qəzeti "Tarixi fürsət pəncərəsi açıldı" başlıqlı xəbəri manşetdən təqdim edərək İlham Əliyevin prezident seçildikdən sonra ilk rəsmi səfərini Türkiyəyə etməsinə xüsusi yer ayırıb. Bildirilib ki, görüşlərdə prezidentlər arasında ikitərəfli əlaqələrin və işbirliyinin daha da inkişafı üçün atılacaq addımlar, eləcə də regional və beynəlxalq məsələlərlə bağlı müzakirələr aparılıb.

"Akşam" qəzeti "Türkiyə sülhün qarantıdır" başlıqlı xəbərində Prezident İlham Əliyevin çıxışına yer ayırıb. Qeyd olunub ki, Türkiyə bu gün dünya çapında söz sahibidir. Təkcə bölgəmizdə deyil, dünya çapında bir çox məsələ Türkiyənin mövqeyindən asılıdır. Türkiyə bölgəmizdə əmin-amanlığın, sülhün və işbirliyinin qarantıdır.

"Hürriyet" qəzetinin "Təbrik edirəm, əziz qardaşım" başlıqlı xəbərində Azərbaycanın Lideri İlham Əliyevin sayca 5-ci dəfə prezident seçilməsi vurğulanıb. Qeyd edilib ki, fevralın 7-də prezident seçkilərinin ilk dəfə Azərbaycanın suveren torpaqlarının hamısında keçirilməsi tarixi bir önəmə malikdir.

"Türkiye" qəzeti "Türkdilli dövlətlər artıq birləşməlidir" xəbərini manşetdən təqdim edib. Məqalədə iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi vurğulanıb, siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin yüksək səviyyədə olduğu diqqətə çatdırılıb. Prezident İlham Əliyevin "Biz öz gücümüzə güc qatırıq və təbii ki, türk dünyasının birləşməsi, ortaq köklərə sahib olan xalqların bir arada olması Türk Dövlətləri Təşkilatının hər bir üzvünü gücləndirəcək" fikirləri ətrafında şərhlər təqdim edilib.

"Yeni Şafak" qəzeti isə "Qarabağın qurtuluşu sülh üçün fürsətdir" başlıqlı xəbərində yazıb ki, hər iki dövlətin başçıları bununla dünyaya mesaj verirlər ki, Azərbaycan Türkiyə ilə qardaş ölkədir və bu qardaşlığı heç kim sarsıda bilməz. Bölgədə ən pozitiv, hamının marağına uyğun həyata keçirilən iqtisadi, siyasi, nəqliyyat və digər layihələr Azərbaycan və Türkiyə ilə bağlıdır.

Telekanallardan "A Haber" "Əliyev Ankarada" başlıqlı xəbərində qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyev fevralın 7-də ölkəsində keçirilən prezident seçkilərindən sonra ilk rəsmi səfərini Türkiyəyə edib. İki lider mətbuata bəyanatında açıqlamalar verərkən Prezident Ərdoğan iki xalqın "Bir millət, iki dövlət" kimi çiyin-çiyinə hərəkət etdiyini bildirib.

"Haber Global" kanalı Azərbaycan Prezidentinin Türkiyə səfərinə geniş yer ayırıb. "Ordularımız bir yumruqdur" başlığı ilə təqdim edilən süjetlərdə bildirilib ki, Türkiyə bütün sahələrdə Azərbaycanı dəstəkləyir və eynilə Azərbaycanın dəstəyini hiss edir.

"NTV" kanalı isə hazırladığı süjetlərdə bildirib ki, Azərbaycan Lideri İlham Əliyev ölkəsində keçirilən seçkilərdə qalib gəldikdən sonra ilk rəsmi səfərini Ankaraya edib. Birgə mətbuat konfransında çıxış edən Prezident Ərdoğan Ermənistan və Azərbaycan arasında daimi sülh üçün tarixi fürsət pəncərəsinin açıldığını, Prezident Əliyev isə "Türkiyə bölgəmizdə əmin-amanlığın, sülhün və işbirliyinin qarantıdır" deyə bildiriblər.

"Anadolu Xəbər Agentliyi" isə Azərbaycan Prezidentinin Ankaraya səfərini cənab İlham Əliyevin söylədiyi kimi, "Türkiyə və Azərbaycan birliyi Avrasiya üçün önəmlidir" başlığı ilə yayımlayıb.

Qəzetlərdən "Karar"ın "Qalıcı sülh üçün fürsət yaranıb", "Analiz"in "Ticarət dövriyyəsi 15 milyard dolara yüksələcək", "Yeni akit"in "Əliyevin seçkilərdən sonra ilk səfəri Türkiyə oldu", "Qardaş yenə də ilk bizə gəldi", "Yeni söz"ün "Qədim türk dövləti ənənəsi pozulmadı", "Yeni Mesaj"ın "İlham Əliyev Ankarada", "Yeniçağ"ın "Əliyevdən Türkiyə ziyarəti", "Yeni Birlik" və "Türkgün"ün "Türkiyə sülhün qarantıdır", "Milat"ın "Tarixi fürsət", "Diriliş postası"nın "Sülh üçün tarixi fürsət", "Sabah" qəzetinin "Azərbaycanla ticarət hədəfi 15 milyard dollardır", "Cumhuriyet"in "Əliyev və Ərdoğdandan dünyaya ortaq mesaj" başlıqlı xəbərlərində qeyd olunub ki, hər iki dövlət başçısı görüşdə ölkələr arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf edəcəyinə əminliklərini ifadə ediblər.

Televizya kanallarından "CNN Türk"ün "Qarabağda tarixi məsələmizi həll etdik", "Haber Türk"ün "Əliyev Ankarada", "TRT Haber"in "Azərbaycan Prezidenti Ankarada", "Şou TV"nin "Ərdoğan Əliyevi Beştəpədə qəbul etdi", "TGRT Haber"in "Azərbaycan Prezidenti Əliyev Ankarada", "TV24"ün "Türkiyə regionda sülhün qarantıdır", "TV 100"ün "Ərdoğan-Əliyev.Liderlərin görüşü", "Ulke TV"nin "Əliyev Ankarada" başlıqlı süjetlərində Prezident İlham Əliyevin "Hər dəfə Türkiyədə olarkən qardaş ölkədə gedən genişmiqyaslı inkişaf prosesini izləyirəm. Buna çox sevinirəm və bir daha görürəm ki, əziz Qardaşımın səyləri nəticəsində qardaş ölkə yeni zirvələri fəth edir", "2020-ci ilin noyabr ayında İkinci Qarabağ savaşı başa çatanda Azərbaycan işğalda olan ərazisinin böyük hissəsini azad etmişdir və bütün 44 gün ərzində Türkiyə bizim yanımızda idi" kimi fikirləri xüsusi qeyd edilib. Bildirilib ki, Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu və strateji müttəfiqliyi sarsılmaz və əbədidir. Azərbaycan Prezidenti isə Türkiyənin ən yaxın və səmimi dostudur.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***



# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 91 QƏRAR Bakı şəhəri, 20 fevral 2024-cü il

## "Dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinin dövlət qulluğu stajına və dövlət qulluğu stajının dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinə daxil edilməsi Qaydası və şərtləri"nin təsdiq edilməsi barədə

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 340-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 29 dekabr tarixli 435 nömrəli, "Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi Qaydalarının təsdiq edilməsi barədə" 2002-ci il 28 yanvar tarixli 665 nömrəli, "Azərbaycan Respublikasının dövlət orqanlarında dövlət qulluğunun rəhbər vəzifələrinin tutulması üçün ehtiyat kadrların formalaşdırılması Qaydaları"nın təsdiq edilməsi barədə" 2006-cı il 27 iyul tarixli 432 nömrəli, "Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 21 iyun tarixli 1480 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 14 iyul tarixli 1398 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinin dövlət qulluğu stajına və dövlət qulluğu stajının dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinə daxil edilməsi Qaydası və şərtləri" təsdiq edilsin *(əlavə olunur)*.

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 92 QƏRAR Bakı şəhəri, 20 fevral 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 28 oktyabr tarixli 422 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə qiymətli kağızlarının emissiyası və tədavülü Qaydaları"nda və 2019-cu il 11 dekabr tarixli 472 nömrəli Qərarı ilə təsdiq edilmiş "Aqrar Sığorta Fondunun Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 947-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1284-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2015-ci il 14 iyul tarixli 566 nömrəli, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 145-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2016-cı il 9 mart tarixli 820 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 iyul tarixli 2265 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 28 oktyabr tarixli 422 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1739) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə qiymətli kağızlarının emissiyası və tədavülü Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.2.8-ci yarımbəndə "Mərkəzi Bankı" sözlərindən sonra "(bundan sonra - Mərkəzi Bank)" sözləri əlavə edilsin;

1.2. 2.1-ci bənddə "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası (bundan sonra - Palata)" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.3. 2.3-cü (hər iki halda), 2.9-cu, 2.10-cu, 2.11-ci və 3.18-ci bəndlərdə ismin müvafiq hallarında "Palata" sözü ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.4. 2.9-cu bənddə "20 (iyirmi)" sözləri "10 (on)" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 dekabr tarixli 472 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 2056 (Cild I) ilə təsdiq edilmiş "Aqrar Sığorta Fondunun Nizamnaməsi"nin 5.7.9-cu yarım-bəndi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Keniyanın baş prokuroru ölkəmizə işgüzar səfərə gəlib





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq Baş Prokurorluq tərəfindən xarici dövlətlərin hüquq-mühafizə orqanları ilə hüquqi əməkdaşlıq sahəsində əlaqələrin genişləndirilməsinə xüsusi önəm verilir.

Baş prokuror Kamran Əliyevin dəvəti ilə Keniya Respublikasının baş prokuroru Renson Mulele İnqonqanın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlib.

Nümayəndə heyəti Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib. Qonaqlar həmçinin Şəhidlər xiyabanını ziyarət edərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş Vətən övladlarının xatirəsini anıblar.

Baş Prokurorluqda keçirilmiş ikitərəfli görüş zamanı baş prokuror Kamran Əliyev qonaqları salamlayaraq, Azərbaycan və Keniya arasında dostluq və əməkdaşlıq əlaqələrinin günü-gündən genişləndiyini deyib. Ölkələrimiz arasında bu il diplomatik münasibətlərin qurulmasının 20 illiyinin qeyd edilməsini bildirən baş prokuror 2022-ci ilin noyabr ayında Azərbaycanın Nayrobidəki səfirliyinin təsis edilməsini ikitərəfli münasibətlərin yüksələn xətlə inkişafının göstəricisi olduğunu xüsusi vurğulayıb.

Ölkəmizin prokurorluq orqanları ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edən Keniyanın baş prokuroru Renson İnqonqa göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirərək transmilli cinayətkarlığa, o cümlədən terrorçuluğa, terrorçuluğun maliyyələşdirilməsinə və korrupsiyaya qarşı mübarizə sahələrində, həmçinin prokurorların peşə hazırlığı və ixtisasartırma sahəsində təcrübə mübadiləsinin aparılması sahəsində Azərbaycan modelinin öyrənilməsində maraqlı olduğunu ifadə edib.

Kamran Əliyev ötən illərdə Azərbaycanın da terrora məruz qalmış ölkələrdən biri olmasını, Ermənistanın uzun müddət ərzində torpaqlarımızı işğal altında saxlamasını, lakin Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan ərazilərinin otuzillik işğalına son qoyulduğunu, 2023-cü ilin sentyabr ayında isə ordumuz tərəfindən aparılmış lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu barədə həmkarını məlumatlandırıb. Baş prokuror ölkə rəhbərliyinin diqqət və qayğısı ilə işğaldan azad olunmuş ərazilərdə geniş quruculuq bərpa işlərinin aparıldığını bildirərək keniyalı qonaqları Ağdam rayonuna səfərə dəvət edib.

Baş prokuror BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) cari ilin noyabr ayında Azərbaycanda keçirilməsini ölkəmizin beynəlxalq nüfuzunun sürətlə artdığının bariz nümunəsi olduğunu bildirib. Renson İnqonqa ətraf mühit və iqlim dəyişmələri məsələlərinin ölkəsi üçün vacib əhəmiyyət kəsb etdiyini, ötən ilin sentyabr ayında Afrika İqlim Sammitinin Keniyada keçirildiyini qeyd edərək ölkəmizdə baş tutacaq mötəbər tədbirdə aktiv iştirak edəcəklərini vurğulayıb.

Kamran Əliyev qonaqlara prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlar çərçivəsində "Elektron prokurorluq informasiya sistemi"nin fəaliyyəti barədə məlumat verib. Görüşdə cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılaraq, beynəlxalq təşkilatlar, o cümlədən BMT, Qoşulmama Hərəkatı, Beynəlxalq Prokurorlar Assosiasiyası çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyi ətrafında müzakirələr aparılıb.

Qonaqlar Baş Prokurorluğun Tarix muzeyində Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan, həmçinin Azərbaycan Prokurorluğunun keçdiyi inkişaf yolunu özündə əks etdirən guşə və eksponatlarla tanış olublar.

Nümayəndə heyətinin ölkəmizə səfəri davam edir.

# Azərbaycandan Ukraynaya elektrik avadanlıqlarından ibarət növbəti humanitar yardım göndərilib



**Prezident İlham Əliyevin 2023-cü il 17 iyul tarixli Sərəncamına uyğun olaraq, ölkəmiz tərəfindən Ukrayna xalqına humanitar yardım göstərilməsi məqsədilə nəzərdə tutulmuş elektrik avadanlıqlarının sonuncu hissəsi bu gün Sumqayıt Texnologiyalar Parkından Ukraynaya yola salınıb.**

AZƏRTAC xəbər verir ki, Energetika Nazirliyinin tədarük etdiyi humanitar yükə 670 min metrdən çox elektrik kabelləri və naqilləri, həmçinin 26 ədəd transformator və komplekt transformator məntəqəsi daxildir. 25 TIR-dan ibarət yük avtomobili karvanının daşıdığı humanitar məqsədli mallar Ukraynadakı mövcud vəziyyətlə əlaqədar zərər çəkmiş ərazilərin elektrik enerjisi ilə dayanıqlı təchizatının bərpasına dəstək üçün göndərilir.

Qeyd edək ki, ümumi məbləği 7,6 milyon ABŞ dolları olan humanitar yardımın əvvəlki hissələri 2023-cü ilin 30 oktyabr, 21 noyabr, 8 dekabr və 2024-cü ilin 11 yanvar tarixlərində Ukraynaya göndərilib. Ümumilikdə bu çərçivədə Ukraynaya 107 TIR-dan ibarət yük avtomobili karvanı ilə 3,3 milyon metrdən çox elektrik kabelləri və naqilləri, həmçinin 72 ədəd transformator və komplekt transformator məntəqəsi yola salınıb.




# "Qafqaz diyarının xəritəsi - Tiflis, 1847-ci il" nəşrinin təqdimatı olub

**Fevralın 20-də Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında "Qafqaz diyarının xəritəsi - Tiflis, 1847-ci il" nəşrinin təqdimatı keçirilib.**



AZƏRTAC xəbər verir ki, nəşr Prezident Kitabxanasının, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) və Qərbi Azərbaycan İcmasının birgə dəstəyi ilə ərsəyə gəlib.

Tədbirdə çıxış edən Prezident Kitabxanasının direktoru Mayıl Əhmədov tariximizin öyrənilməsinin vacibliyini vurğulayıb. O, "Qafqaz diyarının xəritəsi - Tiflis, 1847-ci il" nəşrinin Qərbi Azərbaycan torpaqlarının öyrənilməsində mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Tədbirin moderatoru, BBMM-in icraçı direktoru Rəvan Həsənov bildirib ki, 1847-ci ilin xəritəsi Gürcüstan Hərbi Topoqrafik Baş Qərargahı və Çar Rusiyası tərəfindən hazırlanmış xəritədir. Xəritələr olduğu kimi mənbəyi göstərilməklə çap edilib. Bu zamana qədər Azərbaycan ictimaiyyəti üçün 1903-cü ildə çap edilmiş xəritənin daha çox tanış olduğunu diqqətə çatdıran R.Həsənov əlavə edib ki, həmin xəritədə də istər Qarabağ, istərsə də Şərqi Zəngəzur iqtisadi rayonlarının, eyni zamanda Qərbi Azərbaycan ərazisində olan toponimlərin mənşələri göstərilmişdi. Amma o xəritələrdə XX əsrin əvvəllərində ermənilər tərəfindən saxtalaşdırılma, dəyişdirilmə işləri aparılıb. 1847-ci ilin xəritəsində olan toponimlər, hidronimlər və aqronimlərin faiz etibarilə daha çoxu Azərbaycan, türk mənşəlidir. Xəritənin təkcə elm sahəsində, alimlər arasında deyil, bütün dünya ictimaiyyətinə çatdırılmasının, müxtəlif dillərə tərcümə olunmasının vacibliyini vurğulayan BBMM-in icraçı direktoru deyib ki, artıq bu prosesə başlanılıb. Xəritə rus və ingilis dilinə tərcümə olunur.

Azərbaycan Dillər Universitetinin rektoru akademik Kamal Abdulla Azərbaycan həqiqətlərinin üzə çıxarılmasında xəritənin nəşr olunmasının ciddi bir addım olduğunu vurğulayıb. BBMM-in bu istiqamətdə işləri sistemli şəkildə apardığı bildirilib. Mərkəzin "Həqiqətin onomastikası" kitabının birinci və ikinci nəşrinin hazırlanması, kitabların rus və ingilis dillərinə tərcümə olunması da buna sübutdur.

Prezident Administrasiyasının sektor müdiri Fuad Axundov Azərbaycanla bağlı tarixi faktların saxtalaşdırılmasının üzə çıxarılmasının vacibliyini diqqətə çatdırıb. Ulu Öndər Heydər Əliyevin "Öz mədəni irsini qoruyub saxlaya bilməyən xalq nəyə qadir olduğunu heç vaxt sübut edə bilməz" fikrinə istinad edən F.Axundov qeyd edib ki, son 200 il ərzində ermənilər Azərbaycan tarixinin saxtalaşdırılması istiqamətində çox işlər görüblər və müəyyən məqamlarda buna nail ola biliblər. Bu gün bu saxtakarlıqların üzə çıxarılması və tarixi həqiqətlərin ictimaiyyətə çatdırılması mühüm əhəmiyyət kəsb edir. "Qafqaz diyarının xəritəsi - Tiflis, 1847-ci il" nəşrinin çap olunması bu istiqamətdə görülən işlərə, atılan addımlara mühüm töhfədir.

Tariximizin sübut olunmasını milli məsələ adlandıran Qərbi Azərbaycan İcmasının sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli vurğulayıb: "Biz tarixin saxtalaşdırılması ilə bağlı çürük təfəkkürü ermənilərin beynindən sökməyə nail olmalıyıq və bunun üçün Azərbaycanın tarixini sübut edən xəritələrin yenidən çapına böyük ehtiyac duyulur".

Milli Məclisin deputatı Ceyhun Məmmədov qeyd edib ki, yalanların ifşasına həmişə ehtiyac var: "Bizim müharibəmiz bitsə də, mübarizəmiz hələ davam edir. Mübarizədə isə bu kimi ciddi faktlara əsaslanan nəşrlərin rolu əvəzsizdir. O, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində, eləcə də vaxtilə azərbaycanlıların tarixən yaşadığı indiki Ermənistan ərazisində Azərbaycan toponimlərinin saxtalaşdırılması faktlarının araşdırılıb üzə çıxarılmasının və dünya ictimaiyyətinə çatdırılmasının vacibliyini və nəşr olunan xəritənin əhəmiyyətini vurğulayıb.

Digər çıxış edənlər nəşrin əhəmiyyətindən danışıblar, onun tarixi həqiqətlərin üzə çıxarılmasında vacibliyini diqqətə çatdırıblar.

Tədbir müzakirələrlə davam edib.

# Peru portalında Azərbaycan reallıqları barədə məqalə dərc olunub

**Perunun nüfuzlu "Guik" portalında bu ölkənin Azərbaycanda səfərdə olmuş tanınmış jurnalisti, siyasi şərhçi Rikardo Sançesin "Azərbaycanın reallıqları uydurmalara qarşı" sərlövhəli məqaləsi dərc edilib.**

Ölkəmizin Meksikadakı səfirliyindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycanda keçirilmiş növbədənkənar prezident seçkilərindən bəhs edən məqalədə ölkəmizin əhalisinin yüksək fəallıqla nümayiş etdirdiyi səsvermə nəticəsində Prezident İlham Əliyevin 92 faizdən çox səslə qələbə qazandığı bildirilib. Qeyd edilib ki, ölkədə aparılan uğurlu siyasət, Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunması, iqtisadiyyatın inkişafı, əhalinin rifahının daha da yaxşılaşması kimi amillər bu uğura öz töhfəsini verib.

Diqqətə çatdırılıb ki, seçkiləri izləyən 790 beynəlxalq, ümumilikdə isə 90 mindən çox müşahidəçi, eləcə də 300-ə yaxın xarici media nümayəndəsi seçki prosesinin sərbəst, şəffaf və demokratik keçdiyini qeyd edib.

Məqalədə xüsusi vurğulanır ki, 30 illik işğaldan sonra ilk dəfə Azərbaycanın bütün suveren ərazilərini əhatə edən bu seçkilər tarixi əhəmiyyət daşıyır.

Müəllif vurğulayıb ki, Ermənistan və xaricdəki erməni diasporunun Qarabağla bağlı yaydığı qərəzli və yalan məlumatların əksinə olaraq, bu bölgəni ziyarət edən hər kəs çoxillik erməni işğalının ağır nəticələrinin, o cümlədən şəhərlərin yerlə yeksan edilməsinin, mədəni, tarixi və dini abidələrin talanmasının, yaşayış infrastrukturunun dağıdıldığının şahidi olur.

Həmçinin bildirilir ki, işğal dövründə ərazilərin Ermənistan tərəfindən kütləvi şəkildə minalanması səbəbindən hətta müharibədən sonra 300-dən çox insan minanın qurbanı olub. İrəvan isə minalanmış sahələrin dəqiq xəritələrini hələ də Azərbaycan tərəfinə verməkdən imtina edir. Bununla da günahsız insanların həyatını təhlükə altında saxlayan Ermənistanın özünü dünyaya xristian dəyərlərinin daşıyıcısı kimi təqdim etməsinin ağlasığmaz olduğu vurğulanır.

Sonda doğma yurdlarından didərgin düşmüş azərbaycanlıların öz evlərinə ləyaqətli və təhlükəsiz şəkildə qayıdışını təmin etmək məqsədilə Azərbaycan dövlətinin işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində gördüyü genişmiqyaslı işlər barədə məlumat verilir.



# Vətən deyəndə...



**Qarabağ Azərbaycandır!**

2020-ci il sentyabrın 27-də səhər saat 6.00 radələrində erməni işğalçıları cəbhənin müxtəlif istiqamətlərindən mövqelərimiz üzərinə hücuma keçdilər. Ordumuzun hissələri bu hücumun qarşısını qətiyyətlə alaraq düşmənə əks-həmlə ilə cavab verdi. Yağıların bu qəfil təxribatı nəticəsində atəşkəslə söndürülmüş Qarabağ müharibəsi yenidən alovlandı. İllərdən bəri susan silahlar bir anın içində dilə gəldi. Mövqelərə od ələndi, səngərlərə güllə və mərmilər dolu kimi yağdırıldı.



## Qüdrətli ordumuz xəyalları gerçəkləşdirdi

Döyüşlərin elə ilk dəqiqələrindən ordumuzun hissələri düşmənə ciddi müqavimət göstərərək əks-həmlə əməliyyatlarında üstünlük qazandı, qarşı tərəfə sarsıdıcı zərbələr endirdi. İşğalçılar bu dəqiq zərbələrin, güclü əks-həmlələrin qarşısında tab gətirməyərək iyirmi səkkiz ildən bəri əllərində saxladıqları və xeyli möhkəmləndikləri mövqelərdən geri çəkildilər. Azərbaycan əsgərinin yüksək döyüş hazırlığı elə ilk günlərdən özünü göstərdi. Şanlı ordumuzun zabit və əsgərləri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında uğurlu döyüşləri ilə qəsbkarları qaçmağa məcbur etdi, torpaqlarımız addım-addım işğaldan azad olunmağa başladı.

Cəbhə bölgələrindən gələn şad xəbərlərdən, qazanılan uğurlardan kədərli çöhrəmizə qələbə sevinci ələndi. Xalqımız müstəqilliyinin təminatçısı olan və böyük məhəbbət bəslədiyi ordusundan hər gün qələbə xəbərləri eşitdi. Hər gün böyük strateji əhəmiyyətə malik olan yüksəkliklər, kənd və qəsəbələr, rayon mərkəzləri düşməndən azad olundu. Əvvəlki çağlar işğalda qalmış torpaqlarımıza qayıtmağı, o yerlərə ayaq basmağı biz yalnız xəyal edərdik. Amma artıq xəyalların gerçəkləşdiyi zaman idi. Azərbaycan Ordusu hünər və qəhrəmanlığı ilə döyüş meydanlarında böyük zəfərlər qazanaraq 44 gün ərzində bunu bacardı. Silahlı Qüvvələrimizin şəxsi heyəti qanı və canı bahasına uzun illər erməni qəsbkarlarının tapdağında qalmış torpaqlarımızı işğalçılardan azad etdi.

### Qəsbkarların arzuları ayaqlar altında tapdalandı

1988-ci ildən müharibə şəraitində yaşadığımızdan günlərin birində Qarabağ uğrunda döyüşlərin yenidən alovlanacağı gözlənilən idi. Atəşkəs əbədi sülh demək deyildi. Bir tərəfdən də ermənilər ipə-sapa yatmır, beynəlxalq təşkilatları eşitmir, sülh danışıqlarına gəlmək istəmirdilər. Özlərini anlamazlığa vurub naz edir, sülhə, əmin-amanlığa, beynəlxalq qanunlara arxa çevirirdilər. Ermənistanın baş naziri Nikol Paşinyan havadarlarına, eləcə də dünyanın bir çox xarici dövlətində fəaliyyət göstərən erməni lobbisinin pul-parasına və terror təşkilatlarına arxalanaraq ölkəmizə, xalqımıza meydan oxuyurdu. Qondarma rejim inaqurasiya mərasimini qədim şəhərimiz olan gözəl Şuşamızda keçirirdi. Hələ bu da azmış kimi, terrorçu rejim idarəetmə strukturunu da buraya köçürməyə hazırlaşırdı.

Bir sözlə, illərdən bəri cəzasız qalan düşmən getdikcə qudurub cızığından çıxır, həddini aşır, heç nəyə məhəl qoymadan qırmızı xətti artıqlaması ilə keçirdi. Təbiidir ki, bütün bunlar sonda genişmiqyaslı müharibəyə gətirib çıxarmalı idi.

Elə ilk həmlədən uğur qazanacaqlarına, yeni ərazilərimizi işğal edəcəklərinə ümidlər bəsləyən ermənilərin arzuları Azərbaycan əsgərinin dəqiq atəşi ilə güllələndi. Ordumuzun hissələri qısa müddət ərzində işğalçıların qəfil hücumlarının qarşısını qətiyyətlə aldı. Qəsbkarların bütün ümid və niyyətləri puça çıxdı.

Bir neçə həftə ərzində işğalçılar Cəbrayılın, Füzulinin, Tərtərin, Zəngilanın, Qubadlının, Xocavəndin, Xocalının kəndlərindən sıxışdırılıb çıxarıldı. Müharibənin yeddinci günü - oktyabrın 4-də Cəbrayıl rayonunun mərkəzi və bir neçə kəndi erməni qəsbkarlarından azad edildi. Bir müddət sonra üçrəngli bayrağımız Füzulidə, Zəngilanda, Qubadlıda dalğalandı. Bundan ruhlanan hərbçilərimiz yağıların üzərinə daha da əzmkarlıqla atıldılar. Noyabrın 8-də isə aylı-ulduzlu bayrağımız Şuşaya sancıldı. Hərbçilərimizin döyüş əzmi, savaş ovqatı onları düşmən üzərində növbəti qələbələrə köklədi. Ordumuzun hissələri iştirakçısı olduğu bütün döyüşlərdə düşməni məhv etdi, zəfər çaldı, qələbə qazandı.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

**Vətən oğulları**

## Şərəfli ömür yaşayan Cavid...

Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olan oğullarımızdan biri də Cavid Səlimovdur. O, 12 avqust 1972-ci ildə Ucar rayonunun Təzə Şilyan kəndində anadan olmuşdu.



Yeddi yaşına çatandan sonra - 1979-cu il sentyabrın 1-də valideynləri Cavidin əlindən tutub sevinc içində onu məktəbə apardılar. Həmin gündən onun həyatının yeni mərhələsi başladı. Kiçik yaşlarından texnikaya böyük maraq göstərdiyinə görə, Cavid 1989-cu ildə orta təhsilini başa vurandan sonra Göyçay rayonundakı peşə məktəbinə üz tutdu. Burada sürücülük ixtisasına yiyələndi.

1990-cı ildə 18 yaşı tamam olanda Cavid Səlimov böyük həvəslə hərbi xidmətə yollandı. Əsgəri xidmətini Kalininqrad şəhərində yerinə yetirən Cavid hərbi sirləri dərindən öyrənirdi. 1992-ci ildə ordu sıralarından geri dönəndə doğma vətənində müharibə getdiyini gördü.

1993-cü ildə Azərbaycan Ordusunun sıralarında döyüşə yollandı. O, əsgəri xidmətdə rabitəçi olmuş, bu ixtisası dərindən öyrənmişdi. Cavid Səlimov ordu sıralarında təkcə rabitəni deyil, silahların sirlərini də yaxşı mənimsəmişdi. Buna görə də döyüşlər zamanı güllələri hədəfdən yayınmırdı.

Cəsur əsgərin döyüş yolu Ağdərədən başladı. Cavid Qarabağı birinci dəfəydi ki, görürdü. Bu yerlərin gözəlliyi onu elə ilk dəqiqələrdən valeh etmişdi.

Döyüş yoldaşları ilə çiyin-çiyinə irəliləyən Cavid Səlimov Qarabağ uğrunda cəsarətlə vuruşur. Havadarlarına arxalanan düşmən isə dayanmadan hücumlarını gücləndirirdi. Amma nə qədər cəhd göstərsə də, istəyinə çata bilmirdi. Çünki Cavidgil mövqelərində möhkəm dayanır, daşnakları geri sıxışdırırdılar. Həmişə öndə vuruşan igid əsgər döyüşün qızğın çağında ayağından yaralanır.

Bir müddət hospitalda müalicə olunan Cavid Səlimov sağlamlığı bərpa olunandan sonra yenə də döyüşçü dostlarının yanına qayıdır. Həmin günlərdə onların bölüyü artıq Ağdam istiqamətində vuruşurdu. Cəsur döyüşçü ən çətin tapşırıqların öhdəsindən belə gəlirdi. Təkcə əsgər dostları deyil, komandirləri də onun hünərindən razılıq edirdi.

1994-cü ilin yazında Ağdam ətrafında gedən döyüşlər bir az da gərgin xarakter almışdı. Ötən müddət ərzində xeyli irəliləyən düşmən azərbaycanlılar yaşayan neçə-neçə kənd və qəsəbəni ələ keçirmişdi. Bunları gördükcə Cavidin erməni qəsbkarlarına nifrəti daha da artırdı.

1994-cü il aprelin 11-də Ağdam rayonu ərazisində qəsbkarların növbəti hücumlarının qarşısını alarkən Səlimov Cavid Cəlil oğlu şəhid oldu. Komandirləri, döyüşçü dostları onun ölüm xəbərini göz yaşları içində qarşıladılar.

Yaxınları, doğmaları, kənd sakinləri həmin gün onu Təzə Şilyan kəndindəki qəbiristanlıqda torpağa tapşırdılar. Anası Şövkət xala canından da çox sevdiyi övladı Cavidlə göz yaşları içində vidalaşdı. Kədəri böyük olsa da, təskinliyini yalnız onda tapdı ki, oğlu Vətən uğrunda şəhid oldu. Şəhidlər isə unudulmur, daim yaddaşlarda yaşayır. Cavid 22 yaşında həyatla vidalaşdı. Qısa, amma şərəfli bir ömür yaşadı.

Atəşkəs rejiminə bir ay qalmış şəhid olmuş Cavid Səlimovu tanıyanlar onun xatirəsini həmişə əziz tuturlar. Bir vaxtlar böyüdüyü küçədə Cavidin adına "Şəhid bulağı" tikilib. Təhsil aldığı orta məktəbdə şəhidlərə həsr olunmuş guşədə Cavidin də şəkli, tərcümeyi-halı yer alıb. İnanırıq ki, gələcək nəsillər qəhrəmanlığı Qarabağ müharibəsində böyük igidlik göstərmiş Cavid kimi cəsur oğullardan öyrənəcəklər.

*V.MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

**Tarix necə varsa**

## Erməni faşizminin Qaradağlıdakı qanlı izləri

Ermənilər 1988-ci ildən başlayaraq Qarabağda yaşayan azərbaycanlıları ata-baba yurdlarından silah gücünə qovub çıxarmaq üçün kənd və qəsəbələr üzərinə hücuma keçdilər. 1992-ci il fevral ayının əvvəllərindən Xocavənd rayonunun Qaradağlı kəndinin sakinləri də həyatlarının ən çətin günlərini yaşayırdılar. Qəsbkarlar azərbaycanlıları bu kənddən də çıxarmaq üçün demək olar ki, hər gün hücumlarını artırırdılar. Sakinlər nə qədər müqavimət göstərsələr də, təpədən-dırnağadək silahlanmış, növbənöv zirehli texnikaları olan erməni hərbi birləşmələrinin qarşısında dayana bilmirdilər.



Ermənilər hücumlar zamanı Fransadan, Livandan, Suriyadan gətirdikləri muzdlu, terrorçu dəstələrlə yanaşı, keçmiş ittifaqın Xankəndidə yerləşən 366-cı motoatıcı alayının canlı qüvvəsinin və texnikasının köməyindən də istifadə edirdilər.

Kəndə olan düşmən hücumları 1992-ci il fevralın 14-dən sonra daha da gücləndi. Yağılar kənd üzərinə bir neçə istiqamətdən böyük qüvvə ilə hücum edirdilər. Nə qədər təhlükəli olsa da, sakinlər evlərindən çıxmır, qoynunda doğulub böyüdükləri el-obalarını qoruyurdular. Fevralın 17-dək kənd uğrunda qanlı döyüşlər getdi. Əli silah tutan sakinlərin qəhrəmancasına vuruşmasına baxmayaraq, fevralın 17-də qeyri-bərabər döyüşlərdə ermənilər Qaradağlını işğal etdilər. Bu soyuq qış günü kəndin tarixinə qara hərflərlə yazıldı. Qaradağlının işğalına səbəb döyüşçülərin zəifliyi yox, sursat ehtiyatının tükənməsi oldu.

Vəhşicəsinə Qaradağlıya girən daşnaklar evindən qaçmağa macal tapmamış sakinləri də, döyüşlərdə yaralananları da elə kəndə addımlarını qoyan kimi güllələdilər. Qəsbkarlar sakinlərdən 117 nəfərini əsir aldılar, 90-dan çoxunu isə qəddarcasına qətlə yetirdilər. Öldürülənlərdən 21-i ahıl və qoca, 10-u qadın, 10-u da məktəbli idi. Qaradağlının işğalı zamanı 146 uşaq yetim qaldı. İşğal nəticəsində kənddə 200 yaşayış evi, 1 mədəniyyət ocağı, 320 yerlik orta məktəb, 25 çarpayılıq xəstəxana binası və digər sosial obyektlər vəhşicəsinə dağıdıldı. Ermənilər 3 kənd sakininin üzərinə dizel yanacağı tökərək yandırdı, 2 nəfərin isə başını kəsdilər. Qaradağlının erməni işğalçılarının gözündən yayına bilən sakinləri dağlıq ərazilərdən sağ-salamat keçərək Ağdama qaça bildilər. Əgər kənddə qalsaydılar, onlar da erməni vəhşiliyinin qurbanı olacaqdılar.

Qəsbkarlar əsir götürdükləri kənd sakinlərinə olmazın işgəncələr vermişdilər. İşğalçılar kəndin Bəylik dağı adlanan yüksəkliyində əsir aparılanların içərisindən 8-i uşaq olmaqla 23 nəfəri güllələmişdilər. Ağır yaralanmış günahsız insanları silos quyularına atıb üstlərini basdırmışdılar. İki nəfər Zəki bulağının üstündə, iki nəfər isə Cəmiyyət kəndində qətlə yetirilmişdi. Əsirlikdə olan 68 nəfər kənd sakini erməni faşizminin qurbanı olmuşdu. Daşnakların kənddən əsir apardıqları beş nəfərin taleyi bu günə qədər də məlum deyil.

Aradan illər keçsə də, qanlı Qaradağlı faciəsi kənd sakinlərinin yaddaşında qalıb. Tarix göstərir ki, böyük insan tələfatı ilə nəticələnən belə qanlı faciələr heç vaxt unudulmur. Sakinlər o qanlı qırğınlardan, erməni vəhşiliyindən elə odlu-alovlu danışırlar ki, sanki bütün bunlar 32 il əvvəl yox, elə dünən-srağagün baş verib.

Seyyur Nağıyev həmin dəhşətli günləri belə xatırladı:

- 1992-ci ilin fevralında Qaradağlı düşmən mühasirəsində idi. Vəziyyət gərginləşən ilk günlərdən kənddə özünümüdafiə dəstəsi yaratmışdıq. Qeyri-bərabər döyüşlərdə Qaradağlı camaatı - uşaqlı-qadınlı, cavanlı-qocalı qəhrəmancasına vuruşurdu. Təəssüf ki, sursatımız tükənəndən sonra ermənilər kəndə girib bizi əsir götürdülər. Daşnaklar yol uzunu əsirləri maşınlardan düşürərək işgəncə verə-verə öldürürdülər. Əsirliyimizin 40-cı günü idi. Erməni nəzarətçi yanımıza gələndə ayağa qalxmadım. Buna görə təpiklə sifətimə necə vurdusa çənəm qırıldı. Hələ ondan qabaq "Bəylik bağı"nda ermənilər güllə ilə çənəmdən vurmuşdular. Ermənilər İmran kişinin mədəsinə təpiklə elə möhkəm vurdular ki, kişi 7 gündən sonra öldü. Meyiti də 3-4 gün saxlandığımız zirzəmidə qaldı. Erməni işğalçıları Qaradağlı kənd sakini Turab Hüseynovun ailəsindən dörd nəfəri qətlə yetirdilər.

1992-ci il fevralın 17-si mənim üçün çox ağrılı gün oldu. Həmin gün ermənilər həm kəndimizi işğal etdilər, həm valideynlərimi, həm də iki qardaşımı öldürdülər. İnanırdıq ki, bu zülmlər, bu qanlar yerdə qalmayacaq. Bugünkü günə şükürlər olsun. Ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında torpaqlarımızı, Qarabağımızı azad edib, şəhidlərimizin qisasını alıb. Artıq doğma Qaradağlımız da azaddır.

19-20 sentyabr 2023-cü ildə ordumuzun Qarabağda separatçılara qarşı həyata keçirdiyi əməliyyat tədbirləri nəticəsində başqa yaşayış məntəqələri kimi, Qaradağlı kəndi də erməni işğalçılarından azad olundu. Azərbaycan Ordusu xəyalları gerçəkləşdirdi. Qarabağın başqa yaşayış məntəqələri kimi, Qaradağlı kəndinin sakinləri də yaxın zamanlarda böyük sevinc içində doğma ocaqlarına qayıdacaqlar.

*V.MƏMMƏDQULUOĞLU,*
*"Azərbaycan"*

## Qayğı və ehtiramın dəyişməz ünvanı

Taleh Məhərzadə 1995-ci ildə Tərtər rayonunun Qaynaq kəndində anadan olub. O, Azərbaycan Ordusunun müddətdən artıq hərbi qulluqçusu kimi 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Talış kəndinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib, bir gün sonra - sentyabrın 28-də Talış kəndi istiqamətində şəhid olub.



Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

Bu günlər Tərtərdə şəhidin qardaşının toy məclisi keçirilib. Şənlikdə rayon rəhbərliyi, hüquq-mühafizə orqanlarının əməkdaşları, şəhid ailələri, Vətən müharibəsi qaziləri və veteranlar iştirak ediblər. Məclis Azərbaycanın Dövlət Himni ilə başlayıb, sonra şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxış edərək yeni ailə quran gəncləri təbrik edib, onlara xoşbəxtlik, firavan həyat arzulayıb. Sonra Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bizə qələbə sevincini yaşadan şəhid Taleh kimi oğulların sayəsində torpaqlarımızın işğaldan azad edildiyini vurğulayıb. Qeyd edib ki, şəhidlərimizin keçdiyi döyüş yolu gənclərimizə bir örnəkdir.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim şəhid və qazi ailələrinin yanında olduqlarını, onların problemlərinə diqqət və qayğı ilə yanaşdıqlarını, dövlət başçısının bütün qurumların qarşısında bu həssas təbəqəyə aid olan insanların problemlərinin həllini bir nömrəli vəzifə kimi müəyyən etdiyini vurğulayan M.Məmmədov şəhid ailələrinə, qazilərə və veteranlara göstərilən diqqət və qayğının dövlət siyasətinin prioritetlərindən olduğunu qeyd edib.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Şəhidlərin xatirəsinə həsr olunan anım mərasimləri keçirilib



**Vətənimizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Röyal Məmmədov, Şamxal Abbasov, Azərbaycanın Milli Qəhrəmanı Təbriz Xəlilbəyli və Vətən Müharibəsi Qəhrəmanı Ramiz Qasımovun xatirəsinə həsr edilən anım mərasimləri keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, nazirliyin və ictimaiyyətin nümayəndələri, döyüş yoldaşları, eləcə də digər qonaqların iştirak etdiyi anım mərasimləri çərçivəsində şəhidlərin məzarları ziyarət edilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad olunub. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Mərasimlərdə çıxış edənlər Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ordumuzun Vətən müharibəsində qazandığı tarixi Qələbədən, bu şanlı Zəfərin qazanılmasında igid oğullarımızın göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrindən söz açaraq şəhidlərimizin şərəfli həyat yolları haqqında məlumat veriblər.

## Hərbi qulluqçuların asudə vaxtının səmərəli təşkili üçün lazımi şərait yaradılıb



**Müdafiə nazirinin tapşırığına əsasən, Azərbaycan Ordusunda hərbi qulluqçuların asudə vaxtının səmərəli təşkili, hərtərəfli mənalı istirahəti və maarifləndirilməsi məqsədilə mütəmadi olaraq tədbirlər keçirilir.**

Nazirliyin Mətbuat xidmətindən verilən məlumata görə, hərbi qulluqçuların, xüsusilə də əsgərlərin klassik və digər janrlarda kitablar oxuması, müxtəlif ədəbiyyat növləri ilə tanış olması, oxuduqları mövzuların qarşılıqlı müzakirə edilməsi məqsədilə hərbi hissələrdə hər cür şərait yaradılıb.

Müdafiə Nazirliyinin təşkilatçılığı ilə "Əsgərin kitab rəfi" adlı kitab toplama aksiyalarında toplanan kitablar çətin relyefli dağlıq ərazilərdə yerləşən bölmələr də daxil olmaqla bütün hərbi hissələrə göndərilib.

Bu kimi tədbirlərin icrası ilə hərbi qulluqçuların kitab oxumağa olan həvəsi daha da artırılır, asudə vaxtları səmərəli və faydalı təşkil edilir.

# REGİONLAR

◆ Daşkəsəndən iki xəbər

## Ekologiya mövzusunda tədbir keçirilib

**Daşkəsəndə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Ətraf mühitin və yaşıllıqların qorunması" mövzusunda tədbir keçirilmişdir.**

Tədbirdə Prezident İlham Əliyevin 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı imzaladığı sərəncamın əhəmiyyətindən danışılmışdır. Diqqətə çatdırılmışdır ki, Azərbaycanda yüksəkkeyfiyyətli ekoloji mühitə və "yaşıl enerji" məkanına nail olmaq üçün çox iş görülür. Xüsusilə ərazi bütövlüyümüzün bərpa olunduğu 3 il ərzində ekoloji tarazlığın təmin edilməsi, ölkə ərazisində yaşıllıqların artırılması, eləcə də alternativ və bərpaolunan enerji mənbələrinin inkişafı üçün uğurlu addımlar atılır.

Çıxışlarda həmçinin ölkəmizdə ekologiyanın qorunmasına və ətraf mühitin sağlamlaşdırılmasına hər zaman böyük önəm verildiyi qeyd edilmiş, abadlıq və təmizlik işlərini davam etdirməyin vacibliyindən, əhali arasında ekoloji mədəniyyəti, təbiətə olan qayğını artırmaq kimi məsələlərdən danışılmışdır.

## Qadınların məşğulluğunun artırılması üçün layihə icra olunur

"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyindəki Dövlət Məşğulluq Agentliyi ilə birgə "Daşkəsən rayonunda qadınların məşğulluğunun artırılması" layihəsinin icrası davam edir.



Layihə QSC-nin "Çovdar" qızıl mədəninin yaxınlığında yerləşən kəndlərdə yaşayan qadınların əmək bazarında rəqabət qabiliyyətlərinin artırılması, onların yeni peşələrə yiyələnməsi, aztəminatlı evdar qadınların məşğulluğu və mikro sahibkarlığın inkişaf etdirilməsi məqsədi daşıyır.

Bu məqsədlə "AzerGold" QSC və Dövlət Məşğulluq Agentliyinin mütəxəssisləri tərəfindən keçirilən təlimlərdə qadınlara əmək bazarındakı aktual peşə-ixtisas sahələri, məşğulluq mərkəzlərində qeydiyyata alınma qaydası, mövcud olan vakansiyalar, peşə təhsili müəssisələrinə qəbul şərtləri, özünüməşğulluq proqramı barədə ətraflı məlumat verilib. Həmçinin təlim iştirakçılarının düzgün iş seçimində karyera planlaması, potensialın kəşf olunması, bazar imkanlarının araşdırılması, fəaliyyət planının qurulması, iş axtarışı alətləri və müsahibəyə hazırlıq mövzularında maarifləndirilməsi təmin edilib.

Təlim zamanı iştirakçıların çoxsaylı sualları cavablandırılıb, onlara "AzerGold" QSC-nin elektron işə qəbul sistemi, vakant yerlər üzrə namizədlərin imtahan üsulu ilə əmək fəaliyyətinə cəlb edilməsi, eyni zamanda Dövlət Məşğulluq Agentliyinin təqdim etdiyi xidmətlərdən istifadə imkanları barədə geniş məlumat və qadınların bu xidmətlərdən yararlanmaları üçün zəruri məsləhətlər verilib.

Layihənin növbəti mərhələsində bilik və bacarıqları məqbul hesab edilən qadınların "AzerGold" QSC-nin dəstəyi ilə Dövlət Məşğulluq Agentliyi tərəfindən müvafiq istiqamətlər üzrə peşə fəaliyyəti və özünüməşğulluq proqramına cəlb edilməsi üçün zəruri addımların atılması nəzərdə tutulur.

Qeyd edək ki, 2023-cü ildən icra edilən layihə çərçivəsində təlimlərdə iştirakdan sonra Dövlət Məşğulluq Agentliyinə rəsmi müraciət etmiş qadınlardan 2 nəfəri müvafiq peşə üzrə işlə təmin edilib, 1 nəfər üçün iş yeri təyin olunub, daha 1 nəfər növbəyə alınıb. Bundan başqa, 3 nəfər özünüməşğulluq proqramının maldarlıq zərfi üzrə aktivlərlə təmin olunub, daha 3 nəfər növbəyə alınıb, 1 nəfər isə peşə təhsilinə yönəldilib.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Fermerlər razılıq edirlər

**El arasında belə bir deyim var: "Qışdan bir ay qalmış yazdır". Budur, kiçik çillədən sonra yaranan hərarət torpağa keçərək onu qış yuxusundan oyadıb cana gətirir. Bu məqamı əkin-biçinlə məşğul olan hər bir kəndli, hər bir fermer aylardan bəri gözləyir. Ona görə gözləyirlər ki, əkdikləri taxıl sahələrinə yemləmə, karbomid və azot gübrələrini versinlər.**

Qeyd edək ki, əvvəlki illərdə bu sahədə müəyyən problemlər olmuşdur. Belə ki, subsidiya vəsaitləri fermerlərin kartına vaxtında köçürülmədiyindən torpaq mülkiyyətçiləri dövlətin bu dəstəyindən lazımınca faydalana bilməmişlər. Yəni həmin subsidiyalar lazım olan vaxtdan xeyli gec - aprel ayınıın sonlarında, bir sıra rayonlarda isə ondan da gec verilmişdir. Halbuki aqrotexniki qaydalara görə, yemləmə gübrəsi arpa, buğda və yonca bitkilərinə fevral ayının ortalarından martın sonunacan verilib başa çatdırılmalıdır.

Bu il isə vəziyyət tamam fərqlidir. Payızlıq əkinləri aparmalarını rayonlardakı Dövlət Aqrar İnkişaf mərkəzlərinə (DAİM) bəyan edən fermerlərin kartına fevralın əvvəllərindən başlayaraq vəsaitlərin köçürülməsinə başlanılmışdır. Fermerlər də həmin məbləğlərlə yerlərdəki aqrolizinqlərdən, habelə gübrələrin gətirilməsi və satışı ilə məşğul olan şirkətlərdən gübrələr alırlar. Cari ildə həmin satış təşkilatlarının fəaliyyətində də canlanma, dönüş yaranmışdır. Şirkətlərin bazalarının anbarlarında, rayonlardakı filiallarında və dükanlarında istənilən qədər Sumqayıtda istehsal olunan karbamid, Rusiyadan və Gürcüstandan gətirilən kifayət qədər mineral gübrələr və bitkiçilikdə istifadə edilən digər preparatlar var.



**Bu il mineral gübrələrin vaxtında verilməsi məhsuldarlığa xeyli dərəcədə müsbət təsir göstərəcək**

Salyan rayonunun Şorsulu kəndində yaşayan fermer Əliəsgər Eyvazov:

- Bu il subsidiyaların kartımıza vaxtında yüklənməsi bizi çox sevindirir. Əvvəlki illər bu mühüm əhəmiyyətli iş gecikdirilirdi. Aprel ayının sonlarında, may ayında verilən vəsaitlər, demək olar ki, heç bir işə yaramırdı. Arpa və buğda boru fazasına girəndə yemləmənin aparılması heç bir fayda vermir. Bunu nəzərə alan əkinçilərin çoxu heç gübrələmə tədbirini həyata keçirmirdi. Bu il isə iş yaxşı təşkil olunub. Fermerlər əkinləri barədə Salyan DAİM-ə dekabr ayının sonuna qədər məlumat verdilər. Məlumatlar elektron sistemdə oturduldu. İndi hər kəs vəsaitini kart vasitəsi ilə götürüb istədikləri yerdən gübrə ala bilər. Gübrələrin gətirilməsi ilə məşğul olan təşkilatlar da bu il işlərini yaxşı qurublar. İstədiyin gübrədən istədiyin qədər almaq mümkündür. Əkinçilər yerin və əkdikləri bitkinin xüsusiyyətlərini nəzərə alaraq bu gübrələrdən lazımi miqdarda istifadə edirlər. Adam var, bunu bir dəfəyə, adam da var, iki dəfəyə səpir. Məsələn, mən özüm çoxillik təcrübəmə əsaslanaraq, fevral ayının 20-25-i arasında nisbətən gec həll olunduğunu və torpaq tərəfindən gec, yavaş-yavaş mənimsənildiyini nəzərə alaraq hər hektara 120 kiloqram karbamid, mart ayının sonuna yaxın hər hektara 150 kiloqram azot verirəm. Bir aqronom kimi onu da demək istəyirəm ki, bu işdə torpağın xüsusiyyəti, taxılın boy inkişafı da nəzərə alınmalıdır.

Cəlilabad DAİM-in bitkiçilik sektorunun müdiri Mübariz Nadirovun dediklərindən məlum oldu ki, keçən ilin payızında rayon üzrə 56 min 560 hektara buğda, 650 hektara arpa əkilmişdir. "Yanvar ayında iki dəfə qar yağması əkinlərə məlhəm oldu. Fevral ayının birinci ongünlüyündə havaların normadan artıq isti keçməsi ziyanvericilər üçün şərait yaratsa da, sonradan yağan yağış vəziyyəti düzəltdi. Hazırda sahələrə mineral gübrələr verilir. Keçən il və ondan əvvəlki illər subsidiyaların verilməsi yubadılırdı. Buna görə fermerlərin çoxu taxıl əkinlərinə mineral gübrə verə bilmirdi. Nəticədə, məhsuldarlıq xeyli aşağı düşürdü. Bu il isə subsidiyaların vaxtında verilməsi yemləmə işinin də zamanında həyata keçirilməsinə imkan yaratmışdır. Nəticəsi biçin vaxtı özünü göstərəcək".

M.Nadirovdan öyrəndik ki, rayon üzrə 1000 hektardan çox taxıl sahələrinə yemləmə gübrəsi verilmişdir və bu iş gündən-günə sürət götürür. Nəyə görə gübrə səpilməsinin qiymətinin digər rayonlardan xeyli yüksək olmasının səbəbini isə o, Cəlilabadda əkinlərin dağlıq ərazidə aparılması və relyefi fərqli olan həmin yerlərdə texnikanın, traktorların nisbətən çətin hərəkəti ilə əlaqələndirdi.

Neftçala rayonunun Kürqarabucaq kəndində yaşayan fermer İmaməddin Dadaşov isə dedi ki, taxılçılıqda indi mühüm dövrdür - yemləmə gübrəsinin verilməsinə başlanılmışdır: "Bu işin vaxtında, aqrotexniki tələblər səviyyəsində aparılması, deyərdim ki, yayda biçəcəyimiz buğda və arpanın məhsuldarlığını müəyyən edən başlıca amildir. Mən 30 hektardan çox sahəyə arpa, 10 hektara buğda toxumu əkmişəm. Yanvar ayında düşən qarın əkinlərə çox xeyiri oldu. Bir tərəfdən, qurd-quş öldü, digər tərəfdən, torpaqda nəmlik yarandı. Allahın rizası ilə bundan sonra yağacaq yağışları da böyük səbirsizliklə gözləyirik. Bu il kartımıza köçürülən subsidiya əkinlərdə vaxtında gübrələnmənin aparılmasına imkan verib. Ayrı-ayrı şirkətlər, sahibkarlar bu işi yaxşı təşkil etmişlər. Yaranan rəqabət nəticəsində qiymətlər əvvəlki illərə nisbətən xeyli ucuzdur. İşin belə təşkili onu göstərir ki, vaxtında həyata keçirilən aqrotexniki tədbir son nəticədə məhsuldarlığın yüksəlməsinə səbəb olacaq".

Bəli, kənd təsərrüfatı işlərində mühüm dövr başlamışdır. İndi hər bir kəndli, fermer daha çox məhsul yetişdirmək üçün, necə deyərlər, qollarını çirmələyib işə girişmişdir. Onlar ilkin mərhələdə taxıl əkinlərinə mineral gübrə verir, ardınca həmin sahələri suvararaq yazda pambıq və digər bitkilər əkmək haqqında düşünürlər. İstəyirlər ki, cari ildə daha çox məhsul yetişdirsinlər, bununla ölkəmizdə həm ərzaq bolluğu yaratsınlar, həm də yaxşı gəlir əldə edib ailələrini rahat dolandırsınlar.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## 107 yaşlı su kəməri

**20 fevral 1917-ci il. Bakı əhalisi üçün çox əlamətdar günlərdən biri. 6 il davam edən "Şollar-Bakı" su kəmərinin tikintisi yekunlaşıb. Mənbəyini Bakıdan 187 kilometr uzaqdan götürən tərtəmiz içməli su təyinat nöqtəsinə çatıb. Bu münasibətlə təntənəli açılış mərasimi təşkil olunub. Fevralın 20-si tarixə "Şollar-Bakı" su kəmərinin istifadəyə verildiyi gün kimi yazılıb.**

İngilis mühəndis Uilyam Lindleyin layihəsi əsasında, məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin bilavasitə dəstəyi ilə çəkilən su kəməri artıq 107 ildir Bakı əhalisini su ilə təmin edir.

"Şollar-Bakı" su kəməri Abşeron yarımadasının içməli su təchizatı üçün çəkilmiş ilk kəmərdir. Bu kəmər mənbəyini Xaçmaz rayonunun inzibati ərazisi olan Xudat şəhəri yaxınlığındakı Şollar kəndindəki yeraltı sulardan götürür. AZƏRTAC-ın bölgə müxbiri su kəmərinin Şollar kəndindəki mənbəyində yerləşən Şollar-Bakı Su Qurğuları Kompleksinin suqəbuledici kamerasında, həmçinin kəmərin layihələndirilməsi, tikintisi və istismarı zamanı istifadə edilən əşyalardan ibarət sərgi otağında olub, burada çalışan əməkdaşlarla kəmərin 107 illik fəaliyyəti haqqında söhbət edib.

"Şollar-Bakı" su kəmərinin mənbəyi əsrarəngiz təbii mənzərəsi ilə diqqət çəkir. Ərazi uca şam və çinar ağacları ilə əhatə olunub.

Kompleks Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən çox ciddi mühafizə olunur. Əraziyə xüsusi icazə əsasında və sənədlər yoxlanıldıqdan sonra daxil olmaq mümkündür. Qeyd edək ki, hələ XX əsrin əvvəllərində tikinti işlərinin təhlükəsizliyini təmin etmək üçün ilk dəfə Su polisi məntəqəsi də bu ərazidə yaradılıb.

Xaçmaz Su Mənbələri İstismarı Sahəsinin rəisi Namik Əliyev Şollar-Bakı Su Qurğuları Kompleksinin suqəbuledici kamerasından danışdı. Dedi ki, burada Şahdağın ətəyindən süzülən yeraltı çaylardan və bulaqlardan gələn tərtəmiz suyun sifon tipli 4 tunel vasitəsilə bir mərkəzdə cəmləşərək "Şollar-Bakı" su kəmərinə axmasını müşahidə etmək mümkündür.



Namik Əliyev bildirdi ki, "Şollar" su kəmərinin mənbəyi artezian üsulu ilə qazılmış 24 quyu və lay sularından qidalanır. Birinci sifon tipli tunelə 16, ikinciyə 5, üçüncüyə isə 3 quyunun suyu daxil olur. Həmçinin dördüncü kaptaj xətti də var ki, bura lay suları və 32 bulaq qoşulur. Quyular mənbədən 2-3 kilometr şimalda "Şahdağ" silsiləsinə doğru meşəlikdə qazılıb.

"Bura "Şollar-Bakı" su kəmərinin başlanğıc nöqtəsidir. Bu tunellər vasitəsilə gələn sular burada bir yerə yığılıb kəmərə tökülür. "Şollar" kəməri ellipsoid formalı monolit betondan hazırlanmış borulardan çəkilib. Hündürlüyü 1,7, eni 1,2 metr olan borular marşrut boyunca torpağa basdırılıb. Borular özüaxımlı rejimi təmin etmək üçün ərazinin relyefindən asılı olaraq bəzi yerlərdə torpağın 2, bəzi yerlərdə isə 8 metr dərinliyində yerləşir. Bunun nəticəsidir ki, kəmər H.Z.Tağıyev qəsəbəsindəki nasosxanaya qədər özaxımlıdır. Buradan su nasoslar vasitəsilə Müşfiqabad qəsəbəsinə vurulur, oradan isə özaxımlı rejimdə Bakı şəhərinə nəql olunur", - deyə Namik Əliyev söylədi.

Kompleksin həyətində xeyriyyəçi və ictimai xadim Hacı Zeynalabdin Tağıyevin abidəsi ucaldılıb. Bura gələn hər kəs su kəmərinin çəkilməsində göstərdiyi əvəzsiz xidmətlərinə görə Tağıyevin xatirəsini böyük minnətdarlıq hissi və ehtiramla yad edir.

"Şollar-Bakı" su kəmərinin mənbəyində həm açıq havada, həm də sərgi otağında XX əsrin əvvəllərində kəmərin layihələndirilməsi, tikintisi və istismarı zamanı istifadə olunan əşyalar, texniki avadanlıqlar və fotolar nümayiş etdirilir. Sahə ustası Valeh Tarıverdiyevin sözlərinə görə, buradakı sərgi "Şollar-Bakı" su kəmərinin istifadəyə verilməsinin 100 illiyi münasibətilə yaradılıb. "Mənbəyini Şollardan götürən 187 kilometrlik su kəmərinin tikintisinə 1911-ci ildə başlanılıb. Lakin kəmərin tikintisində fasilələr yarandığından Şollar suyu Bakı əhalisinə 1917-ci ildə çatdırılıb. Bu sərgi otağında kəmərin qazıntı işləri zamanı istifadə olunan avadanlıqlar, borular, laboratoriya avadanlıqları, cihazlar var. Tikinti prosesində çəkilən nadir fotoşəkillər də burada sərgilənir. Məsələn, bu fotoda hələ kəmərin çəkilişindən öncə Bakıda çəlləklərdə su satışı bazarı təsvir olunub. O həmin vaxt idi ki, Bakıda təmiz içməli su yox idi. Bu səbəbdən bir sıra xəstəliklər yayılırdı. Bu foto isə kəmərin tikintisi zamanı betonun tərkibini yoxlamaq üçün yaradılan laboratoriyada çəkilib. Möhkəm olsun deyə o vaxt betonda istifadə olunan çınqıl əvvəlcədən yuyulub təmizlənirmiş. Baxın, həmin fotodakı bir sıra cihaz və avadanlıqlar indi burada qorunub saxlanılır. Bunlar hamısı tarixin bir parçasıdır".

Sərgidəki əşyalar və fotolarla tanış olduqca insanın gözü qarşısında su kəmərinin çəkilişi prosesi canlanır. Həmin dövrdə məhdud texniki imkanlarla, əl əməyi ilə belə bir böyük layihənin reallaşdırılması möcüzə kimi görünür.

"Şollar-Bakı" su kəmərinin çəkilməsi zamanı Lindley tərəfindən aparılan araşdırmalar bu suyun heç bir təmizləmə əməliyyatına ehtiyacı olmadığını, filtrdən keçirmədən insanlara çatdırmağın mümkünlüyünü təsdiq etmişdi. Bu gün fiziki cəhətdən sağlam nəslin yetişməsində bu gərgin və uzun illərin əməyinin böyük rolu var. Dənizə axan yeraltı çaydan mənbəyini götürən bu suyun tərkibi təbii minerallarla zəngindir.

"Şollar" su kəmərinin layihə gücü saniyədə 1,27, sutkada 109 min kubmetrdir. 1917-ci ildə istifadəyə verilən kəmərlə gətirilən suyun həcmi ilk vaxtlar layihə gücünün təxminən 1/3 hissəsini təşkil edib. 1930-cu illərdə həyata keçirilən texniki tədbirlərdən - əlavə artezian quyularının qazılması, su anbarlarının tutumunun 170 min kubmetrədək, nasos stansiyalarının gücünün 3,5 dəfə artırılmasından sonra nəql olunan suyun həcmi sutkada 109 min kubmetrə çatdırılıb.

Əbədi həyat mənbəyi olan Şollar suyu hazırda Xaçmaz, Ceyranbatan və Oğuz-Qəbələdən gələn su ilə anbarlarda qarışır və paytaxta paylanılır.

## Qazaxda ilk dəfə spirometriya testi icra edilir

**Qazax Rayon Mərkəzi Xəstəxanasında spirometriya testinin icrasına başlanılıb. Yeni aparatın tətbiqi həyata keçirilməkdədir. Spirometriya - tənəffüs hərəkətini müəyyən edən funksional testdir. Bu test ağciyərlərin funksiyasını, həyat tutumunu təyin edir.**

Artıq rayon xəstəxanasında pasiyentlərdə spirometriya vasitəsilə tənəffüs yollarının keçiriciliyi, hava axınının sürətinin məhdudlaşmasının yoxlanılması həyata keçirilir. Proses qısa müddətdə, qeyri-invaziv, ağrısız və sadəcə, nəfəs alıb verməklə, üfürməklə həyata keçirilir.

Qeyd edək ki, bu testin bronxial astma, xroniki obstruktiv ağciyər xəstəliyi, sarkoidoz və s. ağciyər xəstəliklərinin diaqnostikasında, ağırlıq dərəcəsinin təyin olunmasında, müalicənin effektivliyinin dəyərləndirilməsində, sonrakı müalicə taktikasının seçilməsində, həmçinin xəstəliyin proqnozunun qiymətləndirilməsində mühüm rolu var. Spirometriya testi vasitəsilə eyni zamanda siqaret çəkənlərdə ağciyərlərin funksiyasının qiymətləndirilməsi, əməliyyat öncəsi və sonrası xəstələrdə tənəffüs funksiyalarının dəyərləndirilməsi, obstruktiv, restruktiv xəstəliklərin diferensiasiyası da aparılır.

## Aqrar Sahə İşçilərinin Həmkarlar İttifaqı Birliyi dövlət qeydiyyatına alınıb

**Aqrar Sahə İşçilərinin Həmkarlar İttifaqı Birliyi dövlət qeydiyyatına alınıb. Bununla bağlı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən Qeyri-Kommersiya hüquqi şəxsinin dövlət qeydiyyatı haqqında şəhadətnamə, eləcə də dövlət reyestrindən çıxarış təqdim olunub.**

Aqrar Sahə İşçilərinin Həmkarlar İttifaqı Birliyi dövlət qeydiyyatından keçməklə sahə işçilərini təmsil etmək hüququ qazanır, təşkilati-hüquqi formasından asılı olmayaraq aqrar sahədə dövlət və ya özəl müəssisələrdə fəaliyyət göstərən həmkarlar təşkilatlarını özündə birləşdirir.

Aqrar Sahə İşçilərinin Həmkarlar İttifaqı Birliyi öz fəaliyyətini Azərbaycan Respublikası Konstitusiyası, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Həmkarlar İttifaqı haqqında" Azərbaycan Respublikasının Qanunu və digər qanunvericilik aktlarına uyğun olaraq həyata keçirən Respublika Həmkarlar İttifaqı Birliyidir.

# Məktublar: problemlər, rəylər, təkliflər...



● TƏHSİL

## Bir oğlu şəhid, iki oğlu müharibə veteranı olan ana

*Hazırda Lənkəran Dövlət Universitetində tələbə olan Simuzər xanım magistr təhsilini Qarabağ Universitetində almaq istəyir*

**Şəhid Cəmil Həşimli - indi bu ad bütün Azərbaycanda fəxrlə çəkilir. Kürdəmirdə dünyaya göz açan, 44 günlük haqq savaşımızda 25 yaşında canını Vətənə fəda edən Azərbaycan Ordusunun giziri Cəmil Həşimli Füzuli döyüşlərində, sözün əsl mənasında, tarix yazıb. Elə orada da şəhidlik zirvəsinə ucalıb.**



Ürəklərdə əbədi yurd-yuva quran, ölümsüzlüyə qovuşan qəhrəman dövlət tərəfindən "Vətən uğrunda", "Cəsur döyüşçü", Xocavəndin, Füzulinin, Şuşanın azadlığına görə medallarına və III dərəcəli "Vətənə xidmətə görə" ordeninə layiq görülüb.

Cəmil kimi mərd, igid və vətənpərvər oğul böyüdən 52 yaşlı Simuzər ana orta məktəbi bitirdikdən 35 il sonra Lənkəran Dövlət Universitetinə qəbul olub. Hazırda Lənkəran Dövlət Universitetinin 1-ci kurs tələbəsi olan Simuzər xanım uzun illər orta ixtisas təhsili üzrə rayon xəstəxanasında tibb bacısı kimi yüzlərlə, minlərlə insana öz şəfalı əlləri ilə ikinci həyat bəxş edib. Bununla kifayətlənməyən Simuzər ana Vətəninə, xalqına daha çox gərək olmaq məqsədilə ötən il fərdi qaydada hazırlaşaraq imtahanlara qatılıb. Keçid balını toplayaraq Lənkəran Dövlət Universitetinin tələbəsi olub. Ötən ilin ikinci sevincinə isə nənə adını qazanmaqla qovuşub.

Tələbə Simuzər ana deyir: "3 oğlum İkinci Qarabağ müharibəsində düşmənə qarşı qəhrəmanlıqla döyüşüb. Böyük və kiçik övladlarım müharibədən sağ-salamat qayıdıblar. Gizir oğlum Cəmil Həşimli şəhidlik zirvəsinə ucalıb. İndi onun adı bütün Vətən üçün əzizdir. Oğul itkisi ağırdır. Qaldı ki, Cəmilin Vətən sevgisi məni sınmağa qoymadı. Hər dəfə onun adı şirin dillərdə qəhrəmanlıq nəğməsinə dönəndə xətrinə həyata sevgim artıb. Və nəticədə çoxdankı istəyimə çatdım. Çalışıram müqəddəs şəhidlik zirvəsindən boylanan oğlumun ruhu həmişə şad olsun. Bir də mən şəhid anasıyam, dərsimi oxumaya bilmərəm deyə bir şey yoxdur. Əksinə, şəhid anası olduğum üçün dərslərimə daha yaxşı hazırlaşıram. Hələ bundan sonra arzum var ki, magistraturanı Qarabağ Universitetində oxuyum".

**Zəfər ORUCOĞLU**

● SEÇKİ

## Zəfər seçkisində iştirakımla qürurlanıram

**7 fevral prezident seçkilərində mən də iştirak etdim. İlk dəfə idi səs verirdim. Ona görə də çox böyük həyəcan, eyni zamanda sevinc hissi keçirirdim. Çünki builki seçki həm də Zəfər seçkisi idi.**



Uzun illərdən sonra işğaldan azad olunmuş torpaqlarımızda - Qarabağda, Şərqi Zəngəzurda Zəfər seçkisinin keçirilməsi hər bir gənc vətəndaşımız kimi məni də qürurlandırır, nurlu sabahlara ruhlandırır.

Seçki başlayan elə ilk saatlarda qeydiyyatda olduğum seçki məntəqəsinə yaxınlaşdım. İlk dəfə səs verdiyimi görən müşahidəçilər prosedurları mənə ətraflı başa saldılar. Heç bir maneə olmadan hüququmdan istifadə etdim. Seçimim məlum idi - zəfərin davamı. Bu seçim həm də xoşbəxt gələcəyimizin təminatı, xalqımızın rifahı deməkdir.

***Xədicə ƏZİZLİ,***
***tələbə***

AZƏRBAYCAN -a cavab verirlər

## "Hökməli bələdiyyəsinə irad bildirilib"

**"Azərbaycan" qəzetində dərc edilmiş məişət tullantıları konteynerlərinin olmadığı və tullantıların yerə tökülməsi ilə əlaqədar "Fotofakt"da qeyd olunanlarla bağlı Abşeron Rayon İcra Hakimiyyətində müvafiq araşdırma aparılmışdır.**

Bildiririk ki, Hökməli qəsəbəsi ərazisində formalaşan məişət tullantılarının daşınması üçün xüsusi texnika və qutular olmadığından tullantılar müəyyən edilmiş yerlərə toplanaraq daşınır. "Fotofakt"da qeyd olunan ərazidən məişət tullantılarının daşınmamasının səbəbi isə daşıyıcı texnikanın nasaz vəziyyətə düşməsi və daşınma qrafikinin pozulması olmuşdur. Qəsəbədaxili ərazilərdə mövcud çatışmazlıqlarla əlaqədar tərəfimizdən yerli bələdiyyəyə iradlarımız bildirilmişdir. Hazırda Hökməli bələdiyyəsi tərəfindən məişət tullantıları daşınaraq ərazi təmizlənmiş və nəzarətə götürülmüşdür.

Qəsəbədə Hökməli bələdiyyəsi tərəfindən tullantıların daşınmasının effektivliyinin artırılması məqsədilə vətəndaşlarla müvafiq müqavilə bağlayaraq, qapı-qapı gəzib toplanılması işi təşkil edilir. Eyni zamanda Bakı-Şamaxı yolu üzərində Hökməli qəsəbəsinin ərazisinə düşən hissəyə 40 ədəddən çox yeni konteyner qoyulmuş və bələdiyyə tərəfindən məişət tullantılarının daşınması ilə əlaqədar özəl şirkətlə müqavilə bağlanılmışdır.

***Yusif SADIQOV,***
***Abşeron Rayon İcra Hakimiyyəti başçısının birinci müavini***

## "Marşrut şəbəkəsində təkmilləşdirmə işləri həyata keçirilir"

**Sizin 108B, 133 və 165 nömrəli müntəzəm şəhərdaxili marşrutlarda hərəkət intervalının böyük olması və avtobusların təyin edilmiş son dayanacaq məntəqəsində yığılaraq gözləmələri barədə məktubunuza Azərbaycan Yerüstü Nəqliyyat Agentliyində baxılmışdır.**

Bildiririk ki, hazırda sərnişin tələbatına uyğun olaraq hərəkət intervalı 10-12 dəqiqə olmaqla 108B nömrəli marşrutda 10, 133 nömrəli marşrutda 15, 165 nömrəli marşrutda isə 20 ortatutumlu avtobus fəaliyyət göstərir. Lakin günün müəyyən saatlarında sözügedən marşrutların hərəkət sxemi üzrə yaranan nəqliyyat sıxlığı, eləcə də aidiyyəti qurum tərəfindən nəqliyyat vasitələrinin hərəkətinə tətbiq edilən məhdudiyyətlər, avtobuslararası hərəkət intervalının artmasına və gecikmələrə səbəb olur. Yaranan gecikmələr nəticəsində bir neçə avtobusun eyni vaxtda son dayanacaq məntəqəsinə yaxınlaşması halları müşahidə edilir.

Nəzərinizə çatdırırıq ki, Bakı şəhərində nəqliyyat infrastrukturunun və şəhər nəqliyyatının işinin daha da yaxşılaşdırılması, xidmət keyfiyyətinin artırılması, eləcə də ictimai nəqliyyatın tənzimlənməsi və müntəzəm marşrutların optimallaşdırılması məqsədilə tərəfimizdən müvafiq araşdırmalar aparılaraq marşrut şəbəkəsində təkmilləşdirmə işləri həyata keçirilir.

Müraciətinizlə bağlı tərəfimizdən sərnişindaşıma fəaliyyətinin müvafiq qanunvericiliyin tələblərinə uyğun təşkil olunması və avtobusların son dayanacaq məntəqəsində dayanma müddətinin təsdiq edilmiş hərəkət qrafikinə uyğun tənzimlənməsinə nəzarətin gücləndirilməsi sözügedən marşrutların müvəqqəti istismarçısına tapşırılmışdır.

***Heydər RÜSTƏMOV,***
***AYNA İdarə Heyətinin sədr müavini***

● MİNNƏTDARLIQ

## Səyyar görüşdə qaldırdığım məsələ həllini tapdı

**Dövlət siyasətinin əsasını təşkil edən vətəndaş məmnunluğu Samuxda daim diqqət mərkəzində saxlanılır. Vətəndaşların ərizə və müraciətlərinə baxmaq üçün keçirilən qəbullarda, səyyar görüşlərdə səslənən fikirlərə, qaldırılan məsələlərə operativ şəkildə baxılması bunun bariz nümunəsidir.**




Kəndimiz rayon mərkəzindən 60 kilometr məsafədə - Gürcüstan Respublikası ilə sərhəddə yerləşir. Bu yaxınlarda rayon rəhbərliyinin kəndimizdə keçirdiyi səyyar görüşdə qaldırdığım məsələ öz həllini tapdı. Belə ki, kəndimizdə təqaüdlərin alınması və digər bank əməliyyatlarının həyata keçirilməsi üçün bankomatın qoyulmasını xahiş etmişdim. Sağ olsunlar, xahişim yerinə yetirildi. Samux Rayon İcra Hakimiyyətinin dəstəyi ilə "KapitalBank" ASC tərəfindən bankomatın qoyulması təmin edildi. Bizim kənd və ona yaxın olan digər kəndlərin sakinləri artıq bu bankomatın xidmətlərindən istifadə edirlər. Bu işdə əməyi keçən hər kəsə minnətdarlığımızı bildiririk.

***Fərmayıl HƏSƏNOV,***
***Samux rayonu Poylu kənd sakini, şəhid atası***

## ● Fotofakt









*Fotolar İlham BABAYEVİNDİR*

***Qədim sənət növlərindən olan papaqçılığa maraq azalsa da, nə yaxşı hələ də bu sənətlə məşğul olanlar var.***

***Babalarımızdan yadigar qalan papaqçılıq sənətini yaşatmaq üçün yeni nəsildə bu sənətə maraq oyatmaq, sənətin sirlərini öyrətmək vacibdir. Son zamanlar tədbirlərdə, xına mərasimlərində milli geyimlərə üstünlük verildiyinə görə milli papaqlara da tələbat artıb.***

***Nəsildən-nəsilə ötürülən papaqçılıq sənətinə və papağa həmişə hörmətlə yanaşılıb. Papaq təkcə geyim, baş örtüyü deyil, həm də qeyrət, əzm, qürur rəmzi sayılır.***

***Nərminə ƏSGƏROVA,***
***"Azərbaycan"***

● GÜZƏRAN

## Əmək yarmarkasında özümə iş tapdım

**Uzun illər idi ki, işsiz idim. Bu yaxınlarda eşitdim ki, "Saloğlu" mebel fabrikinə işçi tələb olunur. Bununla bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyinin Qazax-Tovuz Regional Məşğulluq Filialının təşkilatçılığı ilə Tovuzda əmək yarmarkası keçiriləcək. Gözləyib həmin yarmarkada iştirak etdim.**



Tovuz Olimpiya İdman Kompleksində keçirilən əmək yarmarkasında işaxtaranlara "Saloğlu" fərdi firması tərəfindən 570 vakansiya təklif olunurdu. Yarmarkada həmçinin işsiz və işaxtaran şəxslərə agentliyin aktiv məşğulluq tədbirləri barədə məlumat da verilirdi. İş üçün müraciət edən şəxslərin CV-lərini qəbul edir, özünüməşğulluq proqramından yararlanmaq istəyən vətəndaşların isə qeydiyyatı aparılırdı.

Təklif olunan işləri və əməkhaqlarını nəzərdən keçirəndə gördüm ki, mənə uyğun iş yeri var. Müraciət etdim və bir neçə gün sonra işlə təmin olundum. Bu fürsəti yaratdığı üçün fabrik rəhbərliyinə və hökumət qurumlarına minnətdarlığımı bildirirəm.

***Zəminə ƏSGƏROVA,***
***Tovuz rayon sakini***

● RAZILIQ

## "ASAN xidmət"də çətin iş yoxdur

**Bir neçə gündür sevincimin həddi-hüdudu yoxdur. Neçə illər idi ki, evimin sənədləşdirilməsi məsələsi məni çox narahat edirdi. Heç bilmirdim ki, nəyi necə edim.**

Axır "ASAN kommunal"a üz tutub sənədləri onlara təqdim etdim. Onlar bütün kağızları araşdırıb iki gündən sonra yaxınlaşmağımı bildirdilər. Elə də oldu. Dedikləri gün həmin ünvana yaxınlaşdım. Təqdim etdiyim sənədlər yerli-yataqlı hazırlanıb mənə verildi. Sevindim, çünki əvvəllər illərlə bu işin üstünə düşsəm də, bir xeyri olmurdu. Bir dəfə də şəxsiyyət vəsiqəmin dəyişdirilməsi ilə bağlı "ASAN xidmət"ə müraciət etdim. Dedikləri gün yenisini mənə təqdim etdilər.

Həqiqətən, ölkəmizdə müasirliyə doğru atılan addımlar təqdirəlayiqdir. Və biz də öz növbəmizdə bu müasirliyi, rahatlığı yaradanlara minnətdarlığımızı bildirməliyik.

***İsmayıl MƏMMƏDOV,***
***Bakı şəhər sakini***

● QÜRUR

## Zəfər ardınca zəfər

**1949-cu ildə Gədəbəy rayonunun Qaraməmmədli kəndində ziyalı ailəsində doğulmuşam. 1971-ci ildə keçmiş Azərbaycan Politexnik İnstitutunu tikinti mühəndisi ixtisası üzrə bitirdikdən sonra 3 il indiki Bişkekdəki "Qırğızyollayihə" İnstitutunda layihəçi mühəndis işləmişəm.**

Sonra Vətənə - Azərbaycana qayıdıb uzun müddət dəmir yolu sistemində işləmişəm. Azərbaycanın Fəxri dəmiryolçusuyam. Amma məqsədim özümü təqdim etmək deyil. Bu məktubu "Azərbaycan" qəzetinə yazmaqla son illər ölkəmizdə baş verən qürurlu hadisələrə münasibət bildirmək, ürək sözlərimi çatdırmaqdır.

Təcavüzkar Ermənistanın hiyləgərliyi, riyakarlığı, "böyük Ermənistan" yaratmaq xülyası, nəhayət, ona çox baha başa gəldi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın rəşadətli Silahlı Qüvvələri mənfur düşmənin "yenilməz ordu"sunu darmadağın etdi. 30 il ərzində erməni separatçılarının işğal etdikləri ərazilərimizdə yaratdıqları hərbi bazalardan, yeraltı tunellərdən, istehkamlardan əsər-əlamət qalmadı. Bununla əsgər və zabitlərimizin qəhrəmanlığı, xalqımızın birliyi, Ali Baş Komandanın uzaqgörən və qətiyyətli siyasəti nəticəsində tarixi ərazilərimiz işğalçıların tapdağından azad olundu, üçrəngli bayrağımız qədim və əzəli torpaqlarımızda dalğalandı.

Mən bu yaşda qürur hissi keçirirəm ki, müstəqil Azərbaycanın bütün ərazisində ilk dəfə keçirilən prezident seçkisində iştirak etdim. Etiraf edim ki, indiyə qədər iştirak etdiyim seçkilərin heç birində fevralın 7-də gördüyüm qədər qələbəliyin şahidi olmamışdım. Gədəbəylə əlaqə saxladım, dedilər orada da əhali seçkiyə kütləvi surətdə qatılıb. Bu, əsl xalq dəstəyi, xalq həmrəyliyi idi. Həmin dəstəyin ünvanı, həmrəyliyin səbəbkarı isə qalib Prezident İlham Əliyevdir. Amma bu qələbə təkcə İlham Əliyevin deyil, bütün xalqımızın, ölkəmizin, dövlətimizin qələbəsidir. Bu, Zəfər ardınca zəfərdir.

***Ələddin ŞİRİNOV,***
***Azərbaycanın Fəxri dəmiryolçusu***

● MƏMNUNLUQ

## Yolun təmiri gecikdirilmədi







**Zaqatala ölkənin dilbər bölgələrindən biridir. Bu yerlərin təbiəti qonaqları hər zaman heyran qoyur.**

Ancaq son zamanlar ağır yük maşınları rayonun magistral yollarını sıradan çıxarmağa başlamışdı. Belə ərazilərdən biri də Zaqatala şəhərində bazar istiqamətindəki yol idi. Əsasən, yük avtomobilləri yolda çuxurlar yaratmışdı. Rayon rəhbərliyinin problemə müdaxiləsi nəticəsində ərazidə təmir işlərinə başlanılmışdır. Sakinlər adından görülən işlərə görə rayon rəhbərliyinə və aidiyyəti qurumlara minnətdarlığımı bildirirəm.

***İlkin MƏMMƏDOV,***
***Zaqatala rayon sakini***

● GİLEY

## Diqqətdən kənar məkan

**Bu yaxınlarda yolum "Ər-Riyad" ticarət mərkəzinə düşdü. Elə marşrutdan düşüb keçidə yaxınlaşdım ki, yolun o biri üzünə keçim, rastlaşdığım mənzərə mənim bura nə üçün gəldiyimi belə, yadımdan çıxardı.**

Keçidin girişindəki səkinin üz örtüyü söküldüyündən altındakı mişar daşları görünürdü. Keçidin pilləkənlərinə atılmış siqaret kötükləri, qutuları və başqa tullantılar istər-istəməz adamda xoşagəlməz təəssürat yaradırdı. Sanki buralar heç vaxt təmizlənmir. "Ər-Riyad" ticarət mərkəzi tanınmış bir məkandır. Bura xarici qonaqlar da üz tuta bilərlər. Bəs yaxşı, onlar bu natəmizliklə rastlaşanda ölkəmiz haqqında nə düşünərlər?

***Süleyman MƏMMƏDOV,***
***Bakı şəhər sakini***

# "Azərenerji" və bp Səngəçal terminalının elektrikləşdirilməsi üçün memorandum imzalayıblar

## Karbon emissiyasının azaldılması üçün daha bir addım atıldı





**"Azərenerji" və bp Səngəçal terminalının operatoru kimi bu gün Qarşılıqlı Anlaşma Memorandumu (QAM) imzaladılar. Sənədə əsasən, tərəflər Səngəçal terminalının elektrikləşdirilməsini nəzərdə tutan bir layihə üçün texniki həll hazırlamaq məqsədilə birlikdə işləyəcəklər.**

Yeni imzalanmış sənədə əsasən, hər iki tərəf "Səngəçal terminalının elektrikləşdirilməsi layihəsi" (STEL) üzrə ümumi iş həcminin müəyyənləşdirilməsi və bu həcmin "Azərenerji" ilə Səngəçal terminalının operatoru arasında bölüşdürülməsi istiqamətində əməkdaşlıq edəcək. Qurumun Mətbuat xidmətindən verilən məlumata görə, tərəflər həmçinin iş həcmini dəqiqləşdirmək üçün layihənin müfəssəl texniki dizaynı və kommersiya çərçivəsinin razılaşdırılması yönümündə də birgə işləyəcəklər. Bu məsələlər layihənin kommersiya səmərəliliyinin müəyyənləşdirilməsinin əsas elementini təşkil edir.

*STEL layihəsi uğurla həyata keçərsə, dünyasəviyyəli obyekt olan Səngəçal terminalını enerji ilə təmin etmək üçün istifadə olunan yanacaq qazının yandırılması dayandırılacaq və terminal Azərbaycan dövlət enerjisistemindən enerji ilə təchiz olunacaq. Daha dəqiqi "Səngəçal terminalının elektrikləşdirilməsi layihəsi" (STEL) adlanan bu layihə həyata keçirildikdən sonra, dünyasəviyyəli obyekt olan Səngəçal terminalının elektrik enerjisi təchizatı bp şirkəti tərəfindən Cəbrayıl rayonu ərazisində tikiləcək 240 MVt gücündə "Şəfəq" Günəş-Elektrik Stansiyasında istehsal olunan elektrik enerjisinin Azərbaycan dövlət enerjisistemi əraziyə ötürülməsi vasitəsilə təchiz olunacaq. "Şəfəq" Günəş-Elektrik Stansiyasında istehsal olunan enerji Səngəçal Terminalının təchizatı üçün çatışmadıqda terminalın elektrik enerji təchizatı "Azərenerji" ASC tərəfindən təmin olunacaqdır.*

Enerjisistemdən verilən elektrik enerjisi daha az karbon sərfiyyatlı olduğu üçün terminaldakı neft-qaz əməliyyatlarından yaranan istixana qazı emissiyaları elektrikləşdirilmə nəticəsində azalacaq ki, bu da Xəzər regionunda emissiyaların azaldılmasına və ümumiyyətlə, ölkənin "yaşıl enerji" keçidinə töhfə verəcək.

*"Azərenerji"nin rəhbəri Baba Rzayevin sözlərinə görə, alternativ və bərpaolunan enerji mənbələrinə keçidin sürətləndirilməsi, atmosferə atılan karbon qazının miqdarının azaldılması və digər mütərəqqi prinsipləri özünə prioritet seçən və 2024-cü ili "yaşıl dünya naminə həmrəylik ili" elan edən Azərbaycanda 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası çərçivəsində, həmçinin BMT-nin Dayanıqlı İnkişaf məqsədlərinə uyğun ardıcıl addımlar atılır. "Yaşıl enerji sahəsinin genişləndirilməsi və atmosferə atılan zərərli maddələrin azaldılması ilə bağlı cənab Prezident İlham Əliyevin strategiyasına uyğun olaraq həyata keçirilən tədbirlər göz qabağındadır. Bu gün imzalanan anlaşma memorandumu da karbon qazının azaldılması niyyətinə öz töhfəsini verəcəkdir".*

***"Azərbaycan"***

# 86 milyon uşağın aclıq fəryadı

## Afrikada 5 yaşa qədər 63 milyon uşaq inkişafdan geri qalır, 3 milyon uşaqda isə orqanizm resursları tükənir





**Yaranmış bu acınacaqlı vəziyyətlə əlaqədar Afrika İttifaqı Komissiyası, Afrika İnkişaf Bankı və onların tərəfdaşları uşaqların qidalanmasını yaxşılaşdırmaq üçün yeni öhdəlik götürməyə çağırır.**

Afrika İnkişaf Bankının qrup prezidenti Akinvumi Adesina deyir: "Bizim üzərimizdə, Afrikada qida çatışmazlığı və boy artımı ləngiməsini 2025-ci ilə qədər, yəni bir ildən sonra 40 faiz azaltmaq öhdəliyimiz və məsuliyyətimiz var".

Afrika liderləri, Afrika İttifaqı və "Qidalanma sahəsində Afrika Liderləri" təşkilatının sədri, Lesoto Kralı III Letsi tərəfindən təşkil edilən "dəyirmi masa" görüşündə qeyd ediblər ki, Afrika uşaqları qida çatışmazlığı üçün yüksək bədəl ödəyir.

Dövlət və hökumət başçıları, vitse-prezidentlər, nazirlər və tərəfdaş təşkilatların rəhbərləri üçün bu vəziyyət Afrikanın inkişafı ilə bağlı çox böyük problem yaradır. Onlar Əddis-Əbəbədə Afrika İttifaqı Sammitinin 37-ci növbəti şessiyası çərçivəsində təşkil olunan "Afrika İttifaqının Dəyirmi Masası - Aclığa qarşı mübarizə, Afrikanının transformasiyası üçün Çoxsektorlu İnvestisiyaların Artırılmasının Stimullaşdırılması" adlı toplantıda çıxış ediblər.

Lesoto Kralı III Letsi adından danışan krallığın baş naziri və müdafiə, milli təhlükəsizlik və ətraf mühit naziri Samuel Ntsokoane Matekan Afrika İttifaqına üzv dövlətləri çoxsektorlu investisiyalar vasitəsilə qidalanmanın yaxşılaşdırılması üçün siyasət və proqram qərarlarını təqdim etməyə çağırıb.

Müzakirələrin birində çıxış edən Efiopiya Federativ Respublikasının Prezidenti Sahle-Vork Zevde 2015-ci ildə Efiopiya hökuməti tərəfindən qəbul edilmiş Sekota Bəyannaməsini aclığa son qoymaq, ərzaq təhlükəsizliyinə nail olmaq, qidalanmanın yaxşılaşdırılması və dayanıqlı kənd təsərrüfatının təşviqi ilə bağlı yeni öhdəlik kimi vurğulamışdır. Sekota Bəyannaməsi Efiopiya hökumətinin 2030-cu ilə qədər iki yaşından kiçik uşaqlar arasında boy artımının dayanmasına son qoymağa dair yüksəksəviyyəli öhdəliyini əks etdirir.

Sahle-Vork Zevdenin bildirdiyinə əsasən, Afrika İnkişaf Bankının Sekota Bəyannaməsinə verdiyi dəstək xəstəliklərin və ölüm hallarının qarşısının alınmasına, təhsilin keyfiyyətinə və əmək məhsuldarlığına böyük təsir göstərib.

Qeyd edilib ki, pis qidalanma məktəbyaşlı uşaqların təhsil potensialına çatmasına mane olur, məhsuldarlığı azaldır və cəmiyyətə çox ehtiyac duyulan töhfələrin qarşısını alır, eyni zamanda iqtisadi artıma mənfi təsir göstərir.

Qidalanma və ərzaq təhlükəsizliyinə innovativ sərmayələrə təsir etmək məqsədi daşıyan yüksəksəviyyəli siyasətlə bağlı fəaliyyət platforması olan "Qidalanma sahəsində Afrika Liderləri" təşkilatının həmtəsisçisi kimi Akinvumi Adesina xəbərdarlıq edib ki, təxirəsalınmadan tədbir görülməsə, vəziyyət daha da pisləşə bilər: "Afrikada az qidalanan insanların sayının 51,5 faizə yüksələcəyi gözlənilir. Buna görə də qida sistemlərinin transformasiyasına diqqət yetirmək təcili prioritetdir".

O, Ümumdünya Ərzaq Proqramının Afrikadakı aclığın təsiri ilə bağlı araşdırmasına istinad edib. Bu, az qidalanmanın sosial tərəqqiyə əhəmiyyətli təsir göstərdiyini nümayiş etdirir.

Sierra Leonenin vitse-prezidenti Məhəmməd Yulde Calloh, ölkəsinin qidalanma üçün çoxtərəfli qurumlar tərəfindən dəstəklənə biləcək xüsusi büdcə xətti açdığını diqqətə çatdırıb.

Qidalanma ilə mübarizədə siyasi liderliyin və əməkdaşlığın vacibliyini vurğulayan Afrika Birliyinin Səhiyyə üzrə komissarı Minata Samate Sessuma, Afrika İttifaqının prezidenti Musa Faki Mahamat adından bütün üzv dövlətləri qida çatışmazlığı ilə mübarizədə səylərini birləşdirməyə çağırıb.

İnkişaf tərəfdaşları olan Big Win Philanthropy, Nutrition International və Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) tərəfindən təşkil edilən "dəyirmi masa"da Afrikanın milli strateji məqsədləri vurğulanıb.

Efiopiya Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının nümayəndəsi Farai Zimudzi qeyd edib ki, bu gün iyirmi il əvvəlki vəziyyətlə müqayisədə böyümə geriliyi olan uşaqların sayı daha çoxdur və Afrikada boy artımının ləngiməsi ilə bağlı statistika artmaqdadır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçiriləcək "Bakı Marafonu 2024"ə qeydiyyat başlayır

**Mayın 5-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Bakı Marafonu 2024" keçiriləcək. AZƏRTAC xəbər verir ki, marafonda iştirak üçün qeydiyyat martın 1-dən aprelin 25-nədək aparılacaq. Yarışda 18 yaşdan yuxarı şəxslər iştirak edə bilərlər.**




Bunun üçün Bakı şəhərinin ticarət mərkəzlərindəki ("28 Mall", "Gənclik Mall", "Dəniz Mall") qeydiyyat məntəqələrinə və ya onlayn qeydiyyat üçün www.marathon.az saytına müraciət edilməlidir.

Yarışda iştirak etmək istəyən fiziki şəxslər üçün qeydiyyat zamanı ödəniş məbləği 20 AZN-dir. Korporativ olaraq qoşulanlar isə info@marathon.az elektron poçt ünvanına yazaraq müraciət edə bilərlər. Korporativ müraciətlərdə (hər təşkilatdan minimum 5 iştirakçı olmalıdır) hər iştirakçıya görə 100 AZN ödənilməlidir. Bakı marafonunda tələbələrin iştirakı ilə bağlı ödəniş Heydər Əliyev Fondu tərəfindən qarşılandığından, onlar qeydiyyat zamanı vəsait ödəmirlər.

2016-cı ildən təşkil olunan ənənəvi Bakı marafonu idmanın inkişafına dəstək göstərmək, sağlam həyat tərzini təbliğ etmək məqsədi daşıyır. "Küləyə qalib gəl" şüarı altında keçirilən yarımarafon 21 kilometr məsafəni əhatə edir.

Budəfəki marafonun da start və finiş nöqtələri Dövlət Bayrağı Meydanında olacaq. Marafonun marşrutu: Dövlət Bayrağı Meydanı - Dənizkənarı bulvar - Bakı Beynəlxalq Dəniz Vağzalı - Neftçilər prospekti - Bakı Ağ Şəhər bulvarı - Xəqani Rüstəmov küçəsi - Bakı Ağ Şəhər bulvarı, 8 Noyabr prospekti, Yusif Səfərov küçəsinin bir hissəsi - Afiyəddin Cəlilov və Üzeyir bəy Hacıbəyli küçələrinin kəsişməsi, "Cavanşir" körpüsündən keçməklə Üzeyir bəy Hacıbəyli küçəsi - Neftçilər prospekti, Bayıl dairəsi, Bibiheybət yolu (Su İdmanı Sarayı) və Dənizkənarı bulvar boyunca hərəkət edərək (Su İdmanı Sarayının arxası, Bakı Kristal Zalı) - Dövlət Bayrağı Meydanı.

"Bakı Marafonu 2024"ün mükafatlandırılması iki kateqoriyada olacaq. Kişi və qadın kateqoriyalarının hər birində 1-ci yerin qalibi 3 000 AZN, 2-ci yerin qalibi 2 000 AZN, 3-cü yerin qalibi isə 1 000 AZN məbləğində mükafat və hədiyyələrlə, eləcə də medal və sertifikatlarla təltif olunacaq. Bütün marafon iştirakçılarına və yarışın təşkilinə dəstək göstərən könüllülərə sertifikatlar təqdim olunacaq.

Marafon iştirakçıları, şəhər sakinləri və qonaqlar üçün Dövlət Bayrağı Meydanında əyləncə zonası da yaradılacaq. Burada müxtəlif əyləncə proqramları, yarışlar, idman tədbirləri keçiriləcək.

"Bakı Marafonu 2024"ün eksklüziv tərəfdaşı "Azercell Telekom" şirkətidir. Marafon Elm və Təhsil Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, SOCAR, Dənizkənarı Bulvar İdarəsi və "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) dəstəyi ilə təşkil olunur. Layihənin icrasını isə Sport Marketing Group (SMG) şirkəti həyata keçirir.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**


# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Məzahir Əfəndiyevə atası
**CAVİD ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Məzahir Əfəndiyevə atası
**CAVİD ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Milli Məclisin deputatı Rüfət Quliyevə anası
**TAHİRƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi sabiq iş yoldaşları Atakişi Quliyevə həyat yoldaşı
**TAHİRƏ QULİYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı "91-lər"dən Ağabəy Əsgərova həyat yoldaşı
**LEYLA QACAROVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin deputatı Rüfət Quliyevə anası
**TAHİRƏ QULİYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyevə qardaşı
**VİDADİ ALIYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəhbərliyi Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyevə qardaşı
**VİDADİ ALIYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əhməd Əhmədzadə Alı Alıyevə qardaşı
**VİDADİ ALIYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bəxtiyar Sadıqov ailəsi ilə birlikdə Ağabəy Əsgərova həyat yoldaşı
**LEYLA QACAROVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Rüfət Quliyevə anası
**TAHİRƏ QULİYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Rüfət Quliyevə anası
**TAHİRƏ QULİYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi Milli Məclisin deputatı professor Rüfət Quliyevə anası
**TAHİRƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4211
Sifariş 397

Qiyməti 60 qəpik